**BAKI AVRASİYA UNİVERSİTETİ**
**Elmi-nəzəri jurnal**

# SİVİLİZASİYA

# ЦИВИЛИЗАЦИЯ

# CIVILIZATION

“Sivilizasiya” jurnalı Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısında Tarix; Siyasi elmlər; Fəlsəfə və Sosiologiya; Filologiya elmləri; Pedaqoqika sahəsi üzrə elm sahələrinə daxil edilib.

**Directory of Research Journals Indexing (DRJI) ilə indekslənmişdir.**
**Jurnal ildə 4 dəfə nəşr edilir.**

**Cild 11 №2 2022 (51)**
**Vol. 11 №2 2022 (51)**
**Том 11 №2 2022 (51)**

**BAKI – 2022**

**Təsisçi**
Bakı Avrasiya Universiteti

**Baş redaktor**
F.e.d., prof. Hüseynli Nazim Ziyad oğlu

**Baş redaktorun müavini**
S.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı

**Məsul katib**
Fil.ü.f.d., dos. Şıxıyeva Səadət Məmməd qızı

## REDAKSİYA HEYƏTİ

**Tarix və siyasi elmlər üzrə:**

Prof. Dr. Attar Aygün (Türkiyə)
S.e.d., prof. Ryabova Yelena Lvovna (Rusiya)
T.e.d., prof. Nikonov Aleksandr Vasilyeviç (Rusiya)
T.e.d. Natia Mirianaşvili (Gürcüstan)
AMEA-nın həqiqi üzvü, t.e.d., prof. Bünyadov Teymur Əmiraslan oğlu
T.e.d., prof. Cəfərov Əsədulla Qüdrət oğlu
T.e.d., prof. İsgəndərov Anar Camal oğlu
T.e.d., prof. Qasımlı Musa Cəfər oğlu
T.e.d., prof. Şükürov Kərim Kərəm oğlu
T.e.f.d., dos. Mehdiyev Aqşin Şəfaət oğlu
T.e.ü.f.d. Rüstəmova Aybəniz Vilayət qızı
S.e.d., prof. Məmmədov Hikmət Baba oğlu
S.e.ü.f.d. Qasımov Səyavuş Kamran oğlu
S.e.d., prof. Nəsirli Elman Xudam oğlu (şöbə redaktoru)

**Fəlsəfə və sosiologiya elmləri üzrə:**

Prof. Dr. Günsel Suat (KKTC)
Prof.Dr. Məmmədov Nizami Mustafa oğlu (Rusiya)
Doç. Dr. Abdıldayev Kurmanbek (Qırğızıstan)
F.e.d., prof. Orucov Zahid Məlik oğlu (Rusiya)
AMEA-nın müxbir üzvü, prof. Əliyev Bəxtiyar Həmzə oğlu
F.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlu
F.e.d., prof. Məmmədov Əziz Bəşir oğlu
F.e.d., prof. Talışlı Siyavuş Murtuza oğlu
F.e.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlu
F.e.f.d., dos. Qaraməmmədli Yasin Alı oğlu
F.e.f.d. Rəhimov Mütəllim Qara oğlu (şöbə redaktoru)

**Filologiya elmləri üzrə:**

Prof. Dr. Bozkurt İsmayıl (Türkiyə)
Prof. Dr. Koraş Hikmət (Türkiyə)
AMEA-nın müxbir üzvü, fil.e.d., prof. Cəfərov Nizami Qulu oğlu
Fil.e.d., prof. Qasımov Cəlal Əbil oğlu
Fil.e.d.,prof. Cəlilov Firudin Ağası oğlu

Fil.e.d.,prof. Qasımov İkram Ziyad oğlu
Fil.e.d. prof. Veysəlli Fəxrəddin Yadigar oğlu
Fil.e.d., dos. Rzayev Seyfəddin Gülverdi oğlu
Fil.ü.f.d, prof. Məmmədov Novruz İsmayıl oğlu
Fil.e.d., dos. Cəlil Fərəh Cabbar qızı
Fil.ü.f.d., dos. Quliyev Əsgər Qədir oğlu
Fil.ü.f.d., dos. Gündoğdu Səriyyə Gülağa qızı
Fil.ü.f.d., dos. Məmmədova Elmira Kekeç Fikrət qızı
Fil.ü.f.d., dos. Hüseynova Nigar Nazim qızı
Fil.ü.f.d., dos. Rzayeva Sevda Ramiz qızı
B/m. Musayev Nəsrəddin Musa oğlu
Fil.e.f.d., prof. Tahirzadə Ədalət Şərif oğlu (şöbə redaktoru)

**Pedaqoqika sahəsi üzrə:**

P.e.d., prof. Hüseynzadə Rüfət Lətif oğlu
P.ü.f.d., dos. Səmədov Oqtay Əlipaşa oğlu
Ps.ü.f.d., dos. Cavadov Rövşən Əli oğlu (şöbə redaktoru)

**İqtisad elmləri üzrə:**

İ.e.d., prof. Veduta Yelena Nikolayevna (Rusiya)
Assoc. Prof. Dr. Jose R.Hernandez-Carrion (İspaniya)
Doç. Dr. Faruk Mike (Türkiyə)
Dr. German Martinez Prats (Meksika)
İ.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlu
İ.e.d., prof. Məmmədov Elşad Yaqub oğlu
İ.ü.f.d., dos. Ələsgərova  Flora Qəməndər qızı (şöbə redaktoru)

**© Bakı Avrasiya Universitetinin nəşri, 2022**

# İ Ç İ N D Ə K İ L Ə R

## *FƏLSƏFƏ VƏ SOSİOLOGİYA*


**Нигяр ШАХГУСЕЙНБЕКОВА**
*Социальные институты и их взаимодействие в условиях современного общества*............................................................................................ 6

**Məftunə İSMAYILOVA**
*Sosiologiyada məişət zorakılığı anlayışına nəzəri baxış*................................ 12

**Sara AĞAYEVA**
*Natamam ailələrin sosial statusu*........................................................... 20

**Nuray QİBLƏLİYEVA**
*Mənəvi dəyərlərin qaynaqları və fəlsəfi mahiyyəti*.................................... 28


## *TARİX VƏ SİYASİ ELMLƏR*


**Sahib VƏLİYEV**
*Azərbaycan abidələr məskənidir*................................................................ 35

**Назиля СОЛТАНОВА**
*Платформа Института физики НАН Азербайджана*.............................. 42

**Nərgiz CARÇIYEVA**
*İranın xarici təhlükəsizlik siyasətində nüvə proqramının yeri və rolu: ABŞ və İsrail faktoru*........................................................................................ 52

**Seyda CEVİKEL, Fatma Betül AYDEMİR**
*Azerbaijan-Russia Relations in the Period from the First Karabakh War to the Victory in the Second Karabakh War*………………………………………….... 63

**Cəlal XƏLİLOV**
*Almaniya ilə Avropa İttifaqının siyasi münasibətləri*...................................... 70

**Vida ABBASZADƏ**
*Dini (islami) terrorizm faktoru və onun alman cəmiyyətində doğurduğu təhlükəsizlik problemləri*........................................................................ 78

**Sevinc MƏMMƏDOVA**
*Aprel çevrilişindən sonra Azərbaycan SSR-İran siyasi münasibətləri (aprel - dekabr 1920)*.......................................................................................... 86

**Lamiyə AXUNDOVA**
*Enerji təhlükəsizliyi beynəlxalq təhlükəsizliyin tərkib hissəsi kimi*.............................. 94

**Şəfa ƏBDÜRRƏHİMOVA**
*I Dünya müharibəsindən sonra Fransa-Türkiyə BMM hökuməti yaxınlaşmasının iqtisadi səbəbləri*.......................................................................... 101

**Aytaj BAGHIRLI**
*What are the Results of Gas Market Liberalization, in the Period of 2000-2003, with the Case Studies of United States of America and United Kingdom?*........................................................................................................ 107

**Сабина ГУСЕЙНОВА**
*Разработка информационных технологий для эффективной работы органов в самоуправлении*........................................................................... 115

**FİLOLOGİYA**

**Seyfəddin ALTAYLI**
*Nəcməddin Kübrəvidən Həsənoğlunun şeyxi Əhməd Zakirə qədər: təsəvvüfi düşüncə tarixinə bir nəzər*...................................................................................... 120

**PEDAQOQİKA**

**Вусаля ГАСАНОВА**
*Экологическая культура и образование – реальность*.............................. 129

**İQTİSADİ EİMLƏR**

**Ədalət ƏSƏDOV**
*Regionun maliyyə potensialının qiymətləndirilməsinin xidmət sahibkarlığının inkişafında rolu*............................................................................................ 134

**Behbidalı NOVRUZLU**
*Birbaşa xarici investisiyaların inkişaf etməkdə olan ölkələrə təsiri*.............. 140

**Səxavət MİRZƏYEV**
*Rəqabət qabiliyyətli məhsul istehsalının elmi-nəzəri əsasları*....................... 147

**Aqil QURBANZADƏ**
*Azərbaycanda biznesin inkişafının müasir vəziyyətinin təhlili*...................... 154

**İlkin ZEYNALLI**
*Azərbaycanın iqtisadi inkişafında logistika infrastrukturunun rolu*................. 160

**Bizim müəlliflər**.......................................................................................... 165

**Düzəlişlər**...................................................................................................... 167

**Yazı qaydaları**............................................................................................. 168

**Правила написания**.................................................................................... 170

**Rules of writing**........................................................................................... 172

**Yazı kuralları**............................................................................................... 174

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

**UOT 316.33**

# СОЦИАЛЬНЫЕ ИНСТИТУТЫ И ИХ ВЗАИМОДЕЙСТВИЕ В УСЛОВИЯХ СОВРЕМЕННОГО ОБЩЕСТВА

**Нигяр ШАХГУСЕЙНБЕКОВА***

*Məqalə redaksiyaya daxil olmuşdur: 11 fevral 2022; çapa qəbul edilmişdir: 15 aprel 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received: 11th of Feburary, 2021; accepted: 15 th of April, 2022; published online: 30 th of June, 2022*

***Ключевые слова:*** *социальный институт, институт образования, семья, здоровье, человеческий капитал*

## Введение

Социальная практика современного мира выдвигает жизненно важные задачи определённых типов социальных отношений на путях формирования необходимых обязательных для членов определенного общества или определенной социальной группы. Это прежде всего относится к тем социальным отношениям, вступая в которые, члены социальной группы обеспечивают удовлетворение наиболее важных потребностей, необходимых для успешного функционирования группы как целостной социальной единицы. Так, потребность в воспроизводстве материальных благ и гуманитарных ценностей ориентирует человека в практической сфере прежде всего:

а) закреплять и поддерживать производственные отношения;

б) потребность социализировать подрастающее поколение и воспитывать молодежь на образцах культуры группы заставляет закреплять и поддерживать семейные отношения, отношения обучения молодых людей.

Современное общество формируется из системы социальных институтов и представляет собой довольно сложную совокупность политических, экономических, правовых, социальных и духовных отношений, которые обеспечивают целостность общества как социальной системы. «Социальный институт» является одним из фундаментальных понятий, важной категорией в социологической мысли.

Термин «институт» (от лат. institutum – установление, устройство) был внедрён в социологическую науку из юриспруденции, где он используется для обозначения комплекса норм, отвечающих за регулирование правовых отношений: институт собственности, институт наследования, институт брака. В социологической литературе термин «институт» стал использоваться с момента возникновения социологии и «охватывает широкий диапазон общественных отношений олицетворением социальных связей» [9, с. 215].

Г.Спенсер одним из первых ввёл в научный оборот понятие «социальный институт». Он впервые показал чёткую классификацию социальных институтов,

* *диссертант, Институт Философии НАНА, Университет «Азербайджан»*
*e-mail:* nigar.shah@mail.ru

открыв таким образом возможность институционального анализа общественной жизни.

«Эти, своего рода органы в сложной системе, каковой является общество, упорядочивают социальные отношения, согласуют их, объединяют отдельных индивидов, социальные группы и организации в одно системное целое – общество, обеспечивая его поступательное прогрессивное развитие». [2, с. 202]

Американский социолог Т.Веблен, основоположник институционализма, считает, что «социальные институты не только сами есть результат процесса отбора и приспособления, формирующего и преобладающие или господствующие типы отношений и духовную позицию; они в то же время являются особыми способами существования общества, которые образуют особую систему общественных отношений и, следовательно, в свою очередь выступают действенным фактором отбора». [3, с. 107]

Начиная с 20-х годов XX века исследования англо-американских социологов были посвящены в основном анализу социальных институтов. В их представлении «социальные институты предстают механизмами внедрения в сознание человека рационалистических установок и норм поведения личности в обществе [7, с. 3]. Чарльз Кули полагает, что социальные институты – это определенные установившиеся формы мышления [10].

В дальнейшем, институциональный подход развивали Э.Гидденс, Р.Мертон, Т.Парсонс, С.Хантигтон, И.Лейман, С.Фролов, Я.Щепаньский и другие. Противоположную позицию заняли функционалисты, среди которых можно назвать Э.Дюркгейма, Т. Веблена, Т. Парсонса, Р. Мертона.

Функционалисты, исследующие эти вопросы, считали, что социальные институты являются средством самореализации человека. Об этом свидетельствует структурно-функциональный подход, который связан с определением социального института как ценностно-нормативного комплекса, регулирующего поведения индивидов. Так, Т.Парсонс в своей структурно-функциональной теории чётко определил классическую концепцию социальных институтов. Он полагал, что институты осуществляет координацию социальных действий в общественной системе и тем самым обеспечивают её устойчивое функционирование. [7]

В современном обществе существует несколько основных социальных институтов, которые возникли на основе социальных потребностях. [4]

Институт политики, с помощью которого осуществляется распределение власти, устанавливается определенный порядок организации общественного бытия.

Институт экономики управляет экономической деятельностью, производством и распределением материальных благ.

Институт культуры представляет в комплексе довольно устойчивые и регламентированные способы формирования и распространения культуры, ее ценностей, системы культурных учреждений, ориентированной на социализацию личности, овладение ею культурными ценностями общества, обучение подрастающего поколения таким образом, чтобы оно могло интегрироваться в современную социальную структуру и утвердиться.

Рассмотрим поподробнее природу и функциональные назначения социальных институтов, стоящих у истоков формирования человеческого капитала, а также их взаимодействие в этом процессе. Этими институтами являются институт семьи, образования и здравоохранения.

Институт семьи и брака, являющийся классическим примером социального института, выполняет в обществе главную функцию – воспроизводство населения. Семья как социальный институт возникла с формированием общества. Процесс

формирования и функционирования семьи обусловлен ценностно-нормативными регуляторами. Наряду с репродуктивной функцией, семья выполняет важнейшую, воспитательную функцию. Эта функция подразумевает социализацию подростка и молодого поколения, в процессе которого закладывается фундамент духовного потенциала. Исходные пути социализации- сложный процесс, который протекает на пересечении системы семьи и системы образования в целом. Фундаментальной основой взаимодействия семьи и института образования является создание условий для успешной социализации и самореализации ребенка, становления его личности, формирования мотивации к учебному процессу, сохранения и профилактики физического, психического и морального здоровья, освоение жизненно важных навыков и компетенций, социальной адаптации. Также целью сотрудничества и координации институтов семьи и образования является гармонизация взаимоотношений между педагогическим коллективом, учениками и родителями, выявление и своевременное решение проблем семейного воспитания, социально-психологическая и социально-педагогическая поддержка семьи, помощь в формировании педагогической компетентности и повышении педагогической культуры родителей с целью повышения их ответственности за воспитание подрастающего поколения.

Институт образования – система объединений людей и учреждений, нацеленных на освоение знаниями, умениями и навыками, профессиональными и социальными компетенциями. Образование является одним из важнейших факторов, определяющих прогрессивное развитие общества, а также играет ключевую роль в формировании человеческого капитала, его духовно-профессиональных качеств. Институт образования ставит перед собой задачу последовательного обучения и воспитания, направленного на становление «Я – личностного» фундамента человека. Социальный институт образования осуществляет подготовку квалифицированных кадров, создают условия для поддержания и дальнейшего распространения научно-технического прогресса, развития экономики, рост инновационных технологий. Фактически построение устойчивого будущего для каждого зависит от уровня и качества его образования. [2]

Для формирования человеческого капитала наряду с образованием не менее важно физическое, психическое и моральное здоровье человека. Современное общество нуждается сегодня именно в таком человеческом потенциале, поскольку здоровый человек способен принести всестороннюю пользу своему обществу, вести его к устойчивому прогрессу. Здоровье – это главная человеческая ценность, с помощью которой человек может жить полноценной, насыщенной событиями жизнью и заниматься продуктивной деятельностью.

Сохранение и укрепление здоровья населения, пропаганда здорового образа жизни, оказание услуг в области медицины входит в прерогативу важнейшего из социальных институтов - института здравоохранения. Институт здравоохранения и социального обеспечения - система организаций и учреждений, целью которых является поддержание, сохранение и укрепление здоровья людей, профилактика, социальная поддержка и защита детей, инвалидов, престарелых, больных, многодетных семей и т.п.

Крайне важным показателем качества жизни общества и государства, описывающим не только сегодняшнее положение вещей, но и прогнозирующим ее развитие в будущем, является качество здоровья подрастающего поколения. Такие факторы, как безопасность государства, политическая стабильность и экономическое благополучие находятся в тесной причинно-следственной связи с потенциалом здоровья детей и молодежи. Необходимым на сегодняшний день является объединение усилий и конструктивное взаимодействие всех заинтересованных

сторон для реализации государственной политики в области сохранения и укрепления здоровья нации. Координация процессов в деле формирования здорового образа жизни и создания оптимальных условий в среде образования с целью сохранения здоровья обучающихся и повышения их физической активности, влияющей на академическую успеваемость должно способствовать формированию физически, психически и морально здоровой прогрессивной личности, достойного гражданина Азербайджанской Республики.

Каждый из социальных институтов представляет собой довольно устойчивую социокультурную среду, а вместе они создают одну единую систему. Исходя из функционально-организованных назначений социальных институтов, они призваны взаимно дополнять друг друга в рамках этой системы. Сотрудничество социальных институтов особенно важно в случае выполнения ими схожих функций. Так, исходя из вышеизложенного, мы полагаем, что тесное сотрудничество института образования с институтом семьи, институтом здравоохранения является сегодня чрезвычайно важным фундаментом для формирования конкурентоспособного человеческого капитала. В случае должной координации, согласованных мер и конструктивного взаимодействия социальных институтов образования, семьи и здравоохранения можно говорить о претворении в жизнь распоряжения «Азербайджан-2030: Национальные приоритеты социально-экономического развития», утвержденного Президентом Азербайджана Ильхамом Алиевым 2 февраля 2021 года. Согласно этому стратегическому документу, одним из пяти приоритетов является «конкурентный человеческий капитал и пространство современных инноваций» и успешная реализация этого приоритета предусматривает достижение следующих трех целей:

- образование в соответствии с требованиями XXI века;
- творческое и инновационное общество;
- здоровый образ жизни граждан. [11]

Взаимосвязь, координация и взаимная интеграция социальных институтов общества основывается на нижеследующих принципах:

- на принципе структуры личности человека, однородности его социальных нужд. Чтобы удовлетворять все свои потребности, человек должен одновременно участвовать в разных типах институтов, также как он одновременно является членом нескольких социальных групп; в этом отношении важно подчеркнуть взаимосвязь институтов, непосредственно влияющих на становление самой личности. Как мы указали выше, координация и продуктивное взаимодействие институтов семьи, образования и здравоохранения способствует формированию прогрессивной личности, отвечающей требованиям современности. Этот вопрос чрезвычайно актуален в условиях ухудшения здоровья подрастающего поколения, утрачивания духовных ценностей, насаждения массовой культуры, кризиса внутри институтов семьи и образования. [1]
- на принципе полного разделения труда и предметной связи выполняемых функций; социальные институты выполняют в обществе схожие функции, поэтому их продуктивное взаимодействие будет способствовать прогрессивному развитию современного общества, в то время как обособление может привести к торможению ряда важнейших процессов и негативным последствиям. [6] Так, школьник, приобретающий в стенах школы ряд заболеваний вследствие недостаточного взаимодействия институтов образования и здравоохранения и непринятых вовремя мер вырастет больным и немощным, а это означает, что в будущем он не сможет стать полноценным работником, что окажет негативное влияние на экономическое благополучие страны и приведёт к увеличению государственных затрат.

- на принципе гегемонии однотипных институтов; так, например, господство политических или социокультурных институтов в одном, а института религии в другом обществе. В качестве еще одного примера господства той или иной идеологии, можно показать доминантную роль церкви в средневековой Европе, а в противовес этому – атеизм как государственная идеология в СССР.

**Вывод**

Взаимно связанная система институтов образует сплоченную систему, обеспечивающую удовлетворение потребностей членов общности, регулирующую их поведение и обеспечивающую развитие общности как целого. Социальные институты семьи, образования и здравоохранения, как было сказано выше, стоят у истоков нашего будущего. Консистенция, бесконфликтность и непрерывность этой системы оказываются решающими для устойчивости и силы общности как целого.

Достижение оптимального взаимодействия между социальными институтами современного общества, играющими ключевую роль в формировании прогрессивного гражданина Азербайджана, является одной из приоритетных задач государства, решение которой способно обеспечить социальное развитие страны.

## ЛИТЕРАТУРА

1. Байбородова, Л. В. Взаимодействие школы и семьи. М.: Акад. развития, 2009, 224 с.
2. Бурдьё, П., Пассрон, Ж-К. Воспроизводство: элементы теории системы образования. М.: Просвещение, 2007, 267 с.
3. Веблен, Т. Теория праздного класса, Москва: Прогресс, 1984, 368 с.
4. Гидденс, Э. Социология. М.: Едиториал УРСС, 2005, 632 с.
5. Глотов, М. Б.. Социальный институт: определение, структура, классификация, «Социс», 2003, №10, с. 23-35.
6. Мудрик, А. В. Социализация человека, М.: Изд-во Моск. психол.-соц. ин-та, 2011, 623 с.
7. Парсонс, Т. О социальных системах. М.: Академический проект, 2002, 832 с.
8. Социология. М.: Юнити, 2006, 407 с.
9. Тезаурус социологии. Тематический словарь-справочник. М.: ЮНИТИ-ДАНА, 2009, 487 с.
10. Cooley, Ch.H. Social Organization. A Study of the Larger Mind, NY, 1929
11. https://president.az/az/articles/view/50474

***Резюме***

***Нигяр Шахгусейнбекова***

***Социальные институты и их взаимодействие в условиях современного общества***

В статье рассматривается природа социальных институтов современного общества, их функционально-организованные назначения и роль в создании устойчивой и мобильной социальной системы.

Подчеркивается необходимость объединения усилий и конструктивное взаимодействие всех заинтересованных сторон для реализации государственной политики в области сохранения и укрепления физического, психического и морального здоровья подрастающего поколения. Особое внимание уделяется значению успешного сотрудничества социальных институтов в деле формирования здорового образа жизни и создания оптимальных условий в среде образования с целью сохранения здоровья обучающихся и повышения их физической активности, влияющей на академическую успеваемость должно способствовать формированию физически, психически и морально

здоровой прогрессивной личности, достойного гражданина Азербайджанской Республики. В исследуемой работе уделяется внимание созданию условий для координации и согласованного взаимодействия институтов образования, семьи и здравоохранения, являющихся фундаментальной основой для формирования конкурентоспособного человеческого капитала, отвечающего требованиям современности. Каждый из исследуемых социальных институтов представляет собой довольно устойчивую социокультурную среду, а вместе они создают одну единую социальную систему. Исходя из функционально-организованных назначений социальных институтов, они призваны взаимно дополнять друг друга в рамках этой системы. Сотрудничество социальных институтов особенно важно в случае выполнения ими схожих функций, что нашло отражение в представленной нами научной работе. Так, фундаментальной основой взаимодействия семьи, института образования и здравоохранения является создание условий для успешной социализации и самореализации ребенка, становления его личности, формирования мотивации к учебному процессу, сохранения и профилактики физического, психического и морального здоровья, освоение жизненно важных навыков и компетенций, социальной адаптации. Также целью сотрудничества и координации институтов семьи и образования является гармонизация взаимоотношений между педагогическим коллективом, учениками и родителями, выявление и своевременное решение проблем семейного воспитания, социально-психологическая и социально-педагогическая поддержка семьи, помощь в формировании педагогической компетентности и повышении педагогической культуры родителей с целью повышения их ответственности за воспитание подрастающего поколения.

***Ключевые слова:*** *социальный институт, институт образования, семья, здоровье, человеческий капитал*

**_Summary_**

**_Nigar Shahhuseynbekova_**

**_Social İnstitutions and Their İnteraction in Conditions of Modern Society_**

The article discusses the nature of social institutions of modern society, their functionally organized purpose and role in the creation of a stable and mobile social system.

The necessity of joining efforts and constructive interaction of all interested parties for the implementation of state policy in the field of preserving and strengthening the physical, mental and moral health of the younger generation is emphasized. Particular attention is paid to the importance of successful cooperation of social institutions in the formation of a healthy lifestyle and the creation of optimal conditions in the educational environment in order to preserve the health of students and increase their physical activity, which affects academic performance, should contribute to the formation of a physically, mentally and morally healthy progressive personality, a worthy citizen Azerbaijan Republic. In the work under study, attention is paid to creating conditions for the coordination and coordinated interaction of the institutions of education, family and healthcare, which are the fundamental basis for the formation of competitive human capital that meets the requirements of modernity. Each of the studied social institutions is a fairly stable socio-cultural environment, and together they create one single social system. Based on the functionally organized appointments of social institutions, they are designed to complement each other within the framework of this system. The cooperation of social institutions is especially important if they perform similar functions, which is reflected in the scientific work presented by us. Thus, the fundamental basis for the interaction of the family, the institution of education and healthcare is the creation of conditions for the successful socialization and self-realization of the child, the formation of his personality, the formation of motivation for the educational process, the preservation and prevention of physical, mental and moral health, the development of vital skills and competencies, social adaptation.

***Keywords:*** *social institution, institution of education, family, health, human capital*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 316.6**

# SOSİOLOGİYADA MƏİŞƏT ZORAKILIĞI ANLAYIŞINA NƏZƏRİ BAXIŞ

**Məftunə İSMAYILOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 04 mart 2022; çapa qəbul edilmişdir: 07 aprel 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received: 04 th of March, 2021; accepted: 07 th of April , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər***: *zorakılıq, məişət zorakılığı, zorakılıq sosiologiyası, zorakılıq qurbanları, insan hüquqları*

## Giriş

Müasir sivilizasiyanın inkişaf istiqamətləri insanların idraki imkanlarının dərinləşdiyini nümayiş etdirir. Bu özünü elm və texnikanın tərəqqisində büruzə verir. Lakin insanın ilkin xisləti – onun ətrafına qarşı aqressiyası, demək olar ki, ibtidai şəklini dəyişməyib. Kimdənsə və kimlərdənsə sosial və fiziki imkanlarına görə irəlidə olduğunu sübut etməyə çalışan, əslində özünüqiymətləndirmə səviyyəsi aşağı olan insanlar zorakılığa daha çox meylli olurlar. Ümumdünya Səhiyyə Təşkilatının təqdim etdiyi statistikaya əsasən müasir zamanda "*zorakılıq bütün dünyada 15-44 yaş arası insanlar arasındakı əsas ölüm səbəblərindən biridir*" [13, s. 5].

Məişət zorakılığını ifadə etmək üçün çox zaman ailə zorakılığı, gender əsaslı zorakılıq terminləri istifadə olunur. Məişət zorakılığının formalarına fiziki zorakılıq, cinsi istismar, iqtisadi nəzarət və psixoloji zorakılıq daxil ola bilər. Məişət zorakılığına məruz qalan vətəndaşların əksəriyyəti adətən cəmiyyətin ən müdafiəsiz kateqoriyaları olan qadınlar, uşaqlar, qocalar və əlillərdir. Qadına qarşı zorakılıqdan danışarkən, adətən, fiziki zorakılıqdan, kişiyə qarşı zorakılıqdan danışarkən isə psixoloji zorakılıqdan söhbət gedir [15, s. 124-135]. Bir çox ekspertlər ailədəki zorakılığın əks-reaksiya doğurduğunu vurğulayırlar. Belə ki, uşaqlar ailədə tərbiyə olunduqları davranış modelini öyrənir, sonra onu həyatlarına köçürürlər. Regional İnsan Hüquqları Müvəkkilləri yaşlı insanların olduğu ailələrdə onlara qarşı zorakılıq hallarının artdığını qeyd edirlər. Məişət zorakılığının ən geniş yayılmış forması beynəlxalq ictimaiyyət tərəfindən həm insan hüquqlarının pozulması, həm də qadınlara qarşı ayrı-seçkilik aktı kimi qəbul edilən qadınlara qarşı zorakılıqdır [4, s. 6].

Ümumdünya Səhiyyə Təşkilatı zorakılığa: "*Özünə, başqa bir şəxsə, insanlar qrupuna və ya cəmiyyətə qarşı yönəldilmiş fiziki güc və ya gücün, faktiki və ya hədələnmiş şəkildə qəsdən istifadəsi*" kimi tərif verir və zorakılıq nəticəsində zorakılığa məruz qalanların "*bədən xəsarəti alması, ölümü, psixoloji travma alması, inkişaf qüsurları və ya hər hansı bir zədə alması*" [13, s. 5] hallarının geniş yayıldığını göstərir.

* *dissertant, Bakı Dövlət Universiteti*
*e-mail*: maftuna_i@mail.ru

Məişət zorakılığına səbəb olan faktorlar hər bir ölkənin öz sosial mədəni inkişaf xüsusiyyətlərinə uyğun müəyyən edilir. Cəmiyyətdə məişət zorakılığının adi hal kimi qəbul edilməsi, qadınların aşağı sosial statusu, təzyiqçi siyasi strukturlar, qadınları dəyərsizləşdirən dini inanclar, vətəndaş qarşıdurmaları və müharibə vəziyyətlərinin mövcudluğu kimi sosial amillər məişət zorakılığının genişlənməsinə kömək edir. Beynəlxalq tədqiqatlarda yoxsulluq, təhsilin olmaması, maliyyə resurslarının olmaması, hüquqların pozulması, qısqanclıq səviyyəsi, həddindən artıq içki, narkotik maddələrdən sui-istifadə və böyük ailədə yaşamaq kimi stresslə əlaqəli amillər məişət zorakılığı riskinin artması ilə əlaqələndirilir [10].

**Zorakılığın növləri**

Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarında zorakılığın aşağıdakı növləri fərqləndirilir:

- *Gənclər mühitində zorakılıq.* Gənclər mühitində zorakılığın xüsusiyyətlərini təsnif edərkən bilavasitə gənclərin qətl nisbətinin dinamikası, gənclər arasında ölümcül olmayan zorakılıq faktları, həmçinin gənclər arasında zorakılıq riskini artıran davranışın xüsusiyyətləri, situativ amillər, fərdi amillər, münasibət faktorları, icma amilləri və sosial amillər araşdırılır.
- *Valideynlər və digər baxıcılar tərəfindən uşağa sərt münasibət və laqeydlik.* Valideynlər və digər baxıcılar tərəfindən uşağa sərt münasibət və laqeydlik hallarının baş verməsinin başlıca istiqamətləri kimi - mədəni amillər, sui-istifadə növləri, problemin miqyası, ölümcül zorakılıq halları, ölümcül olmayan zorakılıq, uşaq istismarı və laqeydliyi üçün risk faktorları, uşağın zorakılığa həssaslığını artıran amillər, baxıcının və ailənin xüsusiyyətləri, icma amillər, ictimai amillər və s. öyrənilir.
- *İntim partnyor tərəfindən zorakılıq.* İntim partnyor tərəfindən zorakılıq hallarının başlıca yönləri olaraq, kişi namusu ilə bağlı ənənəvi yanaşma halları, intim partnyor tərəfindən zorakılığın dinamikası, qadınlar zorakılığa reaksiyası, intim partnyor zorakılığının risk faktorları, bu prosesl bağlı fərdi amillər, icma amilləri, ictimai amillər, intim tərəfdaşa qarşı zorakılığın nəticələri, sağlamlığa təsirləri, ailə təsərrüfatına təsiri, uşaqlara təsiri məsələləri tədqiq edilir.
- *Yaşlılara qarşı zorakılıq.* Yaşlılara qarşı zorakılıq halları araşdırılarkən, əsasən, yaşlılara qarşı pis rəftarın xüsusiyyətləri, ənənəvi cəmiyyətlərdə yaşlılara münasibət, problemin miqyası, ev mühitində yaşlılara qarşı zorakılıq halları, müəssisələrdə mövcud vəziyyət, yaşlılara qarşı zorakılıq üçün risk faktorları, fərdi amillər, əlaqə faktorları, icma və cəmiyyət amilləri, o cümlədən yaşlıların zorakılığın nəticələri öyrənilir.
- *Cinsi istismar və ya zorakılıq.* Cinsi istismar və ya zorakılıq halları öyrənilərkən burada cinsi zorakılığın formaları və mahiyyəti, problemin miqyası, cinsi zorakılığın yayılması miqyası, məktəblərdə, sağlamlıq müəssisələrində cinsi zorakılıq, silahlı münaqişələr və qaçqın düşərgələrində cinsi zorakılıq, seksual zorakılığın "ənənəvi" formaları, cinsi zorakılıq üçün risk faktorları, qadınların həssaslığını artıran amillər, kişi zorlama riskini artıran amillər, həmyaşıdların və ailənin təsiri, icma amilləri, cəmiyyət amilləri, cinsi zorakılığın nəticələri kimi meydana çıxan hamiləlik və ginekoloji ağırlaşmalar, cinsi yolla keçən xəstəliklər, psixi sağlamlıqla bağlı yaranan problemlər, intihar davranışının genişlənməsi halları və s. öyrənilir.
- *Öz həyatına və sağlamlığına qarşı yönəlmiş zorakılıq.* Öz həyatına və sağlamlığına qarşı yönəlmiş zorakılıqla bağlı intihar probleminin miqyası, ölümcül nəticə ilə intihar davranışı, ölümcül olmayan intihar davranışı və düşüncələri, intihar davranışı üçün risk

faktorları, psixiatrik amillər, intiharın bioloji və tibbi göstəriciləri, sosial və ətraf mühit amilləri tədqiq edilir.

- *Kollektiv zorakılıq.* Kollektiv zorakılıq dedikdə, əsasən, münaqişə və müharibələrin nəticələri başa düşülür. Kollektiv zorakılığı öyrənərkən, münaqişələrin xarakteri, kollektiv zorakılıqla bağlı risk faktorları, siyasi və iqtisadi amillər, cəmiyyət və icma amilləri, demoqrafik amillər, texnoloji amillər və kollektiv zorakılığın nəticələri araşdırılır [13].

Qeyd edilməlidir ki, valideynlər və digər baxıcılar tərəfindən uşağa sərt münasibət və laqeydlik; intim partnyor tərəfindən zorakılıq və yaşlılara qarşı zorakılıq ümumi bir adla – məişət zorakılığı kimi təqdim edilə bilər. T.Q.Şalimova məişət zorakılığını "*insan azadlığını alçaltmaq və pozmaqla bir ailə üzvünün digəri (başqaları) üzərində hakimiyyətə və nəzarətə nail olmaq məqsədi daşıyan davranış sistemi*" kimi müəyyən edir [16, s. 19].

Məişət zorakılığı zorakılıq sosiologiyası, deviant davranış sosiologiyası, gender sosiologiyası, feminizm, sosial münaqişə, ailə münaqişəsi, gerontologiya və s. kimi müxtəlif nəzəri yanaşmalar tərəfindən araşdırılır. Müasir dövrdə məişət zorakılığı dedikdə, əsasən, qadınlara qarşı psixoloji, fiziki, cinsi, iqtisadi, sosial və s. təzyiq formaları nəzərdə tutulur. Məişət zorakılığının qadınlara qarşı çevrilmiş təzyiq forması kimi araşdırılması bilavasitə feminizm və gender sosiologiyasının inkişafı ilə bağlıdır. Müasir sosiologiyada məişət zorakılığının öyrənilməsilə bağlı bir sıra yanaşmalar formalaşmışdır: V.Şnayderin vigitimoloji yanaşması, M.Kaufmanın sosial öyrənmə nəzəriyyəsi, M.Kimmel, A.V.Lısova, N.Yu.Sinyagina tərəfindən inkişaf etdirilən interaktiv nəzəriyyə, L.Koserin sosial münaqişə nəzəriyyəsi, J.Hirn, M.Şeller tərəfindən irəli sürülən struktur nəzəriyyə, L.S.Alekseeva tərəfindən inkişaf etdirilən sosial patologiya konsepsiyası, V.G.Semenova və V.S.Qavrilova tərəfindən inkişaf etdirilən sosial nizamsızlıq nəzəriyyəsi və s.

Bergen, O'Leary, Dekeseredy, Saunders kimi müəlliflər qeyd edirlər ki: "*Zorakılığa məruz qalmış qadınların yaşanmış təcrübələri əsasında formalaşan feminist anlayışlar və tədqiqatlar göstərir ki, tez-tez psixoloji, cinsi və ya fiziki zərərə səbəb olan, fiziki qüvvənin tətbiqi və ya hədələmə ilə müşayiət edilən təhqiramiz, məcburedici, nəzarətedici davranışların bir-biri ilə əlaqəli diapazonu məişət zorakılığının fiziki zərərli hücum kimi konseptualizasiyasına kömək etmişdir. Bununla belə, tədqiqatçılar cinsi, psixoloji və digər sui-istifadə formalarına xeyli az diqqət yetirmişlər*" [9, s. 343-355].

YUNESKO-nun Gender Tədqiqatları üzrə Sədri Silvia Uolbi iddia edir ki, "*zorakılıq müasir sosial nəzəriyyəyə kimi araşdırılmalıdır. Zorakılığın inkişafının müxtəlif yolları var və nəzəriyyənin köməyi ilə müasir cəmiyyətdə bu hadisəni hərtərəfli təhlil etmək mümkün olar*" [17, s. 520].

Qeyd edilməlidir ki, zorakılığın müxtəlif aspektləri uzun müddət bir çox sosial elmlərin tədqiqat obyekti olmuşdur, lakin bu problemin təhlili üçün məhz indiki dövrdə yeni kateqoriyalı və metodoloji vasitələrdən istifadə olunur. Zorakılığı anlamaq üçün iki yanaşma var - geniş və dar. Geniş mənada zorakılıq şəxsi inkişafın hər hansı məhdudiyyəti kimi başa düşülür. Bu sosial məhdudiyyətin başlıca səbəbkarları sosial mühit və ya sosial institutlar hesab edilir. Bu mənada demək olar ki, hər hansı bir cəmiyyətdə insan ona qarşı zorakılıq faktları ilə əhatə olunmuşdur.

Dar mənada zorakılıq adətən insanların bir-birinə vurduğu fiziki və iqtisadi zərər, o cümlədən bədən xəsarəti, qətl, soyğunçuluq, yandırma və s. kimi başa düşülür. Başqa sözlə, bunlar konkret zorakılıq aktlarıdır və bu aqreqatlar zorakılığın məzmununu təşkil edir [1, s. 114].

Müasir sosiologiyada məişət zorakılığının üç başlıca mənbəyi fərqləndirilir:

- zorakılıq subyektlərinin fərdi psixoloji xüsusiyyətləri;
- ailədaxili mühitin özünəməxsusluğu (ailə həyatının dinamikası ailədaxili zorakılıq formalarının baş vermə ehtimalına təsir göstərir);
- cəmiyyətin sosial-mədəni səviyyəsi.

Ailə zorakılığının fiziki, zehni, cinsi kimi formaları fərqləndirilir. Ailədə fiziki zorakılıq bir ailə üzvünün digər ailə üzvü tərəfindən qəsdən döyülməsi, sağlamlığına zərər vurmasıdır. Ailədə psixi zorakılıq bir ailə üzvünün digər ailə üzvünün şərəf və ləyaqətini qəsdən alçaltmasıdır. Ailədə cinsi zorakılıq bir ailə üzvünün digər ailə üzvünün cinsi toxunulmazlığını və ya cinsi azadlığını pozan hərəkəti, habelə yetkinlik yaşına çatmayan şəxsə münasibətdə onun psixi inkişafını pozan cinsi xarakterli hərəkətlərdir [15, s. 124-135].

Məişət zorakılığı qurbanların sağlamlığına qarşı böyük təhlükə hesab olunur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) göstərir ki, məişət zorakılığı qadınları fiziki zədə, psixi sağlamlıq problemləri, cinsi yolla ötürülən xəstəliklər, o cümlədən HİV = QİÇS və arzuolunmaz hamiləlik kimi risk altına alır [10].

Amerika Tibb Assosiasiyası bildirir ki, beynəlxalq miqyasda təqribən 2 milyon qadın hər il öz intim partnyoru tərəfindən zorakılığa məruz qalır və bu, məişət zorakılığının narahatlığa layiq bir məsələ və beynəlxalq əhəmiyyət kəsb edən problem olduğunu göstərir.

Birləşmiş Ştatlarda məişət zorakılığı ilə əlaqəli tipik fiziki, emosional və şifahi hücumlara əlavə olaraq, qadınlara və qız uşaqlarına qarşı unikal beynəlxalq zorakılıq növlərinə də rast gəlinir: razılıq olmadan cinsiyyət seçimi ilə edilən abortlar, şəxsi və ictimai döyülmələr, ictimai şifahi təhqirlər, namusla bağlı qətllər, turşu atma və daşqalaq etmə, təhsilə və tibbi xidmətə çıxışın olmaması, məcburi fahişəlik, cinsiyyət orqanlarının şikəst edilməsi, əməyin istismarı və yaşlı qadınlar tərəfindən gənc qadınlara qarşı zorakılıq [10].

Statistik göstəricilərə əsasən, Nikaraquada qadınların 52%-i, Cənubi Afrikada isə qadınların 25-50%-i həyatları boyu evli partnyorları tərəfindən zorakılığa məruz qalırlar. Yamaykada məlum zorakılıq aktlarının təxminən 80%-i intim cütlüklər arasında baş verir. Meksikalı qadınların zorakılıqdan azad olmaq üçün nikah münasibətlərini pozmaq imkanı məhduddur. Bu ölkədə qadınlar yüksək emosional, fiziki və maliyyə zorakılığına məruz qaldıqları haqqında məlumat verir və xəstəliklərdən, qançırlar, zədələr, diş itkisi, şişlər, arzuolunmaz hamiləliklər, qısaldılmış həyat, psixi zərər, depressiya, yorğunluq, yuxu və yemək pozğunluqları, ümumi qorxu, digər psixoloji təsirlər və travmalar, emosional narahatlıq, posttravmatik stress sindromundan əziyyət çəkdiklərini bildirirlər.

Avstraliyalı qadınlarla aparılan araşdırmalar göstərib ki, zorakılığa məruz qalmaları haqqında məlumat verməyən qadınlar daha çox psixiatrik travmalıdırlar. İsraildə və ərəb ölkələrində zorakılıq halları ilə üzləşən qadınlar intim xəstəliklərin müalicəsi ilə bağlı tibbi xidmətdən yararlanmaqdan məhrumdurlar. Bu ölkələrdə qadınların məişət zorakılığına dözmələri mədəni təzyiqlə sıx bağlıdır [10].

Araşdırmalar əsasında Pakistan və Karib hövzəsi ölkələrində məişət zorakılığına məruz qalan qadınların fiziki və psixi sağlamlığı, o cümlədən reproduktiv sağlamlığı ilə bağlı ciddi problemlərinin olduğu qənaətinə gəlinmişdir.

İrlandiyada məişət zorakılığının 34%-i hamilə qadınlara qarşı edilir, heç vaxt evlənmiş pakistanlı qadınların 15%-i hamiləlik zamanı müntəzəm olaraq zorakılığa məruz qaldıqlarını bildirirlər. Hindistanın kənd yerlərində yayılmış patriarxal mədəniyyət hətta hamiləlik dövründə də məişət zorakılığını qəbul etməyi təşviq edir və nəticədə uşaq və

döl ölümləri artır. Hindistanda ailədaxili qətllər çox vaxt ərlərin arvadlarının cehizlərini toplaması üçün törədilir. Qadınların aşağı statusu və qadınları qoruyan qanunların məhdud effektivliyi Hindistanda cehiz qətllərinin faktiki olaraq davam etməsinə imkan verir.

Çiapasdakı təəccüblü sayda qadın məişət zorakılığının əsas səbəbləri kimi gender rollarının pozmasını qeyd edir. Bu qadınlar kişilərin qadınlara qarşı zorakılığı formalarını göstərirlər: həddindən artıq içki içmək, şiddətli kişi meylləri, kişi meyllərini idarə etmək, başqa bir qadının təzyiqi = sevgilisi və həddindən artıq qısqanclıq. Fələstinli qadınlar bildirirlər ki, fiziki şiddətə, o cümlədən xəyanətə və s. məruz qalırlar.

İordaniyada bir çox qətllər namus qətlinin nəticəsidir. Namusa görə qətllər, qadının ailə statusunu alçaltdığına görə, qadının adətən, ər, qardaş və ya atası tərəfindən öldürüldüyü zaman baş verir və çox vaxt cəzasız qalır [10].

Beləliklə, ilk növbədə feminist çərçivələrdə çalışan bir sıra analitiklər belə nəticəyə gəliblər ki, məişət zorakılığının əsas hissəsi olan intim partnyor zorakılığı kişilər tərəfindən qadınlara hökmranlıq və sosial nəzarətin sistematik formasını təmsil edir [5, s. 141-158]. Dobash R.Emerson kimi bir çox tədqiqatçılar belə fikirdədirlər ki, kişilər məişət zorakılığının və xüsusilə ölümcül zorakılığın əsas günahkarlarıdırlar. Tədqiqatların əksəriyyəti kişilərin zorakılıqdan istifadə etməsi və qadın partnyorlarına qarşı sui-istifadə etmələri arasında əlaqənin araşdırılması ilə bağlı olmuşdur [6, s. 577-605]. Brownridge, MacMillan və Gartner kimi analitiklər əmindirlər ki, patriarxal fikirlərə sahib olan kişilər, xüsusilə qadınları digər resurslardan və ya sosial dəstək mənbələrindən təcrid etməyə yönəlmiş “məcburi nəzarət” taktikalarından istifadə etməklə, öz qadın tərəfdaşlarını daha çox sui-istifadə edirlər [2, s. 626-651]. Jiwani və Sanday bu cür nəzəri mülahizələrdən həm də cəmiyyət səviyyəsində intim partnyor zorakılığını və ümumilikdə qadınlara qarşı zorakılığın tarixi nümunələrini izah etmək üçün istifadə etmişlər [4, s. 34-41]. Tədqiqatçılar Jewkes, Knight və Hatty isə iddia edirlər ki, məişət zorakılığı ilə bağlı tədqiqatlar qeyri-sabit nəticələr verib və “risk faktorları” kimi müəyyən edilən sosial və demoqrafik xüsusiyyətlərin əksəriyyəti heç də həmişə intim partnyor zorakılığı ilə əlaqəli olmur [12, s. 255-264]. Qəribədir ki, bunlar faktiki olaraq hər bir epidemioloji tədqiqata daxil edilən standart tədbirlərdir. Sosiodemoqrafik “risk faktorlarını” daha mürəkkəb anlayışlar üçün etibarlı vasitələr kimi nəzərdən keçirməklə, rəqabət aparan perspektivlərin izahedici dəyəri ilə bağlı müzakirələr müəyyən dərəcədə dayandı. Bir çox nəzəriyyələr, təmsil olunmayan nümunələrdən istifadə edən kiçik miqyaslı tədqiqatlardan ən azı müəyyən qədər empirik dəstək almışdır. Jewkes Rachel iddia edir ki, “*yoxsulluq istisna olmaqla, sorğu tədqiqatında iştirak etmiş kişi və qadınların əksər demoqrafik və sosial problemləri intim partnyor zorakılığı riskinin artması ilə əlaqəli deyil*” [8, s. 1423-1429].

Məişət zorakılığına dair əksər tədqiqatlar zorakılığın dərəcəsinə və miqyasına təsir edə biləcək əsas sosioloji amillər istisna olmaqla, standart sosial və demoqrafik risk faktorlarını müəyyən etmişdir. Daha əvvəl qeyd edildiyi kimi, bu tədqiqatlarda adətən yoxsulluq, ailə vəziyyəti (ayrı və ya boşanmış), birlik növü (qanuni nikah, vətəndaş nikahı və s.), işsizlik və yaş (gənc cütlüklər) göstəriciləri intim tərəfdaş zorakılığı ilə əlaqəli ardıcıl risk faktorları kimi göstərilmişdir [3, s. 11-26].

Məişət zorakılığının cinsə xas və ya neytral referent olması və yaxud bütün növ intim münasibətlərdə sui-istifadənin bütün formalarını və hallarını əhatə edib-etməməsi kimi məsələlər mübahisəli olaraq qalır.

Bir sıra tədqiqatçılar bildirirlər ki, məişət zorakılığı bəzən lezbiyan və gey partnyorlar arasında da baş verir, heteroseksual münasibətlərdə olan qadınlar tərəfindən törədilə bilir. Eyni zamanda cinsi azlıqların LGBT-lar ailə üzvləri tərəfindən məişət zorakılığına ən çox məruz qalan insanlardırlar.

Birləşmiş Millətlər Təşkilatı və digər təşkilatlar bütün bölgələrdə LGBTİ insanlara qarşı geniş yayılmış fiziki və psixoloji zorakılıq hadisələrini, o cümlədən qətl, hücum, adam oğurluğu, zorlama, cinsi zorakılıq, institusional və digər yerlərdə işgəncə və pis rəftar hallarını sənədləşdirib. LGBTİ gənclər və lezbiyan, biseksual və transgender qadınlar davamlı olaraq, həm ailə, həm də cəmiyyət tərəfindən fiziki, psixoloji və cinsi zorakılığa məruz qalma riski altındadır. LGBTİ insanlar təqiblərdən sığınacaq istəyəndə və fövqəladə hallar zamanı tez-tez zorakılıq və ayrı-seçkiliklə üzləşirlər. Onlar, həmçinin cinsi oriyentasiyanı dəyişdirmək üçün təhlükəli və qeyri-etik "terapiya" formalarından istifadə, qeyri-ixtiyari və ya məcburi sterilizasiyalar, məcburi genital və ya rektal müayinələr, naməlum interseks uşaqlar üçün lazımsız cərrahiyyə və müalicə də daxil olmaqla, səhiyyə müəssisələrində sui-istifadə ilə üzləşə bilərlər. Bir çox ölkələrdə bu pozuntulara qarşı reaksiya adekvat deyil, tədbirlər qeyri-kafi olur və belə hallar çox vaxt lazımi şəkildə araşdırılmır, nəticədə kütləvi cəzasızlıq və zorakılıq qurbanlarına ədalətin, müdafiənin və adekvat yardımın olmaması ilə nəticələnir. Bu pozuntularla mübarizə aparan hüquq müdafiəçiləri də tez-tez təqiblərə məruz qalır və işlərində ayrı-seçkilik xarakterli məhdudiyyətlərlə üzləşirlər [14].

Qeyd edilməlidir ki, LGBTİ insanlara qarşı məişət zorakılığı zəminində aparılan tədqiqatlar çox da geniş deyil. Tədqiqatların əksəriyyəti gender yönlü olub, kişilərin qadın partnyorlara/keçmiş partnyorlara qarşı törətdiyi zorakılığı əhatə edir. Məişət zorakılığına insan hüquqları çərçivəsində baxılması, onun qarşısının alınması üçün məsuliyyəti ictimai sferaya köçürür. Bu zaman zorakılığa məruz qalan və sui-istifadə edilənin reabilitasiyası ilə bağlı dövlət orqanları məsuliyyət daşıyır və tərəfləri ictimai səhiyyə, təhsil və gender sosiallaşması istiqamətlərinə yönəldir [12, s. 6].

**Nəticə**

Tədqiqatın ümumiləşdirilməsi kimi qeyd edə bilərik ki, əslində cəmiyyətin bütün kateqoriyalarından olan insanlar bu və ya digər formada məişət zorakılığına məruz qalır. Lakin bu zorakılığın davamlılığı və çox zaman insanların gələcəyi və həyatı bahasına başa gəldiyi üçün ona qarşı sosial və hüquqi əsaslarda mübarizənin genişləndirlməsini aktuallaşdırır və tələb edir. Hazırda məişət zorakılığına qarşı mübarizə hərəkatı kimi qadın və uşaq hüquqlarını müdafiə edən çox sayda regional və beynəlxalq təşkilatlar fəaliyyət göstərir və məhz həmin təşkilatların fəaliyyəti zorakılıqla bağlı tədbirlərin tətbiqinə səbəb olmuşdur. Bu təşkilatlar məişət zorakılığı probleminə qarşı mübarizə aparmaqla yalnız insanların şəxsi rifahının təmin edilməsini nəzərdə tutmurlar, həm də ictimaiyyətin, aidiyyatlı dövlət orqanlarının diqqətini problemin həlli yönündə fəaliyyətə cəlb etmək istəyirlər.

Qeyd edilməlidir ki, məişət zorakılığı inkişaf etmiş ölkələrdə daha az nəzərə çarpır. Bunun da başlıca səbəbi həmin ölkələrdə feminizm və gender hərəkatının geniş miqyası və təsir imkanları ilə bağlıdır. Məişət zorakılığının daha çox rast gəlindiyi ölkələr inkişaf etməkdə olan ölkələr və inkişafdan qalan ölkələrdir. Bu ölkələrdə ailəyə ənənəvi münasibətin saxlanması qadın və uşaqlara qarşı törədilən məişət zorakılığının ideoloji əsasları kimi çıxış edir.

Eyni zamanda inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə məişət zorakılığına məruz qalan şəxslərin reabilitasiyası məqsədilə tibbi və digər xüsusi reabilitasiya mərkəzləri, zorakılığın qarşısının alınması ilə məşğul olan böhran mərkəzləri şəbəkələri fəaliyyət göstərir. Məhz bu mərkəzlərin fəaliyyəti məişət zorakılığı ilə bağlı nəzəri və empirik əsaslı sosial və psixoloji tədqiqatların aparılmasına geniş imkanlar açır. Məişət zorakılığının qarşısının alınması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi, bu istiqamətdə cəmiyyəti maarifləndirmək üçün sosial reklamların genişləndirilməsi, insan hüquqlarının təbliği və təşviqi yönündə aktiv fəaliyyət, demokratik ənənələrin möhkəmləndirilməsilə bağlı aparılan işlər, gender aspektli sosial işin təşkili məsələsinin aktuallaşması müəyyən uğurların əldə edilməsinə kömək edə bilər.

## ƏDƏBİYYAT


1. Афанасьева Т.А., Микова М.П. Социология насилия как наука: путь становления. // Мир науки. Социология, филология, культурология. Выпуск 1 – 2015. https://sfk-mn.ru/PDF/04SFK115.pdf
2. Brownridge Douglas A. Cultural variation in male partner violence against women // Violence Against Women. N 8, pp. 87–115.
3. Bunge V.P. Spousal violence. In Canadian Centre for Justice Statistics (eds.) // Family Violence in Canada: A Statistical Profile. Ottawa: Minister of Industry.2000, pp.11–26.
4. Домашнее насилие: социально-правовой аспект. Методическое Пособие. Москва: Общероссийская ассоциация женских общественных организаций «Консорциум женских неправительственных объединений», 2013, 194 с.
5. Dobash R. Violence Against Wives. New York: Free Press. 1998, pp.141– 168.
6. Dobash Russell P., R. Emerson Dobash, Kate Cavanagh , Ruth Lewis. Separate and intersecting realities: A comparison of men’s and women’s accounts of violence against women // Violence Against Women, 1998, N 4, pp. 382-414.
7. Jiwani Yasmin. The 1999 General Social Survey on spousal violence: An analysis // Canadian Woman Studies/Les cahiers de la femme, 2000, N 20, pp. 34-41.
8. Jewkes Rachel. Intimate partner violence: Causes and prevention // Lancet 2002, N 359, pp. 1423-1429.
9. Hemant Kothari. Violation of Rights among Working Women in the Work Place and At Home // Compliance Engineering. 2019, 10(10), pp. 343-355.
10. Gretchen E. Ely, Catherine N. Dulmus, John S Wodarski. Domestic Violence: A Literature Review Reflecting an International Crisis. https://www.researchgate.net/publication/229004597_Domestic_Violence_A_Literature_Review_Reflecting_an_International_Crisis
11. Knight Rosemary, and Suzanne E. Hatty “Violence against women in Australia’s capital city.” In Emilio C. Viano (ed.), Washington, DC: Hemisphere. Intimate Violence: Interdisciplinary Perspectives: 1992 , s. 255-264.
12. Mary B. Domestic Violence // A Literature Review. London, 2004. 147 p.
13. Насилие и его влияние на здоровье // Доклад о ситуации в мире. М: Весь Мир, 2003. 376 с.
14. Пресечение насилия и дискриминации против сообщества лесбиянок, геев, бисексуалов, трансгендерных, а также интерсекс людей. https://www.ohchr.org/sites/default/files/Documents/Issues/Discrimination/Joint_LGBTI_Statement_RU.PDF
15. Попова И.В. Опыт исследования проблемы семейного насилия // История. Социология. Культурология. Этнография. Выпуск № 4 // 2012, с.124-135
16. Шалимова Т.Г. Насилие и ненасилие в условиях поляризации гендерных идеалов: автореф. дисс. канд. филос. наук. Саранск: Мордовский государственный университет им. Н.П. Огарева, 2004. 23 с.

17. Walby S. Theorizing Violence // XVII ISA World Congress of Sociology «Sociology on the Move», Gothenburg, Sweden: 2010. 619 p.

***Резюме***

***Мафтуна Исмаилова***

***Взгляд на концепцию домашнего насилия в социологии***

В современную эпоху глубоких социальных конфликтов проблема насилия выходит на первый план в анализе социально-философской мысли. Ежедневно совершаются десятки и сотни агрессивных действий, что приводит к тяжелым социальным последствиям. Каждый хоть раз - сталкивался с насилием. Низкий уровень социальной защищенности и невозможность противостоять агрессии других людей свидетельствует о том, что общество все еще не в состоянии предотвратить насилие в семье.Термины домашнее насилие и гендерное насилие часто используются для обозначения домашнего насилия. Формы домашнего насилия могут включать физическое насилие, сексуальное насилие, экономический контроль и психологическое насилие. Большинство жертв домашнего насилия, как правило, женщины, дети, пожилые люди и инвалиды, наиболее уязвимые слои общества.

Борьба с насилием в семье обусловливает необходимость углубления социальной работы в этом направлении, организации постоянной работы социальных работников с членами семьи, пострадавшей от насилия, в том числе супружескими парами, в рамках прав и свобод человека.

***Ключевые слова:*** *насилие, домашнее насилие, социология насилия, жертвы насилия, права человека*

***Summary***

***Maftuna Ismayilova***

***A Look at the Concept of Domestic Violence in Sociology***

In the modern era of deep social conflicts, the problem of violence comes to the fore in the analysis of socio-philosophical thought. Dozens and hundreds of aggressive acts are committed every day, which leads to serious social consequences. Everyone has faced some kind of abuse at some point. The low level of social security and the impossibility of resisting the aggression of other people show that society is still unable to prevent domestic violence. The terms domestic violence and gender-based violence are often used to refer to domestic violence. Forms of domestic violence may include physical abuse, sexual abuse, economic control, and psychological abuse. Most victims of domestic violence tend to be women, children, the elderly and the disabled, the most vulnerable segments of society.

The fight against domestic violence necessitates the deepening of social work in this direction, the organization of continuous work of social workers with family members who are victims of violence, including couples, within the framework of human rights and freedoms.

***Keywords*****:** *violence, domestic violence, sociology of violence, victims of violence, human rights*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 364.4**

# NATAMAM AİLƏLƏRİN SOSİAL STATUSU

**Sara AĞAYEVA**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 07 mart 2022; çapa qəbul edilmişdir: 07 aprel 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received: 04 th of March, 2021; accepted: 07 th of April , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər***: *ailə, natamam ailə, boşanma, sosial-iqtisadi çətinliklər*

## Giriş

Müasir sivilizasiyanın aktual problemlərindən biri ailə institutunda baş verən transformasiya prosesidir. Artıq ailə tipləri haqqında danışdıqda natamam ailələr xüsusi bir ailə forması olaraq təqdim edilir. Natamam ailələr ailə funksiyalarının icraçılarının dəyişdiyi və ya valideynləri əvəz edəcək şəxslər olaraq müəyyənləşdirilən himayəçilərə ötürüldüyü ailələr hesab edilir.

Natamam ailələrin statistikasının yüksəlməsinə gətirən əsas faktorlar müharibə zonalarında uşaqların valideynlərindən birini, yaxud hər ikisini itirməsi, azyaşlı qızların nikaha cəlb edilməsi, nikahdan kənar uşaqların doğulması, valideynlərdən hər hansı birinin, yaxud hər ikisinin müxtəlif asılılıqlarının (alkoqol, narkotik və s.) olması, əxlaq normalarına əks həyat tərzi yaşaması, valideynlərin müxtəlib səbəblərdən doğan uyuşmazlıqları ilə əlaqədar boşanmalar və s. hesab edilir.

## Natamam ailələrin sosial statusu

"*Sosial status*" dedikdə, "*bir şəxsin və ya qrupun sosial sistemdəki nisbi yeri (vəzifəsi), həmçinin bu sistemə xas olan bir sıra xüsusiyyətlərə (iqtisadi, peşəkar) uyğun olaraq "yuxarı-aşağı" oxu boyunca tutduğu mövqe başa düşülür*" [14, s. 206-207].

Ailənin əsas sosial xüsusiyyətləri onun tərkibi, maddi vəziyyəti, mənzil-məişət şəraiti, habelə valideynlərin yaşı və məşğuliyyəti əsasında müəyyənləşir. Natamam ailələrin sosial statusu tam ailələrlə müqayisədə çox zaman daha aşağı olur. Bu yanaşma cəmiyyətin əxlaqi dəyərlərinə əsasən müəyyən edilir.

"*Vurğulanır ki, sosial status statik bir xüsusiyyət deyil, o, ailənin müəyyən bir zaman anında həyatının müxtəlif sahələrində hansısa vəziyyətinin əksidir*" [4, s. 23-29].

Məlum olduğu kimi, sosial status, əsasən, ailənin sosial-iqtisadi vəziyyətinə uyğun olaraq müəyyən olunur. Çox zaman (lakin hər zaman deyil) natamam ailələr yoxsul statusuna malik olurlar. Belə ki, natamam ailələr cəmiyyətin daha həssas sosial siniflərinə və ya sosial təbəqəsinə aid olur. Ailənin gəlir mənbəyinin tək olması belə bir şəraitə səbəb olur.

[*] *dissertant, Bakı Dövlət Universiteti*
*e-mail:* sara.aghayeva@gmail.com

Məlumdur ki, ailə münasibətləri əxlaq və hüquq normaları ilə tənzimlənir. Kişi və qadın arasındakı münasibətləri qanuniləşdirən nikah birgə yaşayış prosesində ailə üzvlərinin fiziki və mənəvi sağlamlığı üçün məsuliyyəti konkretləşdirir. Sağlam ailə birgə fəaliyyətə əsaslanan, nikah - valideynlik - qohumluq əlaqələri ilə möhkəmlənən, nəsillərin davamlılığını, uşaqların sosiallaşması və ailə üzvlərinə dəstəyi nəzərdə tutan sosial institut olaraq, sağlam cəmiyyətin özəyi hesab edilir. Sağlam və bütöv ailənin başlıca göstəriciləri kimi aşağıdakılar qeyd edilə bilər:

- həm ata, həm də ananın uşaqların tərbiyəsi və təhsillənməsi prosesində fəal mövqe tutması;
- rifah halının qaneedici olması;
- birgə yaşayışı tə min edəcək evin olması;
- uşaqlarla asudə vaxtın düzgün təşkili və s.

Məhz bu göstəricilər, tam ailələrin hər zaman daha yüksək statusa malik olmasını təmin edir. Tam və firavan ailələr öz funksiyalarının öhdəsindən uğurla gəlir, maddi, psixoloji və digər daxili imkanlara əsaslanan yüksək adaptiv qabiliyyətlərə malikdirlər, uşağın tərbiyəsi və inkişafı problemlərini uğurla həll edirlər [4, s. 23-29].

Natamam ailələr çox zaman yuxarıda qeyd edilən göstəricilərin əksəriyyətindən məhrum olurlar, tək valideynlik ailə üzvlərinin sağlamlıq vəziyyətinə təsirsiz ötüşmür. Bu ailələrdə çox vaxt ailə başçısı güclü fiziki və psixoloji gərginlik hiss edir ki, bu da uşaqlara təsirsiz ötmür. Bu vəziyyət onların sosial statusunun müəyyənləşməsinə əsaslı təsir göstərir.

Natamam və ya "tək valideynli ailə" boşanma, həyat yoldaşının getməsi və ya ölümü, nikahdankənar uşağın doğulması, heç vaxt nikah bağlanmaması səbəbindən tək valideyn (ana və ya ata) tərəfindən idarə olunan ailədir. Natamam ailənin əsas fərqləndirici xüsusiyyətləri yalnız bir valideynin və yetkinlik yaşına çatmayan uşaqların (və ya bir uşağın) olmasıdır [7, c. 55].

Eyni zamanda tək valideynli (natamam) ailə uşaqlarla (bəzi hallarda yaxın qohumlarla) yaşayan və yalnız ailənin funksiyalarını həyata keçirən tək valideyndən ibarət ailədir [5].

Bu baxımdan natamam ailələrin aşağıdakı növləri fərqləndirilir: yetim, qeyri-qanuni, boşanmış, dağılmış ailələr. Bu təsnifat daha dərinləşmiş formada aşağıdakı kimi də təqdim edilir:

1. Tək ana olan natamam ailələr.
2. Tək ata olan natamam ailələr.
3. Tamamlanmamış sadə – uşaqlı və ya bir neçə uşaqlı ana (ata).
4. Natamam uzadılmış – bir və ya bir neçə uşaq və digər qohumları olan ana (ata).
5. Funksional natamam ailələr - bu qrupda iki valideyn var, lakin peşə və ya digər səbəblərdən ailəyə az vaxt ayırırlar. Belə valideynlər, sanki, ailə qrupundan çıxarılır, sırf nominal olaraq siyahıya salınır və övladlarının şəxsiyyətinin formalaşmasında real iştirak etmirlər [16, s. 104]. Qeyd edilməlidir ki, məhz belə ailələrdən olan uşaqlarda özgələşmə, laqeydlik və ya qayğıya aşırı ehtiyac hiss olunur. Eyni zamanda "*orta məktəb şagirdlərinin rəqabətqabiliyyətliliyinin və formalaşması prosesində valideynlərin və ailənin sosial statusu, habelə bu prosesi şərtləndirən əsas amillər*" [3, c. 140-155] əsaslı təsir göstərir.

Natamam ailələrin digər bir forması valideynlərin doğma olmadığı, övladlığa götürülən uşaqları olan və ya qəyyum ailələr hesab edilir. Müvafiq olaraq, bu cür tək valideynli ailələr atipik adlanır, onların arasında öz növbəsində övladlığa götürülmüş uşaqları

olan tək valideynli ailələri və başqalarının uşaqlarını qəyyum kimi böyüdən tək valideynli ailələri ayırmaq olar [15, s. 44].

Tək valideynli (natamam) ailələr uşaqlı tək ana (dul, boşanmış və ya heç vaxt evlənməmiş) və ya atanın (dul, boşanmış) ailəsi hesab olunur. Tək valideynli ailələrə valideynlərinin və/və ya qohumlarının tək ana və ya ata ilə birlikdə yaşadığı ailələr, uşaqların babası və/və ya nənəsi ilə birlikdə yaşadığı, lakin ata və anası olmayan (valideynlərin ölümü, valideynlik hüququndan məhrum etmə və digər hallar) və ya əmi, bibi, böyük qardaş və bacı və ya digər qohumlarla yaşayan, həmçinin valideynlərdən birinin valideynlik hüquqlarından məhrum (məhdud) olduğu və ya övladlığa götürülmüş uşaqları olan ailələr hesab edilir [5].

Natamam ailələri rifah baxımından da təsnif edirlər. Belə ki,

1) firavan yaşayışı olan tək valideynli ailələr. Onlar öz funksiyalarının öhdəsindən uğurla gəlirlər, praktiki olaraq sosial pedaqoqun dəstəyinə ehtiyac duymurlar, çünki maddi, psixoloji və digər daxili resurslara əsaslanan uyğunlaşma qabiliyyətləri sayəsində uşağın ehtiyaclarını və problemlərini uğurla həll edirlər, uşağın tərbiyəsi və inkişafına vaxt ayırırlar. Problemlər yarandıqda sosial işçi və ya sosial pedaqoq tərəfindən qısamüddətli iş modeli çərçivəsində onlara birdəfəlik yardım kifayətdir; [2, s. 22-28]

2) disfunksional natamam ailələr. Belə ailələr həyatın müxtəlif sahələrində (iş, təhsil, məişət və s.) aşağı sosial statusa malik olmaqla, ailəyə xas funksiyaların öhdəsindən gələ bilmir, sosial adaptasiya qabiliyyətləri əhəmiyyətli dərəcədə aşağı olur, uşağın ailə tərbiyəsi prosesi böyük çətinliklərlə, yavaş-yavaş davam edir. Bu tip ailələr üçün sosial pedaqoqun aktiv və uzunmüddətli dəstəyi lazımdır. Problemlərin xarakterindən asılı olaraq sosial pedaqoq belə ailələrə uzunmüddətli iş formaları çərçivəsində maarifləndirici, psixoloji, vasitəçilik yardımı göstərir; [2, 22-28]

3) "Risk" qrupuna aid olan natamam ailələr sosial normalardan kənarlaşma, zəif sosiallaşma xüsusiyyətlərinə malik olurlar. Bu səbəbdən belə ailələri firavan, məsələn, tək valideynli ailələr, aztəminatlı ailələr və s. kimi xarakterizə etmək mümkün deyil. Belə ailələrdə uşaq böyütmək çox böyük çətinliklərlə müşayiət olunur.

Riskli ailələrdə müxtəlif əlverişsiz amillər (iqtisadi, sosial-demoqrafik, psixoloji və s.) və ya çətin həyat şəraiti səbəbindən uyğunlaşma qabiliyyətləri azalır, ona görə də belə ailələrin uşaqların uğurlu inkişafı üçün lazımi şərait yaratmaq imkanları məhduddur [4, s. 23-29]. Bu səbəbdən sosial pedaqoq həmin ailənin vəziyyətini, orada dezodorasiya edən amilləri izləməli, digər müsbət xüsusiyyətlərlə nə qədər kompensasiya edildiyini izləməli və lazım olduqda, vaxtında yardım təklif etməlidir; [2, s. 22-28]

4) natamam asosial ailələr. Valideynlərinin əxlaqsız, qeyri-qanuni həyat tərzi sürdüyü, mənzil-məişət şəraitinin elementar sanitar-gigiyenik tələblərə cavab vermədiyi bu ailələrdə, bir qayda olaraq, uşaq tərbiyəsi ilə heç kim məşğul olmur, uşaqlar baxımsız, yarımac olurlar, onların fiziki və əqli inkişafı ləngiyir, inkişafdan geri qalırlar, bir çox hallarda, valideynlər və eyni sosial təbəqədən olan digər vətəndaşlar tərəfindən zorakılığın qurbanına çevrilirlər. Bu ailələr hüquq-mühafizə orqanları, habelə qəyyumluq və himayəçilik orqanları, yerli özünüidarəetmə orqanları, pediatr və s. ilə sıx əlaqədə saxlamalıdır [2, s. 22-28].

Tək valideynli ailə:

- tək ana (uşaqları tək böyüdən ana);
- boşandıqdan sonra nikahda olmayan ana;
- dul (nikah yoldaşını itirmiş) uşaqlı ana;
- övladlığa götürülmüş uşağı olan subay ana;

- surroqat analıq proqramının həyata keçirilməsi nəticəsində atanın valideynlik hüququndan məhrum olduğu ana ailəsi (valideynlik hüququ məhduddur);

- tək ata ailəsi (uşaqları tək böyüdən ata);

- boşandıqdan sonra uşaqları ilə ananın valideynlik hüququndan məhrum olduğu ata ailəsi;

- himayəyə (övladlığa götürülmüş) uşağı olan tək ata;

-subay, surroqat analıq proqramının həyata keçirilməsi nəticəsində doğulmuş uşağı (uşaqları) olan ata;

- babasının və (və ya) nənəsinin, qohumlarının (əmi, bibi və s.) yanında yaşayan ailə olaraq da təsnif edilir [5].

Müasir dövrdə natamam ailələrin yaranmasının başlıca səbəblərindən biri kimi subay qadınların uşaq dünyaya gətirməsi olaraq müəyyənləşdirilir. Elmi ədəbiyyatda belə ailələrə "qanunsuz" deyilir. Belə ailələrin yaranmasının başlıca səbəb kimi əxlaqi dəyər və normaların təsiri və təzyiqinin zəifləməsi və qeyri-qanuni uşaqlarla bağlı daha liberal sosial münasibətin formalaşması hesab edilə bilər. Bu gün dini mövqeyindən asılı olmayaraq, yeni doğulan uşaqların ümumi sayında qeyri-qanuni uşaqların sayının çox olması qadınların sosial, psixoloji, iqtisadi və s. problemləri ilə əlaqələndirilir. Qanundan kənar, yəni nikaha girməyən 20-24 yaşlı, ən çoxu isə 30-40 və 15-19 yaşlarındakı qadınlar tərəfindən qeyri-qanuni uşaqların dünyaya gətirilməsi halları daha çox müşahidə olunur. Çox zaman 15-19 yaşlı qadınlarda qeyri-qanuni uşaqların doğulmasının əsas səbəbləri bəzi gənclərin cinsi fəaliyyətə erkən başlaması və kontrasepsiya üsullarına laqeyd yanaşmasıdır. Demoqrafik meyllər deməyə əsas verir ki, tək analı ailələrin formalaşması davam edəcək [10].

Tək analı ailələrin genişlənməsinin siyasi əsaslarından biri kimi feminizmin genişlənməsi vurğulanır. Feministlərin nöqteyi-nəzərincə, iki əsas səbəb tək analı ailələrin yaranmasına səbəb olmuşdur. Bu bir tərəfdən, subay qadınların tək valideynli həyat sürməyə qadir olduqlarını nümayiş etdirilmək niyyəti, digər tərəfdən və daha radikal bir şəkildə, "siyasiləşdirilmiş şəxsi" element kimi tək valideynli ailələrin siyasi təbliğatı əsasında ailə institutunun lazımlılığının şübhə altına alınması ilə bağlıdır. Başqa sözlə, feministlər "klassik" ailəsinin qadınların zülmü üçün siyasi bir yer olduğunu bildirirlər və tək valideynliyin yeganə həll yolu olduğunu nümayiş etdirməyə çalışırlar. Nathalie Martin-Papineau hesab edir ki, "feminizm, şübhəsiz ki, şəxsi həyatın siyasiləşməsinə nail olub, lakin o, ailə institutuna aid olan tələblərini siyasi sahəyə gətirə bilməyib". Yəni tamamilə aydındır ki, feminizm əvvəllər qadınlar üçün ayrılmış yeri şübhə altına almağa və siyasi qələbələr qazanmağa müvəffəq olmuşdur (məsələn, Fransada qadınlar və kişilər arasında bərabər əmək haqqı prinsipinin qanuna daxil edilməsi 1972-ci ildən başlayır və 1975-ci ildə abort haqqında ilk qanun qəbul edilib), lakin Nathalie Martin-Papineauya görə, feminizm "ailəyə yeni bir tərif verməyə", onu kökündən dəyişməyə müvəffəq olmamışdır [8, s. 4].

Tək valideynli ailələrin formalaşmasına həm də son on ildə müşahidə edilən qeyri-təbii səbəblər (zəhərlənmə, istehsalat xəsarətləri, hərbi əməliyyatlar və s.) nəticəsində əmək qabiliyyətli yaşda olan kişilərin ölümünün qeyri-mütənasib artmasıdır. Yaranma səbəbindən asılı olmayaraq, tək valideynli ailələrin əksəriyyəti maddi çətinliklərlə üzləşirlər. Təkvalideynli ailələr çox hallarda yoxsulluq səviyyəsində yaşayırlar. Bütün bunlar natamam ailənin və onun çoxalmasının səbəblərinin öyrənilməsini aktuallaşdırır [10].

Beləliklə, klassik təkvalideynli ailə ata-anadan birinin və ya hər ikisinin ölümü, boşanması deməkdir. Ailənin parçalanması valideynlərdən birinin ölümü və ya ayrılması

nəticəsində yaranır. Bu tip ailənin müəyyən problemləri olur. Valideynlərdən birinin ölümü ailəni sosioloji, psixoloji və iqtisadi cəhətdən ciddi şəkildə sarsıdır. Valideynlərdən birinin ölümü nəticəsində o biri dul qalır, uşaqlar yetim qalır. Ölümdən sonra adətən təkrar nikah edilmir və ailə maddi və mənəvi cəhətdən zədələnir. Ən çox zərər görənlər qadınlar və uşaqlar olur [17, s. 209-217].

Təkvalideynli ailələrin sırasına əlil uşaqların doğulduğu ailələr də aid edilir. Belə ki, ailədə əlil uşağın doğulması psixoloji və iqtisadi çətinliklər yaradır. Bu vəziyyət bir çox hallarda uşağın tərk edilməsi, ya da valideynlərdən birinin ailəni tərk etməsilə nəticələnir. Əlil uşaqla qalan valideyn (bu, çox zaman ana olur) bir çox məhrumiyyətlərlə üzləşməli olur. Bu zaman sosial işçinin psixoloji, sosial, hüquqi, tibbi və s. istiqamətli köməyinə ehtiyac artır. Təkvalideynli ailələrdə böyüyən uşaqlar sosial pedaqoji yardıma ehtiyac hiss edirlər.

Təkvalideynli ailələr çox zaman qeyri-müntəzəm ailələr statusuna malik olurlar. Qeyri-dayanıqlı iqtisadi vəziyyət, çox zaman yoxsulluq uşaqların xəstələnməsinə səbəb olur. Ailələrin sosial statusundan asılı olaraq, uşaqların öz ətrafları ilə qurduqları ünsiyyət də fərqli olur. Firavan ailələrdə böyüyən uşaqların qayğıları qarşılandığı halda, təkvalideynli ailələrdə uşaqlar sosial, psixoloji, iqtisadi çətinliklərlə bağlı sosiallaşmaqda çətinliklərlə üzləşirlər.

Disfunksional ailələrdə aşağı iqtisadi vəziyyət, əlverişsiz psixoloji iqlim və ailə üzvlərinin sosial-mədəni səviyyəsinin aşağı olması səbəbindən uşağın tərbiyəsi üçün lazımi şərait yaratmaq imkanları əhəmiyyətli dərəcədə azalır. Nəhayət, asosial ailələrdə uyğunlaşmayan amillərin sayı maksimumdur: yaşayış və məişət şəraiti elementar sanitar-gigiyenik tələblərə cavab vermir, valideynlər əxlaqsız həyat tərzi keçirir və təhsil prosesinə cəlb olunmurlar [4, s. 23-29].

Boşanmış təkvalideynli ailələr bir çox stresslərlə üzləşirlər. Boşanma ailənin parçalanmasının başqa bir növüdür. Boşanma hadisələri ölümlə müqayisədə daha mürəkkəb və problemli proses deməkdir. Bunun səbəbi boşanmanın əvvəlki ailə münasibətlərinə mənfi təsir etməsidir [17, s. 209-217].

Boşanmış ailələrdə uzun müddət ziyarət və qəyyumluqla bağlı problemlər təzahür edir. Valideynlər arasında davam edən münaqişə, əsasən, uşaqlara psixo-travmatik təsir göstərir. Valideynlər və uşaqların birlikdə vaxt keçirmə imkanları məhdudlaşır. Ailənin dağılması və natamam ailə statusu uşaqların təhsilinə və həmyaşıdları ilə münasibətlərinə təsir edir. Əvvəlki ailə münasibətlərinin pozulması yeni problemlərin yaranmasına və yeni ünsiyyət formasına gətirir [12].

Boşanmış natamam ailələrdən olan uşaqlar çox vaxt travmatik hadisələrin iştirakçısı və şahidi olurlar. Boşanmadan əvvəlki və sonrakı dövrdə valideynlərin "döyüşü" ona gətirib çıxarır ki, uşaqların 37,7%-nin dərs göstəricilərinin aşağı düşməsinə, 19,6%-nin nizam-intizamdan əziyyət çəkməsinə, 17,4%-nin xüsusi diqqət tələb etməsinə, 8,7%-nin evdən qaçmasına, 6,5%-nin dostları ilə münaqişənin olmasına gətirir [11, s. 66]. Bu çətinliklər yetkinlik yaşına çatmayanların antisosial davranışlarına səbəb olur. Ekspert hesablamalarına görə, yetkinlik yaşına çatmayan cinayətkarların yarıdan çoxu natamam ailədə tərbiyə olunur, o cümlədən alkoqol və ya narkotik vasitələrdən istifadə edən yeniyetmələrin 30-40 %-i, fahişəliklə məşğul olanların 53 %-i [6, s. 47] natamam ailələrdən çıxan uşaqlardır. Bu və digər mənfi nəticələr (psixi və somatik sağlamlıqda sapmalar, uşağın sosial fəallığının azalması (özünüqiymətləndirməsinin aşağı olması) uşağın gələcək şəxsi və sosial həyatına ciddi təsir göstərir.

Ailənin sosial statusu ailə üzvlərinin və ilk növbədə uşaqların subyektiv sosial statusun formalaşmasına səbəb olur və natamam ailələrdən olan uşaqlarda depressiya halları izlənilir. Natamam ailələrdə valideynin, yaxud himayəçinin həyatdan məmnunluq səviyyəsi və emosional haləti uşaqlara da təsir edir. Sosial-iqtisadi vəziyyətlə əlaqədar olaraq, valideynin narahatlığı və mənfi emosiyalarla yüklənməsinin davamlılığı belə ailələrdən olan uşaqların təhsildən yayınması, zərərli vərdişlərə meylli olması, ailədən qaçması və s. kimi halların izlənməsinə gətirir.

Sosial təbəqənin psixologiyasına dair son araşdırmalara əsasən insanların böyüdüyü və yaşadığı maddi şərait onların şəxsi və sosial kimliklərinə qalıcı təsir göstərir, onların sosial davranışının əsas aspektləri kimi təzahür edir. Kasıb sinifdən olan insanların daha yuxarı təbəqədən olan insanlarla müqayisədə psixoloji cəhətdən daha zəif olurlar, onlarda özünüqiymətəndirmə, bir çox hallarda şəxsi nəzarət hissi aşağı olur. Aparılan araşdırmalara əsasən işçi sinfə aid olan insanlar yüksək empatiya hisslərinə malik olurlar və sıxıntı içində olanlara kömək etməyə çalışırlar.

Digər tərəfdən, sosial iqtisadi vəziyyət natamam ailələrdəb olan insanların öz bacarıqlarını təkmilləşdirmək üçün təhsil və peşə imkanlarından yararlanma ehtimalını azaldır. Bu o deməkdir ki, imkanları məhdudlaşdıran və sosial birliyi təhdid edən məhrumiyyət dövrəsini qırmaq üçün yenidən bölüşdürmə siyasətinə ehtiyac var [1].

Sosial dəstək şəbəkələri tək valideynli ailələrin həyatında iqtisadi, informasiya və emosional resursların təmin edilməsi yolunda əsas rol oynayır. Təkvalideynli ailələrin əksəriyyəti (90,8%) heç bir qurum/təşkilat/birlik və ya onların yaxın ətraflarından yardım almır. Ailələrin əksəriyyətinin heç bir qurum/təşkilat/dərnək və ya onların yaxın çevrələrindən yardım almaması, yardım ala biləcəkləri qurum/təşkilatlar və ya birliklərdən xəbərsiz olduğu təəssüratı yaradır. Bu yardımı almaq üçün lazımi şəraiti təmin edə bilmirlər və ya başqalarına ehtiyac duymadan həyatlarını davam etdirmək istəyirlər. Təkvalideynli ailərlərin çox az hissəsi müəssisə/təşkilat/birlikdən və ya yaxın ətraflarından yardım alır. Həm maddi, həm də natura şəklində yardım alan ailələr ən aşağı nisbətdədir [9, s. 93-111].

**Nəticə**

Tədqiqat onu deməyə əsas verir ki, natamam ailələr aidiyyətli sosial institutların nəzarətində olmalı, onların sosial rifahının yaxşılaşdırılması istiqamətində müəyyən addımlar atılmalıdır. Ailənin iqtisadi vəziyyəti və psixi sağlamlığı ilə bağlı tədqiqatlar genişləndirilməli, natamam ailələrin üzvlərinə səhiyyə və psixoloji yardım təşkil edilməlidir.

## ƏDƏBİYYAT


1. Antony S. R. Manstead. The psychology of social class: How socioeconomic status impacts thought, feelings, and behavior // British Journal of Social Psychology (2018) © 2018 The Author. British Journal of Social Psychology published by John Wiley & Sons Ltd on behalf of British Psychological Society. (file:///C:/Users/User/Downloads/The_psychology_of_social_class_How_socioeconomic_s.pdf)
2. Дементьева Н. В. Технология индивидуальной работы с детьми и подростками из неполных семей // Соц. педагогика: новые исследования; Инта педагогики соц. работы. Екатеринбург, 2012. С. 22-28.

3. Гуляева Л.В. , Семенов М.Ю. Роль социального статуса семьи в формировании конкурентоориентированности и конкурентоспособности старшеклассников (на примере тюменской области). Вестник Московского университета. Серия 18. Социология и политология. 2019, 25 (3): 140-155. (https://doi.org/10.24290/1029-3736-2019-25-3-140-155)
4. Золотова Н.В., Ахтямова А.А., Овсянкина Е.С., Петракова И.Ю., Хитева А.Ю. Социальный портрет семей детей и подростков, больных туберкулезом органов дыхания // Tuberculosis and Lung Diseases, Vol. 96, No. 10, 2018, с. 23-29.
5. Ивашкина Ю.Ю. Типы семей в системе социального обслуживания. (http://home-kid.ru/content/docs/izdaniya/serealnui_sbornik/vse-vupyski/v2/63-73.pdf)
6. Кантемирова, Г.А. Социализирующий потенциал неполной семьи. Владикавказ: Изд–во СОГУ им. К. Л. Хетагурова, 2008. 163 с.
7. Кошелев А.Д., Шаграев О.А., Корнеев Т.В. Психология семейных отношений: Учеб. пособие для студентов вузов. М.: Академия, 2008. 360 с.
8. La Famille Monoparentale Construction Sociale. La Famille Monoparentale Retour sur la Construction D'un Problème Social // Analize 2018-2025. p.4. (https://www.acrf.be/wp-content/uploads/2018/11/acrfana_2018_25_familles_construction_JFP.pdf)
9. Muhammet Serhat Öztürk, Ayfer Aydiner Boylu. Investigation of Economic Activities of Single Parent Families // Sosyoekonomi. 2015, Vol. 23(25), pp. 93-111.
10. Рашитова Л. К. Неполные семьи: проблемы и перспективы их решения (Республика Башкортостан). (https://lib.herzen.spb.ru/media/magazines/contents/1/101/rashitova_101_288_292.pdf)
11. Ржаницына, Л.С. Улучшение положения детей в разведенных семьях / Л.С.Ржаницына // Социологические исследования, 2015, №3, с. 65–69.
12. Single parenting and today's family // https://www.apa.org/topics/parenting/single-parent
13. Социология и политология. 2019. Т. 25. № 3, с. 140-155
14. Словарь социолингвистических терминов. М., 2006. с. 206–207.
15. Трифонов Б.А. Психологические проблемы в неполных семьях. Екатеринбург: Изд-во Урал. гуманитар. ун-та, 2004. 123 с.
16. Усманов Б.Ф. К разработке понятия «социальная технология» // Материалы методологического семинара Института социального образования за 2005-2006 год. Екатеринбург, 2009. Вып. 2, с. 136-141.
17. Yusufoğlu Ömer Şükrü, Kızmaz Zahir. The Aspect of Poverty in Broken Families: a Case of Elazig // Fırat Üniversitesi Sosyal Bilimler Dergisi Fırat University Journal of Social Science. Cilt: 26, Sayı: 1, s. 209-217.

***Резюме***

***Сара Агаева***

***Социальное положение неполных семей***

Сегодня основные причины проблемы неполных семей связаны с социальными проблемами и технологиями их решения. Организация социальной работы с неполными семьями непосредственно способствует решению социально-психологических проблем семьи, в том числе регулированию отношений между родителями или опекунами и детьми, улучшению социального положения таких семей, восстановлению внутренней способности выполнять многие общественно значимые семейные функции. фокусируется на. Следует отметить, что разработка и укрепление теоретико-технологической базы социальной работы с неполными семьями в настоящее время достаточно актуальны.

Известно, что семейные отношения регулируются морально-правовыми нормами. Брак, узаконивающий отношения между мужчиной и женщиной, конкретизирует ответственность за физическое и духовное здоровье членов семьи в процессе совместного проживания. Ядром здорового общества считается здоровая семья как социальный институт, основанный на совместной деятельности, скрепленный брачно-родительскими отношениями, обеспечивающий преемственность поколений, социализацию детей и поддержку членов семьи.

Исследование предполагает, что неполные семьи должны быть под контролем соответствующих социальных институтов, и должны быть предприняты определенные шаги для улучшения их социального благосостояния. Следует расширить исследования экономического положения и психического здоровья семьи, оказать медико-психологическую помощь членам неполных семей.

***Ключевые слова:*** *семья, неполная семья, развод, социально-экономические трудности.*

***Summary***

***Sara Agayeva***

***Social Status of İncomplete Families***

Today, the main reasons for the problems of incomplete families are related to social problems and technologies of their solutions. The organization of social work with incomplete families directly contributes to the solution of social and psychological problems of families, including the regulation of relations between parents or guardians and children, the improvement of the social status of the family. focuses on. It should be noted that the development and strengthening of the theoretical and technological base of social work with incomplete families is currently quite relevant.

It is known that family relations are regulated by moral and legal norms. Marriage, which legitimizes the relationship between a man and a woman, specifies the responsibility for the physical and spiritual health of family members in the process of living together. The core of a healthy society is considered to be a healthy family as a social institution based on joint activities, sealed by marriage and parental relationships, ensuring the continuity of generations, the socialization of children and the support of family members.

Research suggests that incomplete families should be under the control of corresponding social institutions, and enterprises should be determined steps to improve their social well-being. It is necessary to expand the study of the economic situation and mental health of families, to provide medical and psychological assistance to members of incomplete families.

***Keywords*****:** *family, incomplete family, divorce, socio-economic difficulties*

Şöbə redaktoru f.ü.f.d. Rəhimov Mütəllim Qara oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 1**

# MƏNƏVİ DƏYƏRLƏRİN QAYNAQLARI VƏ FƏLSƏFİ MAHİYYƏTİ

**Nuray QİBLƏLİYEVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 17 aprel 2022; çapa qəbul edilmişdir: 18 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*
*Received: 17 th of april, 2021; accepted: 18 th of May , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər**: mifoloji baxışlar, mənəvi dəyərlər, fəlsəfi təfəkkür, elmi biliklər*

## Giriş

Bəşər tarixi boyu insanların şüuru təkamül edərək müxtəlif sivilizasiyaların meydana gəlməsinə səbəb olmuş və yeni mədəniyyətlərin elmi – fəlsəfi xarakter daşıyan mənəvi dəyərləri formalaşmışdır. İnsanın sosial həyatının özünün mürəkkəbləşməsi, insanın yetkinliyinin mənəvi göstəricisi kimi seçim problemlərinin yaranması aksiologiyanın - dəyərlər haqqında fəlsəfi təlimin yaranmasına səbəb olmuşdur.

İnsanlar təbiətin və kainatın sirlərini öyrənməyə cəhd etmiş, lakin yaşadığı ictimai formasiyanın inkişaf səviyyəsinə uyğun olaraq bütün gördüklərinə və duyduqlarına öz zamanının ictimai şüuru səviyyəsində yanaşmışlar. Buna görə də, ən qədim dövrlərdən üzübəri müxtəlif hadisə və prosesləri yaşadıqları dövrlərin xüsusiyyətləri səviyyəsində qiymətləndirə bilmişlər. Ən maraqlısı odur ki, hələ qədim dövrlərdə yaşayan insanların fövqəltəbii xarakter daşıyan dini baxışları müasir dövrümüzə qədər müəyyən mənəvi dəyər mahiyyətini itirməmişdir. Hətta onlar müxtəlif fəlsəfi cərəyanların məzmununda da öz əksini tapır. Buna misal olaraq, animistik anlayışları göstərmək olar. Ruh, can mənası daşıyan bu anlayış real varlığın ikiyə bölünməsi zəmnində həm bütün dünya dinlərinə, həm də idealist fəlsəfəyə öz töhvəsini göstərmişdir. Xüsusilə teoloji fəlsəfənin əsasında dayanan animistik anlayışlar təcəssümləşdirilərək müxtəlif qruplar formasında təqdim olunur. Ruh anlayışı mənəvi dəyər kimi şəxsləndirilir. Ruhlar insanlara nəsil ruhları, əjdad ruhları, xəstəlik ruhları, şamanlara yardımçı olan ruhlar, eyni zamanda təbiət qüvvələrinin sahibləri olan ruhlar kimi izah edilir. Bütün dünya dinlərində ənənəvi olaraq insan dünyasını dəyişib torpağa tapşırılanda onun ruhunun axirət dünyasında şad olması üçün dualar oxunur.

## Animistik anlayışlar və onlara fəlsəfi baxış

Ümumiyyətlə, ruhların əbədi olmasına aid çox maraqlı miflər meydana gəlmişdi. Bu miflər vasitəsilə ruhlar obrazlaşdırılır və onların mövcudluğuna aid bədii – emosional nəticələr incəsənətə bənzər nümunələrə çevrilir. Məhz bu nümunələr xalqların dini adət və ənənələrində incəsənətə bənzər mənəvi – emosional dəyərlər kimi özünü büruzə verir. Görünür ruhlarla əlaqələndirilən bir çox mənəvi dəyərlərin emosional cəhətlərini şərh edən rus filosofu N.Q.Qrot 1880-ci ildə çap etdirdiyi "Fəlsəfə incəsənətin bir şöbəsidir"

* *doktorant, Bakı Dövlət Universiteti*
*e-mail:* nuray_qiblaliyeva@mail.ru

adlı məqaləsində qeyd etmişdir ki, "poetik və fəlsəfi əsərlər müəyyən dövrlərdə adamları təmin edir". (6, s. 14)

Animistik anlayışlar mistik fəlsəfi baxış kimi qədim yunan filosofu Platonun da yaradıcılığına öz təsirini göstərmişdir. Elə buna görə də o, "Fedon" əsərində göstərirdi ki, hər bir insanın ruhu insan dünyaya gələnə qədər kainatda mövcud olan yastı bir ulduzun üzərində yerləşir. İnsan dünyaya gələndə onun ruhu bədənə daxil olur. İnsanın bədəninin ölümü isə insanın ruhunun ölümü deyildir. Hətta o ruhun bədəndən bədənə keçməsinə də inanırdı.

Qədim Yunanıstanda allahlar haqqında yaradılmış miflər həmin dövrün ədəbi əsərlərində də öz əksini tapmışdır. Homerin, Esxilin, Evripidin, Sofoklin və başqa qədim yunan ədiblərinin demək olar ki, bütün əsərləri mifologiya zəmnində yazılmışdır.(1, s. 35)

Təbii varlığın yaranması haqqında da mifoloji qaynaqlar mövcuddur. Qədim miflərin birində vaxtilə yerlə göyün bitişik olması haqqında maraqlı əfsanə mövcuddur. Qeyd olunur ki, bir gün cin – suatla ənşər – mənşərin davası başlanır. Bu davada yer nəhrə kimi çalxalanır və onun üst qatı alt qatdan 7.777.777 qat hündür mənzilə atılır. Üst qat orada özünə əbədi məskən salır. Alt qat isə suya çevrilib əvvəlki yerini özünün yurddaşı edir.

Maraqlıdır ki, alt qatla üst qat bir-biri ilə yola getmir. Onlar arasında daima ziddiyət baş verir və üst qat nəticədə alt qatın başına od-alov ələyir. Bu prosesdə su yavaş-yavaş buğ olub qara çüyüdə çevrilir. Sonra isə bulud olub yanar odun qabağını kəsir. Buludla suyun görüşündən xəbər tutan Günəş qəzəblənərək şüa oxu ilə Buludun göbəyini yırtır. Bu hadisənin nəticəsində Ay və ulduzlar Buludun qarnından çıxıb göyün üzünə səpələnir.

Bu mifologiya mahiyyətli rəvayət əksiklərin vəhdəti və mübarizəsi qanuna bənzəyir. Burada ziddiyət Günəşlə su arasında baş verir. Mifologiyada təbiətin hərəkətinin mürəkkəb bir formada yeni keyfiyyət dəyişmələrinə səbəb olması anlamı nəzərə çarpır. Beləki qara örpək görüntüsünə malik olan Bulud Günəşin qabağını kəsir. Günəş isə tənhalıqdan yaxa qurtarmaq üçün Aya könül bağlayır və onunla görüşməyə nail olur. Bu görüşdən Ayla Günəşin Dan və Dün adında ekiz övladları dünyaya gəlir. Oğlan Danla qız Dün evlənirlər. Onlardan 4 nəvə (dörd fəsil), 12 nəticə (yəni 12 ay), 24 kötücə (bir sutka), 30 iticə (bir ay), 364 ötüycə dünyaya gəlir. Ötücələrdən biri çox dəcəl olduğundan Günəşin şüa ayğırını minib Yerə tərəf qaçır. Yerdə tək-tənha bezdiyindən 7 çöp düzəldir və bu çöpləri yerə sancaraq onun üstünə uzanıb yatır. Bulud ötücənin yerə sancdığı bu çöpləri suvarıb onları ağaclara çevirir. Mifologiyadakı bu bənzətmələrə diqqət yetirərkən zamanın müxtəlif anlarının konkret rəqəmlərlə yaradılmasının şahidi oluruq. 7 rəqəmi isə 1 həftənin 7 günü kimi təcəssüm olunur. Əslində bu rəqəmlər bir ilin konkret əlamətlərinin bölgüsünü özündə əks etdirir (4, s. 63).

Ən maraqlı cəhətlərindən biri də odur ki, mifologiyada insanın yaranmasının səbəbləri də fantastik bir məzmunda izah edilir. Qeyd olunur ki, ötüycə yuxudan oyandıqdan sonra kipriklərini qırpıb yuxarıda təsvir olunan ağaclara bar verir. Bundan sonra o dəryanın kənarına gəlib palçıqdan özünəbənzər iki fiqur düzəldir. Bu vaxt şüa ayğır fınxırıb göyə qalxır. Həmin vaxt Yel əsərək tufan qoparır. Tufanın təsirindən ötüycənin düzəltdiyi fiqurlar bərkdən asqıraraq ona tərəf yeriyirlər. Onlardan biri "Adəm", o biri isə "Həvva" deyərək qışqırırlar.Bu hadisədən sonra Adəmlə Həvva gülşən bağını dolaşıb gəzdilər. Sonra güllərin ətrindən məst olan Həvva əncir ağacının dibinə uzanıb yuxuya getdi. Həmçinin Adəm də əncir ağacının yanına gəlib burada 7 gün, 7 gecə yuxuladı. Onlar ayılarkən bir-birini çılpaq görüb bədənlərini əncir yarpağı ilə örtdülər. Yaxınlaşarkən nəfəsləri bir-birinə toxundu. Bir müddətdən sonra Həvvanın əkiz oğlu və qızı oldu. Oğlanın adını vişək, qızın adını çiçək qoydular... (4, s. 63-64) Məlumdur ki, fəlsəfi fikir tarixində insanın

mənşəyi haqqında müxtəlif baxışlar mövcud olmuşdur. Marksist fəlsəfənin görkəmli nümayəndəsi Engels isə Ç.Darvinin təkamül nəzəriyyəsinə əsaslanaraq insanabənzər meymun növünün əmək prosesində təkmilləşərək insana çevrilməsi ideyasını irəli sürmüşdür. Hətta "Meymunun insana çevrilməsində əməyin rolu" adlı əsər də yazmışdır.

Hələ Qərbdə ilahiyyat fəlsəfəsinin banisi Foma Akvinski də insan probleminə və mənşəyinə xüsusi diqqət yetirmişdir. O, insanı mikrokosmosa aid edir və onun qəlbini mühərrikə bənzədirdi. Eyni zamanda qəlbin ruhla bağlı olduğunu deyirdi. Həmçinin insanın iradə azadlığının Allahla bağlı olduğunu deyirdi. (2, s. 19)

Ümumiyyətlə, xalq tərəfindən yaradılan müxtəlif mifoloji baxışları təhlil edərkən onlarda ilkin fəlsəfi dəyərlərin qiymətli nümunələrini görürük. Bu da ondan irəli gəlir ki, mifologiya fəlsəfi dünyagörüşünün ilkin formasıdır, fəlsəfənin formula edilmiş nəzəri cəhətinin ilkin əsasıdır. Buna görə də fəlsəfə elminin inkişaf tarixi tədqiq edilərkən haqlı olaraq miflər əslində fəlsəfi anlayışların ilkin başlanğıcları kimi qitmətləndirilir. Eyni zamanda miflərin dini şüurun meydana gəlməsində və inkişafında xüsusi rolu olmuşdur. Bu proses qədim şumer mədəniyyəti alimlər tərəfindən tədqiq olunarkən də öz təsdiqini tapmışdır. Bununla əlaqədar olaraq, Azərbaycan alimi Vəli Həbiboğlu görkəmli şumerşünas N.Kramerin fikirlərinə istinad edərək qeyd edir ki, hələ "eradan əvvəl III minillikdə Şumerdə öz kosmologiya teologiyalarını işləyib hazırlayan mütəfəkkir və pedaqoqlar mövcud idi. Onların yaratdığı baxışlar sistemi o qədər inandırıcı idi ki, Yaxın Şərqin bir çox ölkələrində bu baxışları danışıqsız qəbul etmişlər". (3, s. 13)

Qeyd olunan dövrlərdə göy cisimlərinin yaranması, onların quruluşu və s. Haqqında teoloji məzmuna malik olan çox maraqlı baxışlar meydana gelmişdir. Dini zəmində olan bu baxışlar Azərbaycan türklərinin dünyagörüşlərinin formalaşmasına da öz təsirini göstərmişdir. Bunun da nəticəsində astranomik xarakter daşıyan maraqlı teoloji fəlsəfi baxışlar formalaşmışdır. Xüsusilə göyün yeddi qatdan ibarət olması kimi mifoloji anlamlar meydana gəlmişdir. Qəribədir ki, bu anlamlar həm də sinfi xarakter daşımışdır. Məsələn, həmin miflərdən birində qeyd olunur ki, kainatın torpaq qatında yalnız qara camaat yaşayır. Sonrakı qatlarda isə hürilər, qılmanlar, peyğəmbərlər mövcuddur. Allah isə göyün yeddinci qatında oturub dünyanı idarə edir.

Araşdırmalar nəticəsində məlum olur ki, dini-mifoloji anlamlar gerçəkliyi fantastik şəkildə inkar etdirsələr də onlar müasir dövrdə də bir çox insan təbəqəsini inandırmağa nail ola bilirlər. Xüsusilə dinin hakim mövqeydə olduğu ölkələrdə dini-mənəvi dəyərlər insanların bütün həyat tərzinə, dünyagörüşünə öz təsirini göstərir. Dini etiqadlar emosional məzmunlu miflərlə müşayət olunur, insanlar bu etiqadları şüurlu şəkildə yerinə yetirməyə istiqamətləndirilir. Sözün ilahi təsir gücü formalaşdırılır. İnsanlara miflər vasitəsilə "Nə üçün yağış yağır, dünya necə əmələ gəlmişdir, insanlar haradan meydana çıxmışdır, onlar niyə xəstələnir və ölürlər (3, s. 32) kimi suallara cavab verirlər".

Sözün ilahi qüdrəti mifoloji zəmində indi də, demək olar ki, dünyanın bütün xalqlar tərəfindən mərasimlərdə tətbiq olunur. Həmçinin qədim dövrlərin mifoloji baxışları əsasında yaranmış xalq yaradıcılığı nümunələri də əksər hallarda naturalist xarakter daşıyır və təbii anlamları özlərində əks etdirir. Bununla əlaqədar olaraq, Azərbaycan filosofu Zakir Məmmədov belə qənaətə gəlmişdir ki, qədim insanlar Günəşə, aya. işığa, suya, bitkilərə, quşlara və heyvanlara pərəstiş edərək onlar haqqında obrazlı miflər yaratmağa çalışmış, özləri ilə ilahiləşdirdikləri bu varlıqlar arasında bir yaxınlıq olduğuna inanırdılar. (4, s. 44)

**Miflərə fəlsəfi yanaşma**

Qeyd etmək lazımdır ki, Azərbaycan ərazisində Günəşə və Aya sitayişlə bağlı bir çox məbədlər mövcud olmuşdur. Bununla əlaqədar olaraq eramızın birinci əsrində yaşamış qədim Yunan coğrafiyaçı alim Strabon Ağvaniyanın (Albaniya) dağlıq hissələrində möhtəşəm Ay məbədlərinin tikilməsi və fəaliyyəti haqqında geniş məlumat vermişdir. Onun verdiyi məlumata görə Ay ilahisinə həsr olunmuş məbədlər barlyeflər və divar rəsmləri ilə bəzədilmiş, bu məbədlərdə kahinlərlə yanaşı qullar və nökərlər də yaşamışdır. (5, s. 21) Bu məbədlərdə Günəş insanlara himayəçi, ruhun ölməzliyinə şərait yaradan varlıq kimi təsvir olunmuşdur.

Cəmiyyət inkişaf etdikcə miflərin fəlsəfi məzmunu da mürəkkəbləşmiş, onların əhatə dairəsi də genişləndirilmişdir. Xüsusilə miflər cəmiyyətin və təbiətin harmoniyasını yaratmağa istiqamətləndirilmişdir. Eyni zamanda müdrik xalq ifadələri əxlaqi – fəlsəfi dəyərlər kimi təkmilləşmişdir. Maraqlıdır ki, irsiyyətin mövcudluğu haqqında atalar sözləri yaradılmış, "Ot kökü üstə bitər", "Qurd balası qurd olar" və s. Kimi düşündürücü atalar sözləri meydana gəlmişdir. Bunların hər biri dərin məntiqi – fəlsəfi məna daşımışdır. Atalar sözləri kimi yaranan müdrik ifadələr çox lakonik şəkildə əxlaqi təsir gücünə malik olmuşlar. Məsələn, "Hər zamanın bir hökmü var", "Ayağını yorğanına görə uzat", "Damcı daşı deşər, söz başı" kimi atalar sözlərimiz bu qəbildəndir.

Qədim türklərin dini – mifoloji dünyagörüşündə vətənpərvərlik anlamı xüsusi yer tutur. Belə ki, vətənə məhəbbət duyğusu Göy Tanrının obrazında təcəssümləşdirilmişdir. İnsanlar yaşadığı eli Göy Tanrının yer üzərindəki kölgəsi kimi başa düşmüşlər.Ən maraqlı cəhət odur ki, yurda və ölkəyə aid olan anlamlar Türk xalqları tərəfindən həmişə müqəddəs qanun kimi təcəssümləşdirilmişdir. Məsələn, Hun dövlətinin qoruyucusu olan Mete haqqında bir xalq rəvayəti mövcuddur. Bu rəvayətdə qeyd olunur ki, Tatar hökmdarı Hunlarla müharibəyə bəhanə yaratmaq üçün ondan əvvəl ən sevimli atını istəyir. Mete xalqını müharibədən qorumaq üçün ən sevimli atını Tatar xaqanına göndərir. Lakin Tatar xaqanı yenə də Metedən əl çəkməyərək onun sevimli qadınını istəyir. Bu halda da Mete vətənini qorumaq üçün sevimli qadınını ona verməyə razı olur. Tatar xaqanı bəhanə yaratmaq üçün ondan istifadə olunmayan bir torpaq sahəsini də istəmişdir. Bununla bağlı Mete bir qurultay çağıraraq xalqın fikrini öyrənmək istəmişdir. Onun çağırdığı bu qurultayda iştirak edənlər həmin torpağın faydasız olduğunu deyərək, onun Tatarlara verilməsinə etiraz etməmişlər. Mete isə qurultayın qərarına etiraz edərək demişdir: "Vətən mənim mülküm deyildir, məzarda yatan atalarımızın və qiyamətə qədər doğulacaq törəmələrimizin bu mübarək torpaq üzərində haqları vardır. Vətəndən istər bir qarış qədər olsun yer verməyə heç kəsin səlahiyyəti yoxdur. Buna görə də, müharibə edəcəyik. Bax, indi mən atımı düşmənə doğru sürürəm. Ardımca gəlməyən edam olunacaqdır" (3, s. 30), - deyərək tatarların üzərinə qoşun yeridir.

Məhz sevindirici haldır ki, ölkəmizin prezidenti cənab İlham Əliyev də Hun xaqanı Metenin qəhrəmanlıq hərəkətinə uyğun olaraq torpaqlarımızın erməni işğalından azad olunması üçün igid Azəraycan oğullarını hərbiyə cəlb edərək, cəmi 44 gün ərzində torpaqlarımızı erməni faşistlərindən azad etdi. Bununla da türk qəhrəmanlığının şöhrətini yenidən bərpa etdi.

Qeyd olunan bu fakt bir daha sübut edir ki, bütün mənəvi dəyərlər yarandığı dövrlərdən asılı olmayaraq heç vaxt sosial və mədəni-əxlaqi əhəmiyyətini itirmir, əksinə, olaraq insanın idrakını daha da zəngilləşdirərək ona hadisə və proseslərdən əqli nəticə çıxarmaq imkanı, yaradış, onda məslək, qeyrət, mərdlik, əxlaqi formalaşdırır, bütün mənəvi

dəyərlər insanda mərdlik duyğularını zəngilləşdirir, nəticədə onu tamahkarlıqdan, paxıllıqdan, riyakarlıqdan uzaqlaşdırır. Sözsüz ki, cəmiyyətin həyatında cəhalətə, nadanlığa sürüklüyən bəzi kortəbii inanclar da vardır. Lakin insanda özünü dərk hissi formalaşdıqca o cəhalətlə reallığı bir-birindən ayırmağı bacarır.

– strateji sənədlərin müddəalarının illik auditi, həyata keçirilən fəaliyyətlərin təhlili və bu əsasda sonradan strategiya və maraqların müəyyənləşdirilməsi/aydınlaşdırılması ilə müntəzəm ekspert debatlarının, o cümlədən Bundestaqda təşkil edilməsi;

– köhnəlmiş xarici siyasət aparatının modernləşdirilməsi və ola bilsin, yeni əlaqələndirici strukturların yaradılması;

– diplomatik kadrların hazırlanması və ixtisasının artırılması sahəsində vəziyyətin yaxşılaşdırılması, strateji mədəniyyətin daha da inkişaf etdirilməsini qeyd edə bilərik.

2020-ci ilin avqustunda, Bundestaqa növbəti seçkilərə (2021-ci ilin sentyabr) təxminən bir il qalmış Münhen Konfransının sifarişi ilə Forsa İctimai Rəyin Sorğu İnstitutu Almaniya vətəndaşları arasında onların Almaniyanın xarici və təhlükəsizlik siyasətinə münasibəti ilə bağlı sorğu keçirib. Səbəb xarici işlər orqanlarının aparıcı nümayəndələrinin hesabat müəlliflərinə bildirdiyi fikirlər olub ki, dəyişikliklərin olmamasının səbəblərindən biri almanların bu mövzuya əhəmiyyətsiz marağıdır. Bununla belə, respondentlərin 64%-i bununla kifayət qədər maraqlandıqlarını bildiriblər. Respondentlərin 75%-i növbəti illərdə böhran vəziyyətlərinin sayının artacağını güman edir (2019-cu ildə belə halların 69%-i olub). 64% Almaniyanın dünyada təsirinin lazımi səviyyədə olduğuna inanır, 9% - çox böyükdür, 24% - kifayət deyil. Vətəndaşların 52%-i bu fikirdədir ki, son illərdə ölkənin nüfuzu artıb, 17%-i pisləşib, 30%-i dəyişməz qalıb. 2019-cu ildə analoji göstəricilər 35%, 30% və 32% olub. Maraqlıdır ki, Münhen Konfransı ekspertlərinin rəyi budur ki, Almaniya vətəndaşları daha fəal xarici siyasət yeritməyin tərəfdarıdırlar, lakin bir şərtlə ki, əsas alətlər hərbi vasitələr və mexanizmlər deyil, mülki xarakter daşısın.

Fransa altı onilliklər ərzində Almaniyanın əsas xarici siyasi və iqtisadi tərəfdaşı olub və olaraq qalır. 22 yanvar 2019-cu il tarixində Almaniyanın Axen şəhərində hüquqi bazasını yeniləyən Alman-Fransa tandemi (müqavilə düz bir il sonra qüvvəyə minib) Berlin və Paris tərəfindən siyasi və iqtisadi inteqrasiyanın ən mühüm mühərriki hesab olunur. Xarici siyasət sferasında ümumi xarici və təhlükəsizlik siyasəti çərçivəsində qarşılıqlı fəaliyyətə, 2017-ci ildə Daimi Strukturlaşdırılmış Əməkdaşlıq proqramı və elə həmin il Paris tərəfindən başlanmış Avropa Müdaxilə Təşəbbüsü tərəfindən başlanmış layihələrin təşviqinə xüsusi diqqət yetirilir. İqtisadi sahədə lider yeri Aİ iqtisadi məkanının rəqabət qabiliyyətinin

gücləndirilməsi, o cümlədən dövlətlərarası ittifaqların və ümumi Avropa əhəmiyyətli mühüm layihələrin (IPCEI) dəstəyi vasitəsilə tutur.

Tandemin əsas vəzifəsi E.Makronun Sorbonnadakı məşhur çıxışında (2017-ci ilin sentyabrında) danışdığı kimi, Avropa İttifaqında hərtərəfli islahatların aparılması və onun beynəlxalq aktor kimi rolunun gücləndirilməsidir. Lakin onun təkliflərinin heç də hamısı alman tərəfdaşlar tərəfindən qəbul edilmədi. Fransa prezidentinin 2018-ci ilin iyun ayında Avropa planı Almaniya-Fransa Mezeberq Bəyannaməsinə çevrildi və bu, faktiki olaraq növbəti on il üçün Avropa tandem strategiyasının əsasına çevrildi. Sonrakı illərdə tərəfdaşlar fərdi islahatlarla bağlı baxışlarını ümumi məxrəcə gətirmək məcburiyyətində qaldılar ki, bu da konkret layihələrin həyata keçirilməsi vaxtını bir qədər gecikdirdi. Bir sıra ekspertlər A.Merkeli E.Makronun "sıçrayış" xarici və daxili siyasi ideyalarına dəstək vermədiyinə görə tənqid edirdilər.

2020-2021-ci il koronavirus böhranı Almaniya və Fransa rəhbərliyini üçüncü plan olmasa da, mövcud fərqləri arxa plana keçirməklə onun nəticələrinin aradan qaldırılması üçün səyləri birləşdirməyə həvəsləndirici amilə çevrildi. Bu baxımdan, onların bərpa fondunun yaradılması təşəbbüsü (2020-ci il) və cənub ölkələrinin yardım almaq məsələsində mövqeyini dəstəkləməsi göstəricidir. Almaniya 2020-ci ilin ikinci yarısında Aİ Şurasının sədri kimi bir qrup Skandinaviya ölkəsi ilə kompromis əldə etməyə, yeni Next Generation AB fondunun parametrlərini razılaşdırmağa və növbəti yeddi illik maliyyə planını qəbul etməyə nail olub. 2021-ci il may ayının əvvəlində bu sahələr üzrə müvafiq tədbirlərlə milli planlarını təqdim edən ilk şəxslərdən biri oldular. Onlar bir çox müşahidəçilər tərəfindən "iddialı uzunmüddətli islahat məqsədlərinin olmamasına" görə tənqid olunublar. Tənqidlərə cavab vermədən Almaniya və Fransa may ayının sonunda "Berlin Bəyanatı"nı qəbul etdilər və bu bəyanat çərçivəsində orta müddətli, o cümlədən pandemiyanın nəticələrinin aradan qaldırılmasına yönəlmiş tandem siyasəti təqdim etdilər. Kifayət qədər balanslaşdırılmış və açıq-aşkar ümumavropa məxrəcinə malik olan sənəd müxtəlif sahələrdə hadisələri əhatə edir. Avropa Sabitləşdirmə Mexanizmində islahatların aparılmasına, İqtisadi və Valyuta İttifaqının gücləndirilməsinə, Avropa Yaşıl Sövdələşmənin həyata keçirilməsinə, sənaye və texnoloji suverenliyin gücləndirilməsinə və mədəni-humanitar əməkdaşlığın dərinləşdirilməsinə xüsusi diqqət yetirilib. Berlin və Paris həmçinin Avropanın təhlükəsizliyi və müdafiə siyasəti, terrorizmə qarşı birgə mübarizə, Şengen sazişinin islahatı, Miqrasiya və Sığınacaq üzrə Avropa Paktı və transsərhəd polis əməkdaşlığı sahəsində əməkdaşlığın dərinləşdirilməsi barədə razılığa gəliblər.

Almaniya Aİ-nın iqtisadi və siyasi potensialının gücləndirilməsini Aİ-nın ümumi xarici və təhlükəsizlik siyasətinə doğru irəliləməsi üçün ən mühüm ilkin şərtlərdən biri hesab edir. O, həmçinin 2016-cı ildə qəbul edilmiş Aİ-nin yeni qlobal strategiyasının və Bundesverin Ağ Kitabının bir hissəsi kimi Avropa İttifaqının daha böyük strateji muxtariyyət və müdafiə qabiliyyətinin təmin edilməsi potensialını nəzərdən keçirir.

**Nəticə**

Son beş ildə Berlin ardıcıl olaraq ilk növbədə NATO çərçivəsində transatlantik münasibətlərin xüsusiyyətlərini nəzərə alaraq Aİ ölkələrinin bu sahədə inteqrasiyasının gücləndirilməsində qeyri-rəsmi rolunu gücləndirməyə çalışır. Nəticələrdən biri də 2017-ci ilin sonunda qəbul edilmiş PESCO proqramı oldu. Onun həyata keçirilməsində Almaniya mümkün olan ən çox sayda dövlətin ona daxil olması üçün maneələri azaltmağa yönəlmiş sözdə inteqrativ yanaşmadan istifadə etmək üçün lobbiçilik etdi. Fransa əməkdaşlığın effektivliyini artırmaq üçün proqrama daxil olmaq üçün daha yüksək tələblər irəli sürdü, lakin sonda Berlinin tələblərinə doğru getdi.

## ƏDƏBİYYAT

1. Arbatova N.K., Kokeev A.M. EU Crisis and Prospects for European İntegration (Political Aspects), Moscow, IMEMO RAN, 2013, 204 p.
2. Basov F.A. Germany in the European Union: from Economic Locomotive to Political Leadership, Contours of Global Transformation: Politics, Economics, Law Volume 10, Issue 1, 2017, Moscow, 2017, pp.33-52.
3. Basov F.A. Germany's EU Enlargement Policy, World Economy and International Relations, 2015, (4), pp.18-22.
4. Belov V.B., Abramova S.V., Baranova K.K. and Others in Germany. Challenges of the 21st Century, Moscow, Ves'mir, 2009, 788 p.
5. Pavlov N.V., Novikov A.A. German Foreign Policy from Adenauer to Schröder, Moscow, Moscow Textbooks, CdiPress, 2005, 605 p.

***Summary***

***Jalal Khalilov***

***Political relations between Germany and the European Union***

The Federal Republic of Germany is a powerful state that occupies an important position in the world economically and politically in the rapidly changing structure of the world. Since its inception, the European Union has rapidly activated its position in the integration stages and today focuses the Union's policies on a dominant position.

It is an influential force in EU policy at the EU level, as it has a stronger economic and political position among its member states. It has the authority to use macroeconomic norms, apply them in other EU countries and guide them. In the face of this dominant role, there is no country in Europe that can stop or resist Germany's rapidly growing growth.

The main priority of German European policy was to restart the process of concluding an agreement to replace the EU constitutional treaty and, accordingly, to overcome the constitutional and structural crisis of the European Union.

Germany supports the integration of other countries into the EU. Among other things, the German-initiated Berlin Process supports step-by-step accession of Serbia and other Western Balkan countries to the EU. Reconciliation between the countries themselves is an important goal of this process.

On the one hand, Germany directs the policy of the Union with the policies it pursues, on the other hand, it acts as the financial leader of the Union with its strong economy and financial structure. This article aims to show Germany's position in the Union, the crises in Europe in recent years and the impact of these crises on Europe, Germany's attitude to these crises, goals and approaches to the future.

***Keywords:*** *Germany, European Union, role of Germany, NATO, Europe*

***Резюме***

***Джалал Халилов***

***Политические отношения между Германией и Европейским Союзом***

Федеративная Республика Германия — мощное государство, занимающее важное место в мире в экономическом и политическом плане в быстро меняющейся структуре мира. С момента своего создания Европейский Союз быстро активизировал свои позиции на этапах интеграции и сегодня ориентирует политику Союза на доминирующее положение.

Это влиятельная сила в политике ЕС на уровне ЕС, поскольку она имеет более сильную экономическую и политическую позицию среди своих государств-членов. Он имеет право использовать макроэкономические нормы, применять их в других странах ЕС и направлять их. Перед лицом этой доминирующей роли нет ни одной страны в Европе, которая могла бы остановить или противостоять быстро растущему росту Германии.

Главным приоритетом германской европейской политики было возобновление процесса заключения соглашения взамен конституционного договора ЕС и, соответственно, преодоление конституционно-структурного кризиса Евросоюза.

Германия поддерживает интеграцию других стран в ЕС. Среди прочего, Берлинский процесс, инициированный Германией, поддерживает поэтапное присоединение Сербии и других стран Западных Балкан к ЕС. Примирение между самими странами является важной целью этого процесса.

С одной стороны, Германия направляет политику Союза проводимой ею политикой, с другой стороны, она выступает в качестве финансового лидера Союза с его сильной экономикой и финансовой структурой. Данная статья призвана показать позицию Германии в Союзе, кризисы в Европе последних лет и влияние этих кризисов на Европу, отношение Германии к этим кризисам, цели и подходы на будущее.

***Ключевые слова:*** *Германия, Европейский Союз, роль Германии, НАТО, Европа*

Redaksiya heyətinin üzvü t.e.d., prof. Qasımlı Musa Cəfər oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# DİNİ (İSLAMİ) TERRORİZM FAKTORU VƏ ONUN ALMAN CƏMİYYƏTİNDƏ DOĞURDUĞU TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

**Vida ABBASZADƏ***

*Məqalə redaksiyaya daxil olmuşdur: 17 mart 2022; çapa qəbul edilmişdir: 19 aprel 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received: 17 th of March, 2021; accepted: 19 th of April , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər:*** *beynəlxalq terrorizm, dini terrorizm, Almaniya, milli təhlükəsizlik, ekstremizm*

## Giriş

Din insan davranışına təsir edə bilən ən güclü qüvvələrdən biridir. Əsrlər boyu dini inanclar qarşıdurma mənbəyi olmuşdur. Xalqların hər biri öz əqidəsini müdafiə edərək bir-birilə şiddətli mübarizə aparırdılar. İnsanlar ölümə gedirdi, lakin dini inanclarını dəyişmirdilər. Bəşəriyyət üçün tarixin ən utandırıcı səhifələri Fransada katoliklər və protestantlar arasında təxminən qırx il davam edən dini müharibələrdir. Yalnız müqəddəs Varfolomey gecəsində (24 avqust 1572-ci ildə) Parisdəki katolik liderlərinin çağırışı ilə 3 mindən çox Huqenot qətlə yetirildi.

Müasir dünyada "ənənəvi", əsasən, siyasi xarakter daşıyan terrorizmin dini müstəviyə doğru meyilləndiyini və dini terrorizmin isə daha təhlükəli hal aldığının şahidi oluruq. Transformasiya prosesinin başlanğıcında doqmanın "əsl saflığını", "mənşələrə" qayıdışını müdafiə edən hərəkat kimi dini fundamentalizm dayanır. Fundamentalizm tərəfdarları guya dini təlimlərin mahiyyətini təhrif edən tarixi qalıqlardan qurtulmağı tələb edirlər. Bu baxımdan onlar pravoslavlar kimi çıxış edirlər. Lakin onlar təkcə bununla kifayətlənmir. Müxtəlif dövrlərdə tərtib edilmiş İncil və ya Quran normalarının şərti uyğunsuzluğuna əsaslanaraq, fundamentalistlər doktrinadan öz seçdikləri variantda istifadə edirlər – zorakılığa bəraət qazandıran, ədalətsiz dünyanı dəyişdirmək və hakimiyyəti bərqərar etmək üçün mövcud liderlərin yenilənməsini çıxış yolu kimi görürlər. Bu fanatizm və ekstremizm şovinizmlə birləşdikdə istər-istəməz cəmiyyətin sabitliyini pozan güclü mənbələrə çevrilir.

## XXI əsrdə terrorizm

Dini cərəyanların radikallaşmasının və ehtimal olunan silahlı terrorizmə çevrilməsinin qarşısının alınması vəzifəsinin aktuallığı son nəticədə sivilizasiyalararası münasibətlərin kəskinləşməsi ilə bağlıdır. Xüsusilə, bu, Qərbin təhrik etdiyi "ərəb baharı" adlanan hadisələr, İraq, Liviya və Suriyadakı hərbi münaqişələr, eləcə də bütün digər Yaxın Şərqdəki "güc mərkəzləri"nin fəallaşması ilə bağlıdır. Şimali Qafqazda və Türkiyədə terror təhlükəsi davam edir, İraq və Əfqanıstanda, ərəb-İsrail "cəbhəsində" də mütəmadi olaraq dini motivli terror aktları baş verir. Dünyada gərginlik və zorakılıq problemi bir sıra ölkələrin sosial-iqtisadi, siyasi, mənəvi sferalarında, millətlərarası münasibətlərdə, o cümlədən fövqəldövlətlərin geosiyasi toqquşmaları nəticəsində daha da mürəkkəbləşir.

İlk dəfə olaraq "dini terrorizm" hər hansı digər dinə mənsub olan günahsız insanlara qarşı zorakılığın spesifik forması kimi "Avropa-2000" Terrorizmlə Mübarizə üzrə Beynəlxalq Konfransda (yanvar 1998, Lion) ümumi "terrorizm" termindən təcrid edilmişdir.

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* vidaabbaszade99@gmail.com

Hesab edilir ki, bu terminin mövcud şərhi düzgündür, lakin o dini terrorizmə xas olan spesifik xüsusiyyətləri tam açıb göstərmir. Birincisi, terrorizmin bu növü digərlərinə nisbətən daha dinamik inkişaf edir. İkincisi, o rasional ideoloji motivlərdən daha çox dindarların (əsasən, psixikası pozulmuşların) şüurunda kök salmışdır. Təsadüfi deyil ki, tanınmış Qərb din alimi Koul Durem "dini motivli terror" haqqında danışarkən vurğulayır ki, din adına terror dinin özündən ən pis sui-istifadələrdən biridir [1, 29-31]. Yaponiyada dini terrorizm faktorlarını araşdıran A.E.Raevski də belə nəticəyə gəlir ki, dini terrorçular ən təhlükəlidir, çünki onlar öz hərəkətlərini cəmiyyət üçün faydalı hesab edirlər və öz düşüncələri naminə hərəkət etdikləri üçün qurbanlarına haqq qazandırırlar [2, 89].

Terrorizm əhalinin qorxudulması və ya qeyri-qanuni zorakılıq hərəkətlərinin digər formaları ilə əlaqələndirilir. Terrorizm (terror) "dəhşət" (bədənə xəsarət yetirmək təhlükəsi qarşısında qorxu, girovların öldürülməsi, kütləvi edamlar) kimi tərcümə olunur. Bu, hakimiyyət orqanlarını, yerli özünüidarəni və ya beynəlxalq təşkilatları terrorçular üçün faydalı qərarlar qəbul etməyə məcbur etmək məqsədi ilə zorla təzyiqin ideologiyası və praktikasıdır.

Ekstremizm və terrorizmi müqayisə etmək üçün onların bir-birindən nə ilə fərqləndiyinə və ortaq cəhətlərinə əsaslanmaq lazımdır. "Ekstremizm" termininin mənşəyi antik dövrlərə gedib çıxır, latın dilində: extremus – ifrat deməkdir. Bu şərhə görə, ekstremizm ifrat baxışlara və tədbirlərə sadiqlikdir. Əgər ekstremist insanlara, əhaliyə birbaşa zərər vurmadan öz etirazını şifahi şəkildə ifadə edirsə, dinc aksiyalarda iştirak edirsə, o cümlədən qanuna zidd olan vərəqələr yapışdırırsa, terrorçu isə artıq silahlı ekstremistdir və konkret şəxsə, şəxslər qrupuna, cəmiyyətə, dövlətə qarşı zorakılıq hərəkətləri həyata keçirir. Bunlar partlayışlar, yandırma, əmlaka ziyan vurma, girov götürmə və digər bu kimi hərəkətlər ola bilər. Göründüyü kimi, onların ortaq cəhəti görülən tədbirlərin müstəsnalığıdır: onlar sərtdir, rədd edilmə, nifrət, zərər vermək və hətta məhv etmək istəyi ilə bağlıdır. Fərq isə ondadır ki, ekstremizm hərəkətlərin nisbətən passiv, zərərsiz olmasıdır; terrorizm isə konkret təhlükəli hərəkətləri nəzərdə tutur. Bir ekstremistin fəaliyyəti kiçik nüanslarla ifadə şəklində məhdudlaşa bilir. Lakin terrorizmin miqyası məişət sahəsi ilə məhdudlaşmır, ictimai səviyyədə, siyasətdə, insanların böyük icmalarına münasibətdə sosial və siyasi əhəmiyyətli qərəzli fəaliyyətlərlə xarakterizə olunur. Ekstremizmdən terrora yalnız bir addım var və müəyyən münbit şərait yarandıqda ifrat hərəkətlərə meyilli insanlar əsl terrorçu olurlar. Radikal fəallar, prinsipcə, heç bir güzəşti, danışıqları, razılaşmaları qəbul etmirlər. Və bunun əksinə olaraq: tolerant, mehriban, mülayim, ünsiyyətcil, xoşməramlı şəxs terror təşkilatına qoşulmayacaqdır.

Dini ekstremizm ictimai şüurun periferik formaları ilə əlaqələndirilir, dövlət tərəfindən "qızışdırıla" bilər, xüsusən də kilsədən ayrılmayan və ya "sözdə" ayrılmış dövlətlər. Ona görə də bu cür şüurun radikallaşması nəinki kortəbii olaraq, dini fanatiklərin şüurunda yarana bilər, həm də milli hakimiyyəti zəiflətmək və ya onu aradan götürmək istəyən xarici dövlətlərin məqsədyönlü dövlət siyasətinin və ya kəşfiyyat xidmətlərinin nəticəsi ola bilər. Bundan əlavə, təşkilatçılar ortaya çıxıb xaricə yönəlmiş dini ekstremist qruplara "peşəkar" təlim və maliyyə dəstəyi ilə bağlı öhdəliklər öz üzərinə götürə bilirlər. Belə olan halda dini ekstremizm milli ərazinin sərhədlərindən kənara çıxaraq regiona, hətta başqa qitəyə də yayıla bilir.

Dini terrorizm hakim dini qüvvənin başqa dinlərin nümayəndələrinə hədsiz dözümsüzlüyündə, bütün digər dinlərin nümayəndələrini amansızcasına sıxışdırmaqda və bu dözümsüzlüyü zorakılığa çevirmək bacarığında, silahlı vasitələrlə cəmiyyət üzərində total nəzarətin təmin edilməsində təzahür edir. O, sırf siyasi məqsədlər üçün, dini qurumların dünyəvi dövlətə qarşı mübarizəsində və terrorçuların gücünü təsdiqləmək üçün istifadə olunur. Nəticə etibarı ilə dini terrorizm eyni zamanda dövlətə, dünya dinlərinə, beynəlxalq hüquqa

münasibətdə qeyri-qanuni fəaliyyət kimi kvalifikasiya edilir və bu səbəbdən milli dövlətlərin, onların dini qurumlarının, habelə beynəlxalq dini təşkilatların və dövlətlərin koalisiyalarının etirazına səbəb olur.

**Dini terrorizm nəticəsində meydana gələn qanlı terror aksiyaları**

Dini terrorizmlə bağlı çoxlu nümunələr var. Bunlardan biri "əsrin sövdələşməsini" - Amerika ssenarisinə görə, iki dövlətin, İsrail və Fələstinin ərazilərinin bölüşdürülməsini qəbul etməyən qrupların İsraildə törətdiyi terror aktlarıdır. 2003-cü ildən etibarən İraqda şiə və sünnilərin qarşılıqlı intiqamı səngimək bilmir. İŞİD-in qanlı aksiyaları, qəddarlığı ilə qandondurucudur. 2001-ci il yanvarın 3-dən 7-dək silsilə qırğınlar (2000-dən çox ölən və itkin düşən olub). Boko Haramın bütün ölkədə şəriətin tətbiqini tələb etdiyi Nigeriyanın Baqa şəhərində Qarisa Universitetində (Keniya) xristianlara qarşı "Harakataş-Şabab" terror aktı. Qahirədə Kopt Katedralinin içərisində partlayış 11 dekabr 2016-cı il, 2018-ci ildə Pensilvaniya ştatının Pittsburq şəhərində Həyat Ağacı sinaqoqunda kütləvi atışma. 1995-ci ildə Tokio metrosunda "Aum Şinrikyo" dini sektasının "Sarin hücumu [8]. Livanın Hizbullah təşkilatı tərəfindən Livanda öz hökumətlərinə və İsrail Dövlətinə qarşı hücumlar.

Dini terrorizm ümumbəşəri humanist dəyərlərin məhvi məqsədini izləyir. Bütün dünya ictimaiyyətini dini terrorçularla mübarizə aparmağa məcbur edən də məhz bu gerçəklikdir. Fanatiklərin ölçü və ya sərhəd anlayışı yoxdur, şəraitdən asılı olmayaraq sona qədər gedirlər. Buna görə də dini ekstremistlərin sosial təhlükəsi məhz ondan ibarətdir ki, onlar fanatikdirlər, yəni öz təlim və inanclarına sadiqdirlər, insan cəmiyyətinin onlar üçün yad formalarını qəbul etmirlər, hər şeyə və onlara bənzəməyən hər kəsə dözümsüzdürlər. Məqsədlərinə çatmaq üçün heç bir fədakarlıqdan çəkinmirlər, ardıcıl qətiyyətləri, iştirakçıların qarşıya qoyulan (adətən yalançı) məqsədlər naminə fədakarlıq göstərə bilmələri və çox böyük və bərpası mümkün olmayan zərərlər yetirmələri ilə seçilirlər. Eyni zamanda, dini terrorizm təkcə açıq deyil, həm də dərin konspirativ xarakter daşıyır, zahirən özünü büruzə vermir. Habelə, elmi və texnoloji tərəqqi insanlar arasında anonim yazışma ünsiyyətinə və qarşılıqlı əlaqələrin qurulmasına kömək edir. Həmfikir insanları tapmaq üçün bu gün küçəyə və ya yaşayış binasının həyətinə çıxmaq lazım deyil. Onlar polisdən gizli təhlükəsiz evlərdə toplanırlar. Bunun üçün fərdi kompüter (müasir mobil telefon) və internetə çıxışın olması kifayətdir. Qlobal şəbəkələr sayəsində virtuallaşdırılmış ekstremist ideyalar sərbəst şəkildə hər evə və ailəyə nüfuz edə bilir. Xüsusi xidmət orqanları həmişə bu sosial xəstəliyin izinə düşə və onun yayılmasının qarşısını almağa müvəffəq ola bilmir.

**Almaniyada dini terrorizm və ekstremizmin təzahürləri**

Almaniyada müsəlman icmasının kiçik bir hissəsinin radikallaşmasının nəzərəçarpacaq dərəcədə artması müşahidə olunur ki, bu da sosial marginallaşmanın və Qərbin müsəlman dünyası üzərində qəbul etdiyi siyasi-ideoloji hegemonluğun birbaşa nəticəsidir. Almaniyada islamçı terrorizm qorxusu yeni kuliminasiya nöqtəsinə çatıb. Amerika Birləşmiş Ştatlarının Alman Marşal Fondu və İtaliyanın Turin şəhərində yerləşən Compagnia di San Paolo tədqiqat mərkəzi tərəfindən bu yaxınlarda aparılan sorğu, terrora qarşı həssaslığın və bununla bağlı narahatçılıq keçirən almanların sayında kəskin artımı sənədləşdirib.

11 Sentyabr hücumlarının mərkəzində Hamburqda yerləşən terror qruplaşmasının aşkar edilməsindən bəri, müsəlman azlıqlarını yenidən islamlaşdırmaq, onların ehtimal olunan "ekstraterritoriallıq" statuslarını dərinləşdirmək və "mədəni əsaslı cinayətlərini" genişləndirmək istəyən islamçı dalğanın Almaniyanı bürüyəcəyi ilə bağlı artan qorxu mövcuddur. Almaniyanın və Avropanın qalan hissəsinin anti-xristian, anti-Qərb "Avrobia" çevrilməsi [6] və "yeni barbarlığın qaranlığının" milli dəyərləri ələ keçirmək təhlükəsi ilə bağlı xəbərdarlıqlar və dağıdıcı passiv və özünə şübhə edən əhalini tabe etmək, siyasi və media

ritorikasında geniş yayılmışdır. Fırıldaqçılıqla yaşayan və almanlıq qalalarına sızmağa müvəffəq olmuş “arzuolunmaz almanların” qorxusu Almaniyanın Müstəqil Lüteranlarından olan bir yepiskopu öz narahatlığını sərt ifadələrlə ifadə etməyə vadar etmişdir: “Qorxuram ki, biz İslamın ilk dövrlərində Şimali Afrikada xristianlığın faciəvi taleyinə bənzər bir vəziyyətə yaxınlaşırıq” [9].

Müsəlmanlara və onların dinlərinə bu cür mənfi münasibət son bir neçə ildə daha da sərt bir şəkil almışdır. əl-Qaidənin Almaniyaya Əfqanıstandakı qüvvələri ilə bağlı təhdidləri və terror təşkilatı əl-Tövhidi dəstəkləməkdə ittiham olunan dörd ərəbin həbsi və bu şəxslərin əl-Qaidə ilə əlaqəsi olduğu güman edilməsi ölkələrində cihadın güclənməsi təhlükəsindən qorxan alman hakimiyyətinin bərk narahatçılığına səbəb olmuşdur. Üç iordaniyalı terrorist – Məhəmməd Əbu Dhees, İsmayıl Şələbi və Əşrəf əl-Daqma və bir əlcəzairli Camel Moustfa Berlin Yəhudi Muzeyi və Düsseldorfdakı yəhudilərə məxsus barda terror aktları planlaşdırmaqda ittiham olunublar.

Terror fəaliyyətlərində İslamı qəbul edənlərin iştirakının əksəriyyət təşkil etməsi çoxlu sayda almanı qorxuya salıb. CDU-nun sədr müavini Volfqanq Bosbax bəyan edib ki, İslamı qəbul etmək radikallaşmaya və son nəticədə terror təşkilatı tərəfindən mənimsənilməyə rəvac verir [10].

Qarşısıalınmış sui-qəsdlər və digər insidentlər açıq şəkildə göstərir ki, ölkəni öz terror missiyalarını planlaşdırmaq üçün baza kimi istifadə edən 11 sentyabr pilotlarından fərqli olaraq, Almaniya artıq “yalnız geri qaçış nöqtəsi deyil, həm də əməliyyat zonasıdır” deyə nazir Wolfgang Schäuble bildirib. Hökumətin 2006-cı il üçün ekstremizmlə bağlı hesabatını təqdim edərkən Schäuble açıq şəkildə qeyd etdi: "Almaniyanın sabitliyi və təhlükəsizliyi üçün ən böyük təhlükə yenə də İslam terrorizmindən qaynaqlanır." Ölkədə terror təhlükəsi səviyyəsi İraqda iştirak edən digər Avropa ölkələrinə nisbətən daha az böhranlı olaraq qalsa da, hüquq-mühafizə orqanları xəbərdarlıq edir ki, cihadçıların nəzərində “Almaniya səlibçi adlanan ABŞ və İsrailin yardımçılarından biri kimi təsnif edilir”. 2005-ci il Konstitusiyanın qorunmasına dair hesabatda xəbərdarlıq edilir ki, Almaniyanın Əfqanıstanda iştirakı, dəniz piyadalarının Somalidə yerləşdirilməsi və iraqlı zabitlərə təlim keçməsi onu “islamçı terrorçuların hərbi xarakterli əməliyyatlarının bir hissəsinə çevirir”. 2020-ci il hesabatında da vəziyyət heç də fərqlilik göstərmir, Almaniyada islamçı terrorizmin yaratdığı təhlükənin yüksək səviyyədə qaldığı bildirilir. Xüsusilə ilin ikinci yarısında Almaniya və Avropada bir neçə hücumun törədilməsindən sonra bu təhlükə dinamik təhlükə vəziyyəti şəklində daha da konkretləşib. Bunun əsas amili müsəlmanlar üçün müqəddəs olan Məhəmməd peyğəmbərin uyğunsuz karikaturalarının nəşri və İslamın tənqidi ilə bağlı hadisələrdir [11].

2020-ci ilin payızında Fransa və Avstriyada törədilən hücumlar, islamçı ekstremizmdən qaynaqlanan hücumların Avropada davam edən təhlükənin ciddi olduğunu vurğulayır. Almaniyada, xüsusən də bu cür hücumlardan ilhamlanan cinayətkarlar tərəfindən oxşar hücumların ola biləcəyi istisna oluna bilməz.

Son bir neçə ildə İŞİD terror təşkilatı Almaniya və Avropada həyata keçirilən hücumlara görə məsuliyyəti daha az öz üzərinə götürür və cinayətkarlar nadir hallarda hər hansı konkret cihadçı qrupa sadiqliklərini açıq şəkildə ifadə edirlər. Eyni zamanda, həm İŞİD, həm də əl-Qaidə, o cümlədən onların regional qolları, can atdıqları qlobal cihadda lider mövqeyə iddia etməkdə davam edirlər. Beləliklə, Almaniya Federativ Respublikası, eləcə də dünya üzrə onun maraqlarını təmsil edən institutları hələ də müxtəlif terror təşkilatlarının və cihadçı ekstremist qrupların birbaşa hədəfləri arasında olmaqda davam edir.

**Alman dövlətinin radikalizmlə mübarizəsi və milli təhlükəsizliyi təmin etmə səyləri**

Alman təhlükəsizlik təşkilatları 2012-ci ildən bəri 1070-dən çox şəxsin İslamçı ekstremist motivlərlə Almaniyandan Suriya və ya İraqa miqrasiya etdiyini göstərən kəşfiyyat məlumatlarına malikdir. Bu şəxslərin təxminən üçdə biri indiyə qədər Almaniyaya qayıdıb. Bir neçə şəxs, əsasən, qadınlar və onların azyaşlı uşaqları – 2020-ci ildə də Almaniyaya qayıdıblar. Suriyanın şimalında və ya İraqda bir çox başqa şəxslər hələ də nəzarətdə və ya həbsdədir. Onların bəzilərinin Almaniyaya qayıtmaq niyyətində olduqlarını göstərən kəşfiyyat məlumatları mövcuddur.

Bununla belə, Almaniya 2005-ci il iyulun 7-də Böyük Britaniyada baş vermiş bənzər terrorizmə qarşı heç bir immunitetə malik olmasa da, Fransada və Avropanın başqa yerlərində terrorizm və ya radikalizmi doğuran ideologiyaların hamısının hələ də aşkar edilmədiyi bir faktdır. İndiyədək tutulan bir neçə terror şübhəlisi ərəbəsilli və ya islamı qəbul etmiş almanlardır. Həmçinin Almaniyadakı müsəlmanların əksəriyyətinin mənşəyi Fransa, İngiltərə, İspaniya və bəzi digər Avropa ölkələrindəki müsəlmanlardan əhəmiyyətli dərəcədə fərqlənir. Fransada müsəlmanlar, əsasən, Şimali Afrikadan, xüsusən də radikalizmin mənbəyi hesab edilən Əlcəzairdən gəlirlərsə, Almaniyadakı müsəlmanlar əsasən dünyəvi ölkə olan, ərəb və müsəlman dünyasının azsaylı müasir və demokratik ölkələrindən biri olan Türkiyədən gəlirlər [4, 4-5].

Almaniyada fundamentalizm dalğasının yüksəlməsi ilə bağlı inanc yoxsul, aşağı təhsilli, cinayətkar və radikal islamçılar tərəfindən şirnikləndirilən gənc, özgələşmiş müsəlmanlara qarşı daha çox qorxu və paranoya yaradır. Bildiyimiz kimi, müsəlmanların əksəriyyəti, xüsusən də türk əsillilər Fransa, İngiltərə, İspaniya və digər Avropa ölkələrinə nüfuz etmiş sistem əleyhinə ideologiyaları qəbul etməyə indiyə qədər müqavimət göstərmişlər. Amma türklərin əksəriyyətinin dövlətin ayrı-seçkilik siyasətinə və ya geniş yayılmış islamofobiyaya etiraz vasitəsi kimi zorakılıqdan istifadəsini tamamilə istisna etmək olmaz. Fransa nümunəsinin bizə öyrətdiyi kimi, siyasi cəhətdən zəif təmsil olunan və müsəlmanların institusional məkandan qopması qatı siyasi islamçılıq baxışlarının tərəfdarlarının artmasına və zorakı cihadçılar tərəfindən sui-istifadə edilə bilən təhlükəli boşluq və təşkilati vakuum vəziyyəti yarada bilər. Terror aktında əli olan iki türkün həbsi və türk cihad ədəbiyyatının artması alman türk birliyi daxilində radikallaşma potensialının artmasının xəbərçisi ola bilər.

İslamın və islamçılığın şeytanlaşdırılması yalnız müsəlman icmaları ilə Almaniya vətəndaşları arasında etimadsızlıq səviyyəsini artırır. Bir sıra sorğular göstərib ki, almanların xeyli hissəsi müsəlmanlarla bağlı hər hansı hər hansı şeydən və müsəlmanların məskunlaşdığı bölgələrdə yaşamaqdan narahatçılıq hissi keçirdiklərini etiraf edirlər. İnsanların qorxu və narahatlıqlarını aradan qaldırmaq üçün Almaniyanın Baden-Vürtemberq əyaləti 2006-cı ildə müsəlmanların alman prinsiplərini bölüşdüklərindən əmin olmaq üçün yeni vətəndaşlıq testi tətbiq etdi. Testin ironikliyi isə ondadır ki, hətta bir çox alman bu testi keçmək iqtidarında deyil. Nəzərə alsaq ki, Almaniyada çoxlu sayda müsəlmanlar çox yaxın vaxtlara qədər asanlıqla vətəndaşlıq əldə etməkdən məhrum ediliblər, onların Almaniyada mövcudluğu hətta ən vətənpərvər almanların belə bilmədiyi və ya razılaşa bilməyəcəyi xüsusi inancların və dəyərlərə sadiqliyin qəbulu ilə şərtlənir. Müsəlmanların Almaniyanın "əsas prinsip və dəyərlərinə" sədaqətini vurğulamaq hər bir ölkənin hüququdur, lakin əxlaqi dilemmalarla ideoloji uyğunluq tələblərini (həqiqətən bizimləsiniz, yoxsa bizə qarşısınız?) anlamaq və hətta "inanc və vicdan azadlığını, dini və ya ideoloji etiqad azadlığını" müdafiə edən alman konstitusiyasına ziddir. İnteqrasiyadan daha çox mütləq assimilyasiyaya bənzəyən bu cür ideoloji vahidliyi qəbul etməkdən imtina etmək "günahı"nın cəzası olaraq naturalizasiya və əcnəbilər qanunu vasitəsilə potensial təcridetmədir.

Mədəni homogenliyə çağırışlar və müsəlmanların Almaniyada qəbul edilməsini məcburi assimilyasiya ilə əlaqələndirmək iqtisadi, sosial və təhsildə marginallaşma ilə bağlı daha vacib və aktual məsələləri kölgədə qoyub. Almaniyanın üç pilləli təhsil sistemi də bu baxımdan tənqid obyektinə çevrilib. Məsələn, İnsan Hüquqları Komissiyasının təhsil məsələləri üzrə xüsusi məruzəçisi Vernor Munoz Villalobosun bildirdiyi kimi, sözügedən sistem "sosial bərabərsizlikləri" təşviq edir və immiqrant uşaqları "üçüncü dərəcəli, çıxılmaz vəziyyətə salır" [7].

Almaniyanın terrorla mübarizə strategiyası aydın fərqlər olmasına baxmayaraq, ABŞ-ın strategiyası ilə bir sıra oxşar elementləri bölüşür. Əsas elementlərə aşağıdakılar daxildir:

- Terrorçuların və onların tərəfdarlarının müəyyən edilməsi, onların ədalət qarşısında məsuliyyətə cəlb edilməsi, ölkənin daxildə və xaricdə onlara məxsus infrastrukturların dağıdılması.
- Məğlubiyyət təhlükəsi ilə üzləşən ölkələrə yardım etmək.
- Terrorizmin sosial, iqtisadi və mədəni kökləri ilə mübarizə aparmaq.
- Kütləvi qırğın silahlarının yayılmasının dayandırılması.
- Birləşmiş Millətlər Təşkilatı vasitəsilə istənilən hərbi əməliyyat üçün çoxtərəfli qanuniləşdirmə axtarışı [5, 6].

**Nəticə**

Almaniya terrorizmlə mübarizə səylərində bütün daxili və beynəlxalq fəaliyyətlərinin ölkənin öz qanunlarına, dəyərlərinə və nasist dövründən çıxarılan tarixi dərslərə uyğun olmasını təmin etmək zərurətini vurğulamışdır. AFR Almaniyada yaşayan bütün şəxslərin, o cümlədən qeyri-vətəndaşların vətəndaş hüquq və azadlıqlarının qorunmasına yüksək üstünlük verir. Almanlar vurğulayırlar ki, vətəndaş hüquqlarına uzun müddətdir verilən bu önəm bu gün terrorçularla mübarizə aparmaq üçün siyasi iradənin olmaması kimi qəbul edilməməlidir [3, 40-42]. Bununla belə, bəzi müşahidəçilərin qənaətlərinə görə, Almaniyanın vətəndaş hüquqlarının tələblərinə münasibəti terrorda şübhəli bilinən mühüm şəxslərin tutulmasına və mühakimə olunmasına mane ola bilər.

Almaniya beynəlxalq əməliyyatlara qoşun yeritsə də, alman rəsmiləri hərbi gücün terrorizmlə mübarizədə əsas alət ola biləcəyinə inanmır və qlobal terrorizmə beynəlxalq reaksiyanı təsvir etmək üçün "müharibə" ifadəsini belə istifadə etməyi sevmirlər. Almaniya diplomatiya, inkişafa yardım və terrorizmə səbəb ola biləcək problemlərin həlli kimi "yumşaq güc" alətlərini vurğulamağa meyillidir. xarici işlər naziri Yoşka Fişerin dediyinə görə, "Modernləşməyə dəstək vermək, şiddətli regional münaqişələrin həlli, dağılmış strukturların bərpası ordu, polis və məxfi xidmətlərin fəaliyyətləri ilə eyni dərəcədə mühümdür". Kansler Şröder "beynəlxalq siyasətin əsas vəzifəsinin müharibələrin qarşısını almaq olduğunu" və Almaniyanın rəhbər prinsip kimi beynəlxalq mübahisələrin sülh yolu ilə həllinə çalışdığını bildirib. Bununla belə, bəzi tənqidçilər Almaniyanın gücdən istifadəyə qarşı mövqeyini qeyri-real hesab edirlər, xüsusən də İslami terror qrupları və "quldur" dövlətlərlə qarşılaşdıqda [5,7].

Problemin mürəkkəb və çoxşaxəli olması onun həllinin də asan, qısamüddətli olmamasından xəbər verir. Bu yöndə Aİ-də, o cümlədən Almaniya Federativ Respublikasında aparılan kompleks tədbirlər, təkcə milli təhlükəsizliyin təmin edilməsinə yox, həm də ümumilikdə cəmiyyətin bütün sferalarında sabitlik və rifahın təmin edilməsinə yönəlmişdir.

## ƏDƏBİYYAT


1. Миронова О.А. Религиозный и этно-религиозный терроризм как один из видов современных угроз национальной безопасности государства // Общество: политика, экономика, право. 2015. №4, с. 29-31
2. Раевский А.Е. Социально-психологические факторы религиозного терроризма в Японии, Москва, 2015, 188 с.
3. European Counterterrorist Efforts: Political Will and Diverse Responses in the First Year After September 11, 2002, 116 p.
4. "Islam and Identity in Germany" Europe Report N°181 – 14 March 2007, 37 pp.
5. Germany's Role in Fighting Terrorism: Implications for U.S. Policy, 2004, 23 pp.
6. Ye'or, Bat: Eurabia: The Euro-Arab Axis Madison, NJ: Fairleigh Dickinson, 2005, 384 pp.
7. David G.S. Germany's School System Is an Anachronism, 2007, https://www.spiegel.de/international/germany/the-world-from-berlin-germany-s-school-system-is-an-anachronism-a-473337.html
8. https://tr.sputniknews.com/20180706/japonyada-sarin-gazi-saldirisindan-yirmiuc-yil-sonra-tarikat-liderine-idam-1034166832.html
9. https://www.usnews.com/news/religion/articles/2008/04/07/across-europe-a-new-culture-clash
10. https://www.spiegel.de/international/germany/claiming-responsibility-for-terror-islamic-jihad-union-threatens-attacks-outside-germany-a-505265.html
11. https://www.verfassungsschutz.de/SharedDocs/publikationen/DE/verfassungsschutzberichte/2021-06-brief-summary-2020-report-on-the-protection-of-the-constitution.pdf?_blob=publicationFile&v=11 /2020 Annual Report on the Protection of the Constitution


***Summary***

***Vida Abbaszade***

***The Factor of Religious (Islamic) Terrorism and the Security Problems Caused by it in German Society***


The article assesses the problems created by religious terrorism and extremism, which have become a global problem for all countries of the world, including the Federal Republic of Germany, through the prism of threats to national security. And It highlights the measures taken to address the issue. Also, the concepts of religious terrorism and extremism were interpreted, and their essence was explained.

Criminal groups that use terrorism and extremism as a tool to achieve their goals are indiscriminately cruel to innocent civilians and try to force states to comply with their demands by creating fear and chaos in society. In the globalized world, in parallel with progress in various spheres of life (technological, social, economic, etc.), the scale of the damage caused by terrorism has also increased. In modern times, the target of terrorism is not only poorly developed countries, but it is also able to cause significant damage to the social structure of highly developed countries. We witnessed this on September 11, 2001, during the terrorist attacks in the United States and later in developed Western European countries such as Germany, Britain, and France.

The linking of Islam to terrorism, as well as the view of all Muslims as potential terrorists, has intensified polarization in society, as well as increased fear and mistrust, hatred and discrimination against Muslims among the local population. As a result, the number of right-wing supporters in government is growing, and religion is being used as a manipulative tool to govern society. In this regard, the influence of organizations representing religious terrorism on the national security of states has been determined. The article's main topic is the experience of terrorism acquired by the Federal Republic of Germany in the historical process, as well as the anti-terrorist strategies and specific anti-terrorist policies formed in this context. Following 9/11, Germany implemented several legislative and organizational reforms to protect the country from potential terrorists.


***Keywords:*** *international terrorism, religious terrorism, Germany, national security, extremism*

***Резюме***

***Вида Аббасзаде***

***Фактор религиозного (исламского) терроризма и вызванные им проблемы безопасности в немецком обществе***

В статье оцениваются проблемы, создаваемые религиозным терроризмом и экстремизмом, ставшие глобальной проблемой, для всех стран мира, в том числе и для ФРГ через призму угроз национальной безопасности, и освещаются меры, принимаемые для решения проблемы. Также даны толкования понятий религиозного терроризма и экстремизма и разъяснена их сущность.

Преступные группировки, использующие терроризм и экстремизм как инструмент для достижения своих целей, проявляют неизбирательную жестокость к невинным гражданским лицам и пытаются заставить государства выполнять их требования, создавая страх и хаос в обществе. В глобализированном мире, параллельно с прогрессом в различных сферах жизни (технологической, социальной, экономической и т.д.), увеличился и масштаб ущерба, наносимого терроризмом. В наше время целью терроризма являются не только слаборазвитые страны, но он также способен нанести большой ущерб социальной структуре высокоразвитых стран. Мы стали свидетелями этого 11 сентября 2001 года во время террористических атак в США, а затем и в развитых странах Западной Европы, таких как Германия, Великобритания и Франция.

Ассоциация ислама с терроризмом, а также взгляд на всех мусульман как на потенциальных террористов усилили поляризацию в обществе, а также усилили страх и недоверие, ненависть и дискриминацию в отношении мусульман среди местного населения. В результате число сторонников правых в правительстве растет, а религия используется как манипулятивный инструмент для управления обществом. В связи с этим был определен уровень влияния организаций, представляющих религиозный терроризм, на национальную безопасность государств. Основная тема статьи - опыт терроризма, приобретенный Федеративной Республикой Германия в историческом процессе, а также сформированные в этом контексте антитеррористические стратегии и конкретная антитеррористическая политика. После 11 сентября 2001 года Германия провела ряд законодательных и организационных реформ, направленных на защиту страны от потенциальных террористов.

***Ключевые слова:*** *международный терроризм, религиозный терроризм, Германия, национальная безопасность, экстремизм*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 94 (479.24)**

# APREL ÇEVRİLİŞİNDƏN SONRA AZƏRBAYCAN SSR-İRAN SİYASİ MÜNASİBƏTLƏRİ (APREL-DEKABR 1920)

**Sevinc MƏMMƏDOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 16 mart 2022; çapa qəbul edilmişdir: 20 aprel 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received: 16 th of March, 2021; accepted: 20 th of April, 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər:*** *Azərbaycan SSR, İran, XI Qırmızı Ordu, aprel çevrilişi, siyasi münasibətlər*

## Giriş

Azərbaycan və İran arasında münasibətlər öz mürəkkəbliyi və ziddiyyətliliyi ilə Azərbaycanın beynəlxalq münasibətlər tarixinin mühüm problemlərindən biridir. Tarixən bu münasibətlərin inkişafı yalnız Azərbaycan və İran ərazisində mövcud olan dövlət qurumlarının özlərinin deyil, qonşu dövlətlərində mövqeləri ilə şərtlənmişdi. Hələ XVIII əsrdən etibarən İran-Azərbaycan münasibətlərində özünü göstərməyə başlayan Rusiya faktoru XIX əsrdən önə çıxmış və sonda Azərbaycanın bu dövlətlər arasında ikiyə bölünməsi ilə nəticələnmişdi.

Azərbaycan, İran, Rusiya arasında münasibətlərin xarakteri onların hər birinin ərazisində yaranan dövlət qurumlarının xarici siyasət kursundan asılı olaraq dəyişirdi. Bunun təzahürü idi ki, üzün müddət AXC-ni tanımaqdan çəkinən Şah hakimiyyəti kifayət qədər tez bir zamanda Azərbaycan Sovet Respublikasını tanımağa qərar vermişdi. Aprel çevrilişindən sonra ilk aylarda baş verən siyasi hadisələr İranın mövqeyini izah etməyə və eyni zamanda Azərbaycan SSR-nin İranla bağlı siyasətini müəyyənləşdirməyə imkan verir.

Sözsüz ki, Aprel çevrilişindən əvvəl hadisələrin hansı istiqamətə yönələcəyi İran hakimiyyəti üçün bəlli idi. Bu dövrdə Denikinin məğlubiyyəti şimal sərhədində bolşeviklərin irəliləməsinə yol açır və İranı da yeni siyasi reallıqla üz-üzə qoyurdu. 1920-ci ilin əvvəllərində məğlubiyyətlərlə üzləşərək Ənzəli sahillərinə sıxılan Denikin donanması bolşeviklərin hədəfində idi. Digər tərəfdən isə, 1918-ci ildən İranın Xəzər dənizi sahilində yerləşən mühüm bölgəsi – Gilan vilayəti tamamilə ingilislərin əlində idi. Bu da öz növbəsində Gilanda Mirzə Kiçik xanın rəhbərliyi altında Cəngəlilər hərəkatının daha da vüsət almasına və bolşeviklərin burada fəaliyyətinə imkan yaradırdı. Bütün bunlar şah hakimiyyətini narahat etməyə bilməzdi və İran diplomatları regionda baş verən siyasi dəyişiklikləri daima nəzarətdə saxlayırdılar.

## I. Aprel çevrilişindən sonra Şimali Azərbaycanda siyasi vəziyyət

1920-ci il aprelin 10-da İranın Tiflisdəki baş konsulu Müəzzəzüd-dövlə İran XİN-nə Denikin qoşununun Qırmızı Ordu ilə döyüşdə tab gətirə bilməməsini, bolşevik ordusunun işğalı davam etdirmək üçün artıq cənuba doğru irəliləməsini və bu hadisələrin bütün Cənubi Qafqaz üçün fövqəladə təhlükəli vəziyyət yaratdığını özündə əks etdirən raport göndərmişdi [11, s. 278].

* *dissertant, AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*e-mail:* sevinc.mammedova81@gmail.com

Çevriliş baş verən ərəfədə İran nümayəndəsi Seyid ZiyaəddinTəbatəbai Azərbaycanda idi və AXC hökuməti ilə davam edən 5 aylıq danışıqlardan sonra heyət Gürcüstan və Ermənistana səfər etməli idi. Lakin Z.Təbatəbai Tehrandan Tiflis səfərinin təxirə salınması və yubanmadan geriyə qayıtması barədə teleqram aldı və aprel ayının 18-də heyətin əsas hissəsini Bakıda qoyub, iki nəfərlə bərabər İrana yola düşməli oldu. Eyni zamanda o bu barədə əvvəlcədən teleqrafla hökuməti də məlumatlandıraraq Cənubi Qafqazda vəziyyətin qəfil dəyişdiyindən baş verənləri ətraflı və dəqiq şərh etmək üçün İrana qayıtdığını bildirdi [16, s. 279]. Ənzəlidə olarkən Z.Təbatəbainin baş nazir Vüsuqüd-dövlədən aldığı teleqrafda da Tehranla təcili əlaqə saxlamaq və baş verənləri şahla şəxsi görüşdə müzakirə edilməsi məsləhət görülürdü [16, s. 280].

Azərbaycanda baş verən siyasi hadisələr haqqında Tehrana ilk məlumatı Aprel işğalından beş gün sonra Astarada dəftərxana işçisi olan Fəridüs-səltənə göndərmişdi. Məlumatda müstəqil Azərbaycan hökuməti bolşevik hökumətinə çevrildiyi, vəziyyət yaxşı olmadığı və gəmilərin gəlmədiyi, teleqraf rabitəsi qadağan olunduğu qeyd olunurdu.

Adi vaxtlarda belə düzgün işləməyən rabitə xətlərinin mövcud şəraitdə tamamilə kəsilməsi İranda buradakı vəziyyət barədə dəqiq məlumatların vaxtında əldə edilməsinə mane olurdu. Həmçinin bu zaman Azərbaycanla sərhəddə də böyük çətinliklər yaranmışdı. Yeni hakimiyyətlə münasibətlərin necə olacağı hələ qeyri-müəyyən olduğundan İran hökumətinin həll etməli olduğu əsas problemlərindən biri buradakı diplomatik nümayəndələrinin taleyi idi və Azərbaycan SSR ilə ilk ünsiyyətin predmeti də bu məsələ olmuşdu.

Z.Təbatabai ilə yanaşı İranın Bakıdakı konsulu Məhəmməd Saidülvüzəra isə ailəsini gətirmək üçün Gürcüstana – Suxumiyə getmişdi. Saidülvüzəranın Bakıya qayıtması üçün İran hökuməti mayın 12-də Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığına (Azərbaycan SSR XXİK) məktub yolladı [7, v. 31]. Lakin Qafqaza ezam edilmiş komissiyanın mövcud vəziyyətdə necə hərəkət etməsini müəyyənləşdırmək lazım idi. Buna görə də həmin komissiyanın böyük müşaviri Tiflisə İran konsulluğuna teleqram vuraraq təlimat istəmişdi [1, s. 307]. Konsul isə öz növbəsində müvafiq təlimatlar almaq üçün mayın 11-də İran XİN-nə müraciət ünvanlamışdı [1, s. 308]. Müraciətdə həmçinin Tiflisdə qalan iranlılar barədə məlumat verilirdi. Məsələ burasında idi ki, həmin dövrdə bir qrup iranlı da Türkiyə və başqa yerlərdən vətənlərinə dönmək məqsədilə Bakıya gəlmək istəyirdilər, lakin Bakıya yol bağlı olduğundan Tiflisdə qalmışdılar. Azərbaycan sərhədi daha əlverişli hesab edildiyindən hər zaman bu yol əhəmiyyətli idi. Konsulun teleqramından aydın olur ki, İran XİN lazımı təlimatlar verməyi gecikdirdiyindən o hansı zəruri addımların atılmasını müəyyən edə bilmirdi.

İran hakimiyyəti ilk günlərdə hadisələrdən dəqiq və birbaşa məlumat əldə edə bilməsə də, artıq may ayının ortalarından vəziyyət dəyişməyə başladı. İran öz siyasi mövqeyini aydın şəkildə nümayiş etdirməli oldu ki, bu da artıq İran dövlətinin öz ərazisində baş verən hadisələrlə bağlı idi.

1920-ci ilin mayın 14-də İran hökuməti bolşeviklərin özünün şimal sərhədinə qədər gəlib çıxmasından narahat olaraq Sovet Rusiyasına tələsik nota göndərdi və Azərbaycan SSR-i müstəqil dövlət kimi tanıdığını bildirdi. Notada İran tərəfinin gələcək münasibətlərin perspektivinə baxışı öz əksini tapmışdı.

1920-ci il mayın 20-də İran hökuməti RSFSR Xalq Xarici İşlər Komissarlığına ünvanladığı digər bir notada hökumətin hərbi attaşesi, kapitan Nazim xanı Azərbaycan Astarasında İranın fövqəladə nümayəndəsi kimi fəaliyyət göstərməsinə icazə istəmişdi. Notada Nazim xan diplomatik fəaliyyəti zamanı İranla bağlı məlumatların məxfiliyinə nəzarət edəcəyinə təminat verilir və [14, s. 538] Moskva ilə yanaşı Bakıya da səlahiyyətli nümayəndə göndərmək təklif edilirdi. RSFSR XXİN elə həmin gün İrana cavab notası göndərərək Sovet Rusiyası və İran hökuməti arasında diplomatik münasibətlərin qurulmasında maraqlı

olduğunu bildirdi. Rusiya tərəfi eyni zamanda Aprel çevrilişindən sonra bağlanmış sərhədlərin açılacağına və poçt rabitə sisteminin tezliklə bərpa ediləcəyini vəd edirdi [14, s. 535]. Həmçinin Rusiya xarici işlər komissarı G.Çiçerin İran hökumətinin səlahiyyətli nümayəndə göndərmək təklifini məqbul hesab etməklə razılığını bildirirdi.

**II. Azərbaycan SSR-İran siyasi münasibətlərində "Gilan əməliyyatı"**

Əslində Azərbaycan SSR-İran arasında normal münasibətlərin qurulması üçün ciddi maneələr meydana çıxmışdı. Belə ki, mayın 18-də Sovet Rusiyası Ənzəliyə hərbi qüvvə çıx artmış və bununla da bolşeviklərin Gilana yürüşü başlamışdı. Demək olar ki, qısa müddətdə İranın Xəzər sahilləri bolşeviklərin nəzarətinə keçmişdi. Bolşeviklərlə əməkdaşlığa başlayan Mirzə Kiçik xan iyunun 4-də ingilisləri Rəştdən tamamilə qovub çıxararaq öz rəhbərliyi altında Sovet Respublikasının yaradıldığını elan etmişdi. Doğrudur, Sovet Rusiyası hadisələrdəki iştirakını müxtəlif bəhanələrlə gizlətməyə çalışırdı və Gilana yeridilən qüvvələrin Azərbaycan SSR bayrağı altında olması da onların rolunun kənarda qalmağına xidmət edirdi. Lakin İran tərəfi hadisələrdə Sovet Rusiyasının rolunu aydın başa düşürdü. Həmin vaxt Sovet Azərbaycanın adından İrana ordu göndərilməsi Sovet Rusiyasını Qərb dövlətlərinin diplomatik təzyiqlərindən də qorumuş olurdu.

Qeyd etmək lazımdır ki, sosialist inqilabının dünyaya yayılması ideyasını öz hədəfində saxlayan Sovet Rusiyası Şərqi Qərbi Avropa imperializminin (başlıca olaraq İngiltərənin) təsir dairəsindən çıxarmaqla orada inqilabı şəraitin yetişməsini sürətləndirməkdə maraqlı idi. Lakin hələ zəif mövqeləri olan Sovet Rusiyası rəhbərliyində bu məqsədin reallaşdırılmasının mümkünlüyü ilə bağlı tərəddüdlər yaranmışdı. Azərbaycan SSR rəhbərliyinə gəldikdə isə, hesab edilir ki, Sovet Azərbaycanı və onun yeni lideri N. Nərimanov siyasi baxımdan sosialist inqilabının İran və Türkiyəyə yayılmasında müstəsna maraqlı idi [10, s. 79]. Yeni yaranmış Sovet Azərbaycanının xarici işlər siyasətinin necə qurulması məsələsi ortaya çıxdıqda irəli sürülən təkliflərdə AXC XİN-də yaradılmış Avropa bölmələrinin ləğv edilib onların əvəzində Şərq bölmələrinin yaradılması qeyd edilmişdi [12, s. 34].

Məhz bu amillər də İrana dair siyasətdə Sovet Rusiyası və Azərbaycan SSR rəhbərliyi arasında ziddiyyətləri izah edir. Bir sıra tədqiqatçıların qənaətinə görə isə İranın sovetləşməsi gələcəkdə İran Azərbaycanın Sovet Azərbaycanına birləşdirilməsinə şərait yarada bilərdi [10, s. 89; 15, s. 110]

Sovet Rusiyası və Azərbaycan SSR-nin rəhbərliyində İrana münasibətdə mövqe fərqləri N.Nərimanov və RSFSR xarici işlər komissari G.Çiçerini qarşı-qarşıya qoymuşdu. Şərqdə inqilabın inkişafında maraqlı olan Nərimanovun İranda inqilab işlərini öz nəzarətində saxlamaq niyyəti Moskvanın tərəddüdləri ilə uzlaşmırdı.

Hələ ki, formal olaraq müstəqil dövlət olan Azərbaycan SSR rəhbərliyi İranla bağlı bəzi müstəqil qərarlar vermişdi. Belə ki, iyulun əvvəlində Moskvanın razılığını almadan Azərbaycan K(b)P MK rəhbərliyi altında İran Bürosu yaradılmışdı [10, s. 89]. Bundan sonra Gilan inqilabına kommunist xarakteri vermək cəhdləri daha da güclənmişdi [10, s. 90]. Başqa sözlə, Azərbaycan İranda inqilabi hərəkatın sürətlənməsində maraqlı idi. Lakin digər tərəfdən formal olaraq Azərbaycan SSR müstəqil dövlət olduğuna görə İran bu qonşusu ilə ayrıca olaraq münasibətlər yaratmalı idi. Ən əsası isə, İrana Azərbaycan SSR-in hərbi qüvvələrinin yeridildiyini və məhz Qafqaz bolşeviklərinin Gilanda Mirzə Kiçik xana kömək edərək milli-azadlıq hərəkatını alovlandırdığını nəzərə alan İran hökuməti yaranan problemləri həll etmək üçün ilk növbədə Azərbaycan SSR ilə diplomatik danışıqlar yolunu məqsədəuyğun hesab edirdi. Eyni zamanda Aprel işğalından sonra sərhəddə əvvəlki qayda-qanunun yaradılması, qiyamçı qrupların zərərsizləşdirilməsi, poçt-rabitə sisteminin qaydaya salınması və s. problemlər İranla Azərbaycan SSR arasında müzakirə olunacaq vacib

məsələlərdən idi və bu sahələrdə çətinlikləri yaranması dövlətlər arasında münasibətlərin yaradılmasını tezləşdirməyi zəruri edirdi.

Ənzəli əməliyyatı və Gilan hərəkatının təsirindən ölkəni bürüyən dərin siyasi böhran nəticəsində ingilispərəst Vüsuqüd-dövlə hökuməti iyunun 25-də istefaya getməsi diplomatik münasibətlərin yaranmasına müsbət təsir edirdi. Belə ki, Müşirüd-dövlənin başçılığı ilə təşkil olunmuş yeni hökumət kabineti İranın xarici siyasətində əhəmiyyətli dərəcədə dəyişikliyə nail ola bilmişdi. O, Gilan hadisələrinin həllini Rusiya ilə münasibətlərin normallaşmasında və diplomatik danışıqların aparılmasında görürdü. Bu həm də Sovet Azərbaycanı ilə də münasibətlərin inkişafına imkan verə bilərdi.

### III. Azərbaycan SSR-İran arasında diplomatik münasibətlər

1920-ci il iyunun 24-də Azərbaycanın İrandakı səlahiyyətli nümayəndəsi Əbülbaği Məmmədzadənin Azərbaycan SSR XİK-ə məlumatında Ənzəlidə vitse-konsulluğun, Rəşt şəhərində isə səlahiyyətli nümayəndəliyin dəftərxanası yaradılmasının zəruriliyi bildirilirdi [9, v. 1]. Ənzəli baş konsulu vəzifəsini AXC dövründən bu vəzifədə çalışan Məmmədhəsən Məlikov icra edirdi.

Azərbaycan İnqilab Komitəsinin İrandakı səlahiyyətli nümayəndəsinin müavini Şeyxəli Hüseynovun iyulun 14-də Azərbaycan XİK-na məlumatından da aydın olur ki, Azərbaycandan İrana göndərilən şəxslərdən nümayəndəliyin xəbəri olmurdu və lazımı informasiyaları almaq qeyri-mümkün idi [9, v. 4].

Qeyd edilənlərə rağmən tərəflər arasında rəsmi diplomatik münasibətlərin yaranması prosesi siyasi proseslərin təsiri ilə bir müddət ləng gedirdi. Yalnız İran öz ərazisində bolşeviklərə qarşı ciddi tədbirlər keçirməyə nail olduqdan sonra diplomatik əlaqələrin də qurulması sürətləndi. Belə ki, Şah hökuməti avqustun 21-də Qəzvin istiqamətindən Gilana hücum edərək Rəşti tutmağa nail olur. 20 günlük tam hakimiyyətdən sonra Sovet Rusiyasına arxalanan İran kommunistləri ağır məğlubiyyətə uğrayırlar. Bu isə bolşeviklərin Gilan avantürasının I mərhələsinin uğursuzluğu demək idi. Bundan sonra avqustun 27-də İran XİN Azərbaycana diplomatik münasibətlərin qurulması ilə bağlı nota göndərdi [6, v. 3]. Azərbaycan tərəfi də öz növbəsində avqustun 31-də bu notaya razılıqla cavab verdi [6, v. 4]. Beləliklə, hər iki tərəf arasında nümayəndəlik səviyyəsində diplomatik münasibətlər yaranmağa başladı.

Mövcud vəziyyətdə bir müddət AXC-nin İrandakı nümayəndələri yeni hakimiyyətin burada təmsilçiləri kimi fəaliyyət göstərdilər. AXC-nın İranda səfiri olan A.Ziyadxanov 1921-ci ilin noyabrında Azərbaycanın İrandakı nümayəndəliyi ləğv edilənə kimi Azərbaycan SSR hökuməti adından siyasi fəaliyyətini davam etdirmişdi. Lakin Aprel çevrilişindən sonra yeni hakimiyyət tərəfindən vəsait ayrılmadığından səfirlik böyük çətinliklərlə üzləşmişdi.

### IV. Azərbaycan SSR-İran arasında iqtisadi-sosial məsələlərin həlli

Dövlətlər arasında həll edilməli olan mühüm məsələlərdən biri Azərbaycanda yaşayan İran təbəələrinin vəziyyəti məsələsi idi. Qeyd edildiyi kimi, Azərbaycanda sovet hakimiyyəti qurulduğu ilk gündən İranla sərhəddə böyük gərginlik yaşanırdı. Azərbaycan Xalq Təsərrüfatı Şurasının İnqilab Komitəsinə və İranla sərhəddə yerləşən gömrükxanalarına 1920-ci il 26 may tarixində göndərdiyi 633 saylı təcili məktubunda İran tacirlərinə məxsus malların saxta sənədlərlə gömrük anbarlarından çıxarılmasının qarşısının alınması və gömrükdən malların buraxılışına nəzarətin gücləndirilməsi tələb olunurdu. Bu dövrdə Şimali Azərbaycanın İranla arasındakı sərhəd xəttində iki gömrük məntəqəsi var idi. Biri şərqi Azərbaycan ostanı ilə Culfa məntəqəsi, digəri Gilan ostanı ilə həmsərhəd olan Astara keçid məntəqəsi idi [17, s. 64]

Dörd gün sonra isə Xalq Təsərrüfat Şurası bundan sonra Xalq Maliyyə Komissarlığının xüsusi göstərişi olmadan İrana mal ixracına icazə verilməsini dayandırılması və Ərzaq Komissarlığı tərəfindən verilən icazələrə baxılmaq üçün İnqilab Komitəsinə göndərilməsi barədə müvafiq qərar qəbul etmişdi [8, v. 8-12]. Ümumiyyətlə, Azərbaycan SSR-İranın iqtisadi sahədə əməkdaşlığı bütünlüklə RSFSR-dən asılı idi və Azərbaycan SSR-in xarici ticarətinə də bu aid idi. Belə ki, RSFSR Xalq Xarici Ticarət Komissarlığı "Azərbaycan SSR-in xarici ticarəti haqqında" məsələnin müzakirə edərək Azərbaycanın qonşu dövlətlərlə ticarət münasibətlərinin RSFSR-in xarici ticarət siyasətinə uyğun olması, bu səbəbdən də, İran hökuməti ilə ticarət mallarının siyahısının RSFSR XXTK-na təqdim edilməsi barədə qərar vermişdi. Azərbaycanla-İran arasında teleqraf rabitəsi oktyabr ayında, Bakı və Tehran arasında isə birbaşa teleqraf rabitəsi dekabr ayında bərpa edilmişdi.

Hər iki tərəf arasında baş verən narazılıqları aradan qaldırmaq üçün İranın Bakıdakı konsulu həlli vacib olan məsələləri 1920-ci il iyulun 11-də Azərbaycan hökuməti qarşısında qaldırmışdı. Bunlar İran vətəndaşlarına qarşı olan yad münasibət, əmlaklarının və qiymətli əşyalarının müsadirə edilməsi, İran tacirlərinin fəaliyyətinə maneçilik törədilməsi, dükanların möhürlənməsi, İran təbəələrinin Azərbaycan bolşevik hökuməti tərəfindən orduya çağırılması və s. məsələlər idi. [5, v. 65]. Belə çətin siyasi şəraitdə konsulun qeyd olunan məsələlərin həlli ilə bağlı müraciətində göstərilən vətəndaşlarının təhlükəsizliyinin və hüquqlarının qorunmaması barədə fikirlər konsulluğun nüfuzuna böyük xələl gətirirdi. Yaranan narahatçılığı aradan qaldırmaq üçün konsulluqda bəzi təkliflər də hazırlanmışdı. Təkliflər içərisində İran təbəələrinə məxsus əmlakın İran konsulluğuna verilməsi, bu məsələ ilə bağlı xüsusi komissiyanın yaradılması təmin edilməsi təklifi də var idi. Bundan başqa konsulluq öz vətəndaşlarının probleminin həllinə də nəzarəti öz üzərinə götürmək niyyətində idi. Belə ki, İran təbəələrinin sərbəst şəkildə öz vətənlərinə getmək icazəsinin konsulluğa verilməsini istəyirdi [5, v. 65]. İyulun 21-də İranın Qafqazdakı baş konsulu Azərbaycan XXİK-na nota göndərərək "Sovet Rusiyası və Azərbaycan hökumətinin şəxsiyyətin toxunulmazlığı və əmlakın qorunması ilə bağlı sənədlərə əməl olunmadığı"nı qeyd edərək Azərbaycan sovet orqanlarının İran vətəndaşlarına qarşı qanunsuz və özbaşına hərəkətlərinə qəti etirazı bildirilirdi [5, v. 66].

Məlum olduğu kimi, XIX əsrin sonu XX əsrin əvvəllərində İranda baş verən iqtisadi böhranla əlaqədar Azərbaycana minlərlə iranlı axın etmişdi. Aprel çevrilişindən sonra isə Azərbaycanda məskunlaşmış iranlı təbəələrin, xüsusən də tacirlərin vəziyyəti günü-gündən çətinləşməkdə idi. Çünki Azərbaycanda sovet hakimiyyəti qurulduğu ilk gündən sosial yönümlü islahatlar keçirilərkən hər növ mülkiyyət və əmlak hökumət tərəfindən müsadirə olunarkən, yerli mülkədar və tacirlərlə yanaşı iranlı tacirlərin də malları müsadirə olunur, özlərinə isə ölkədən çıxmaq qadağası qoyulurdu. İranın Azərbaycanda fəaliyyət göstərən konsulluq və nümayəndəliklərində isə bolşeviklər tez-tez yoxlamalar apararaq İran konsullarını "Sovet hökumətinə qarşı təxribat" etməkdə ittiham edərək vəzifələrindən kənarlaşdırırdılar. Konsulların pul və qiymətli əmlakı müsadirə edilir və onların işi üzrə İran fəhlə-kəndli komitələri yaradırdılar [12, s. 258]. Belə çətin şəraitdə Azərbaycanda qala bilməyən və vətəninə qayıtmaq istəyən iranlılar böyük çətinliklərlə üzləşirdilər. Onların İrana getməsində maneçilik törətməkdə əsas məqsəd "qarətçi tacirlərin" İrana qayıtdıqdan sonra orada bolşeviklərə qarşı əks-inqilabi təbliğat aparmaqda və İrandakı inqilab işini ləngitmək idi. Eyni zamanda iranlı fəhlələrin məcburi əməyə cəlb olunması böyük narazılıq yaradırdı.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan tərəfi bu məsələlərin həllinə ciddi yanaşaraq İran vətəndaşlarının problemlərini dəfələrlə RSFSR XXİK-na çatdırmış və bəzi nəticələr əldə etmişdi. Məsələn, Azərbaycan-RSFSR danışıqları nəticəsində İran təbəələrinin orduya çağırılması məsələsi öz həllini tapmışdı. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 16 sentyabr tarixli və 2755 saylı dekreti ilə Azərbaycanda yaşayan bütün İran

vətəndaşları hərbi xidmətdən azad edilirdi, orduya çağırılanlar isə hərbi xidmətdən buraxılırdılar [2, v. 1]. Lakin N. Nərimanovun rəhbərliyi ilə Azərbaycan tərəfi digər məsələləri Sovet hökuməti qarşısında gündəmə gətirsə də, məsələlər öz həllini tapmamışdı. Bunun əsas səbəblərindən biri, sözsüz ki, Sovet Rusiyasının öz maraqları idi. Əgər İran konsulluğunun şikayətlərinə Azərbaycan hökuməti müsbət cavab verərək yerindəcə həll etmiş olsaydı, onda bu İran və Azərbaycan arasında birbaşa qarşılıqlı münasibətlərin yaranması demək olardı. Bu səbəbdən İran konsulunun göndərdiyi rəsmi sənədlər cavabsız qalırdı.

İran XİN 1920-ci il oktyabrın 11-də Azərbaycan SSR XXİK-a iranlı fəhlələrin kütləvi surətdə vətənlərinə qayıtması üçün şərait yaradılması ilə bağlı müraciət etdi [7, v. 1] Onların məcburi əməyə cəlb olunmasına etiraz olaraq 1920-ci il noyabrın 2-də İranın Bakıdakı konsulu Saidülvüzəra Bakı şəhəri ilə yanaşı Gəncədə də məskunlaşan iranlıların tez-tez İran konsulluğuna yığışaraq vətənlərinə qayıtmaq istədiklərini bildirirdi [3, v. 9].

Qeyd etmək lazımdır ki, Aprel çevrilişi zamanı çoxlu iranlı təbəələr də həbs olunmuşdu. Onların azadlığa buraxılması üçün İran XİN-i Azərbaycan SSR XXİK-na ünvanladığı məktubunda "Böyük Oktyabr inqilabının ildönümü ilə əlaqədar" olaraq həbs edilmiş İran təbəələrinə də amnistiya verilməsinin bu dövlət tərəfindən atılmış böyük humanist addım ola biləcəyi vurğulanırdı [4, v. 64].

İran-Azərbaycan arasında müzakirə olunan digər məsələlərdən biri də sərhəd pozuntusu və İrandan keçən qarətçilərin Lənkəranda və Muğanda törətdikləri qarətlər idi. İran ərazisindən Azərbaycan tərəfə keçən dəstələrin hücumlarından narahat olan Azərbaycan SSR hökuməti tez-tez İranı təqsirləndirirdi. Əslində hücumların mahiyyətinə baxdıqda bunun işğaldan yaranan narazılıqlar, əmlaklarının müsadirə edilməsi, sovet hakimiyyətinə olan nifrət və s. idi. Qeyd edilən məsələlər bolşevik hakimiyyətindən qəzəblənən kütləni mübarizə aparmaq üçün birləşdirirdi. Bu məsələlər isə İran-Azərbaycan siyasi münasibətlərini son dərəcə gərginləşdirirdi.

Həmin vaxt baş verən qarışıqlığın qarşısını almaq üçün N. Nərimanov sərhəddə baş verənlərlə bağlı İran konsuluna məktub da ünvanlamışdı. Məktubda yazılırdı: "İran-Azərbaycan sərhəddi boyunca məskunlaşan dinc əhaliyə qarşı İran qarətçiləri tez-tez basqın edirlər. İranlı qaçqınların basqınları ilə bağlı dəfələrlə teleqrafla xəbər verilmişdir. Mənim hökumətim İranla Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafı üçün həmişə çalışıb. Azərbaycan SSR-də yaşayan əməksevər iranlılara hər zaman yaxşı münasibətimiz olub. Hər 2 tərəfin sərhədində həmişə sakitliyin, əmin-amanlığın tərəfdarıyıq" [3, v. 36].

Müəyyən vaxt keçməsinə baxmayaraq İran vətəndaşlarının vəziyyəti düzəlmirdi. Onlar yenə ağır şəraitdə saxlanılır, konsulluğun etdiyi müraciətlər cavabsız qalırdı. Bu dövrdə biri İran vətəndaşları üçün ən böyük problemlərdən biri viza məsələsi idi. Belə ki, Bakı neft mədənlərində işləyən iranlı fəhlələr hər biri viza üçün 15 qızıl manat ödəməli idilər. Bu da onlar üçün çox ağır rüsum idi. Neft mədənlərindən başqa Azərbaycanda əkinçi, daşyonan, bənna və s. peşə sahibləri olan iranlılar da çalışırdı. İranın Gəncədəki konsulu Kərimxan Modir Soltane Azərbaycan hökuməti qarşısında İran vətəndaşlarının pasportlarında viza qoyulmasının ləğvi ilə bağlı məsələ qaldırmışdı.

**Nəticə**

Beləliklə, Aprel çevrilişindən sonra yaranan yeni siyasi reallıq İran dövlətini Azərbaycan dövləti ilə münasibətlər yaratmasını labüd edirdi. Lakin ilk aylarda İran – Azərbaycan SSR siyasi münasibətlərinə nəzər saldıqda görürük ki, buna Sovet Rusiyasının mövqeyi ciddi təsir edirdi. Azərbaycan tərəfi Rusiyanın nəzarəti altında idarə olunduğundan hər iki dövlət arasında birbaşa münasibətlərin qurulması problemə çevrilmişdi. Eyni zamanda bu dövrdə İran dövlətinin də daxili və beynəlxalq vəziyyəti xeyli mürəkkəb olması tərəflər

arasında münasibətlərdə təzadlı vəziyyət yaradırdı. Bolşeviklərin yürütdüyü siyasət, Rusiyanın öz mənafeyini güdməsi, hər iki tərəfə olan təzyiqi İran və Azərbaycan SSR arasında diplomatik münasibətlərinin inkişafına mənfi təsir göstərirdi. Özünü şimaldan gələn təhlükədən sığortalamaq istəyən İran Azərbaycan Sovet Respublikasını tanımaq xətti tutsa da, bolşeviklərin Şərqə kommunizm yaymaq cəhdləri bu dövlətlər arasında əlaqələrin qurulmasına ciddi maneə yaradırdı. Aprel çevrilişindən sonrakı ilk aylarda Sovet Rusiyası və Azərbaycanın İranla münasibətlərinin qurulmasına ciddi maneə olan Gilan hərəkatı idi. Lakin bu hərəkatın uğursuzluğu bu dövlətlər arasında münasibətlərin yeni mərhələyə keçməsinə səbəb oldu və artıq 1921-ci ilin fevralında İranla RSFSR arasında müqavilənin bağlanmasına zəmin yaratdı.

## ƏDƏBİYYAT


1. ADR-İran diplomatik münasibətləri Qafqaz Fövqəladə Komissiyanın sənədləri işığında (1919-1920-ci illər), Bakı: Şərq-Qərb, 2017.
2. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA). Fond 28, siyahı 1, iş 25.
3. ARDA. Fond 28, siyahı 1, iş 30.
4. ARDA. Fond 28, siyahı 1, iş 51.
5. ARDA. Fond 28, siyahı 1, iş 71.
6. ARDA. Fond 28, siyahı 1, iş 72.
7. ARDA. Fond 28, siyahı 1, iş 577.
8. ARDA. Fond 85, siyahı 3, iş 164.
9. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA). Fond 609, siyahı 1, iş 60.
10. Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939), Bakı: Adiloğlu, 2012.
11. Qasımov M., Xarici dövlətlər və Azərbaycan, Bakı, 1998.
12. Rüstəmova–Tohidi S., Kominternin Şərq siyasəti və İran, Bakı: Xəzər Universiteti nəşriyyatı, 2001.
13. Генис В. Красная Персия. Большевики в Гляне, 1920-1921. Москва, 2000.
14. Документы внешней политики СССР. Том II., Москва, Госполитздат, 1959.
15. Персиц М.А., Застенчивая интервенция. О советском вторжении в Иран и Бухару в 1920-1921 гг., Москва, 1999.
16. کاوه بیات. توفان بر فراز قفقاز.(نگاهی به مناسبات منطقه‌ای ایران و جمهوری اذربایجان ارمنستان و گرجستان در دوره نخست استقالل 1917-1921) . ترکز اسناد و تاریخ دیپلماسی. تهران-1388.
17. اوراسیای آسیای مرکزی، مجید عباسی، سید محمدرضا موسوی، روابط جمهوری اسالمی ایران وجمهوری آذربایجان، بسترهای همگرایی و زمینه های واگرایی، دوره 6، شماره 2، پاییز و زمستان 1392، ص. 61-80.


***Summary***

***Sevinj Mammadova***

***Political Relations Between the Azerbaijan SSR and Iran after the April İnvasion (April-December-1920)***

Present article deals with political relations between Soviet Azerbaijan and the Iranian government during the first months after the April invasion in 1920.

From the first days of declaring its independence, the biggest threat to the Azerbaijan Democratic Republic (ADR) from the north was Soviet Russia. Despite the decision of the Supreme Council of the Paris Peace Conference on January 11, 1920 to recognize the de facto existence of the ADR, Russia refused to do so. The main reason for such a firm position of the Bolsheviks towards the ADR was the desire to restore the former borders of the Russian Empire and take possession of the Baku oil. On April 28, 1920, Soviet Russia occupied the Azerbaijan Democratic Republic, and in its place the Azerbaijan Soviet Socialist Republic

(Azerbaijan SSR) was created. The emergence of the Azerbaijan SSR meant the strengthening of the positions of Soviet Russia in the north of Iran, which forced Iran to take a number of special measures under these conditions, one of which was the recognition of the Azerbaijan SSR.

Concerned about the approach of the Bolsheviks to its northern border, the Iranian government on May 14, 1920 sent a hasty note to Soviet Russia and announced the recognition of the Azerbaijan SSR as an independent state. This note reflects the view of the Iranian side on the prospect of future relations between the two countries.

The new political reality in diplomatic relations between Iran and the Azerbaijan SSR had a serious impact on the position of Soviet Russia. Due to the fact that the government of the country was carried out under Russian supervision, the Azerbaijani side could not pursue an independent policy. Moreover, the complexity of Iran's internal and international position at that time created additional contradictory conditions in relations between the countries. The policy conducted by the Bolsheviks, Russia's pursuit of its own interests, its pressure on both sides had a negative impact on the development of diplomatic relations between Iran and the Azerbaijan SSR.

***Keywords:*** *Azerbaijan SSR, Iran, Soviet Russia, XI Red Army, political relations*

***Резюме***

***Севиндж Маммедова***

***Политические отношения между Азербайджанской ССР и Ираном после Апрельского переворота (апрель-декабрь-1920)***

В данной статье представлено исследование политических отношений между советским Азербайджаном и Иранским правительством, сложившихся в первые месяцы после апрельской оккупации 1920 года.

С первых дней объявления собственной независимости самой большой угрозой с севера для Азербайджанской Демократической Республики была Советская Россия. Несмотря на решение Верховного совета Парижской мирной конференции 11 января 1920 г. о признании де-факто существования АДР, Россия признавать официально новое государство отказалась. Основной причиной подобной твердой позиции большевиков по отношению к АДР было желание восстановить прежние границы Российской империи и завладеть бакинской нефтью. 28 апреля 1920 г. Советская Россия оккупировала Азербайджанскую Демократическую Республику, и на ее месте была создана Азербай джанская Советская Социалистическая Республика (Азербайджанская ССР). Появление Азербай джанской ССР означало укрепление позиций Советской России на севере Ирана, что вынудило Иран в данных условиях принять ряд особых мер, одной из которых было признание Азербайджанской ССР.

Обеспокоенное приближением большевиков к своей северной границе иранское правительство 14 мая 1920 года отправляет Советской России спешную ноту и заявляет о признании Азербайджанской ССР в статусе независимого государства. В этой ноте нашёл отражение взгляд иранской стороны на перспективу будущих отношений между двумя странами.

Новая политическая реальность в дипломатических отношениях между Ираном и Азербайджанской ССР оказывала серьезное влияние на позицию Советской России. Из-за того, что управление страной осуществлялось под российским надзором, проводить независимую политику азербайджанская сторона не могла. Более того, сложность внутреннего и международного положения Ирана в те времена создавала дополнительные противоречивые условия в отношениях между странами. Проводимая большевиками политика, соблюдение Россией собственных интересов, ее давление на обе стороны оказывали отрицательное влияние на развитие дипломатических отношений между Ираном и Азербайджанской ССР.

***Ключевые слова:*** *Азербайджанская ССР, Иран, Советская Россия, XI Красная армия, политические отношения*

Redaksiya heyətinin üzvü t.e.d., prof. Qasımlı Musa Cəfər oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# ENERJİ TƏHLÜKƏSİZLİYİ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYİN TƏRKİB HİSSƏSİ KİMİ

**Lamiyə AXUNDOVA** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 20 aprel 2022; çapa qəbul edilmişdir:23 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received:20 th of April, 2021; accepted: 23 th of May , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər:** enerji təhlükəsizliyi, enerji geopolitikası, enerji istehsalı*

## Giriş

XX əsr enerjidə daş kömürdən neftə keçid dövrü olmuş və bu keçiş bir sıra böhran və müharibələrlə yadda qalmışdır. Belə ki, həmin dövrdə neft resurslarının ələ keçirilməsi və nəzarət edilməsi dünyanın aparıcı dövlətlərinin əsas məqsədinə çevrilmiş, bu isə öz növbəsində dünya miqyasında hərbi-siyasi və iqtisadi mübarizəni kəskinləşdirmişdir.

Enerji təhlükəsizliyi beynəlxalq və milli təhlükəsizliyin mühüm tərkib hissəsi olaraq, XX əsrdən etibarən aktuallığını artırmış və müasir dövrdə də bu aktuallığını qoruyur.

Enerji təhlükəsizliyinin, qlobal miqyasda qəbul edilən vahid tərifi yoxdur. Buna baxmayaraq, məsələyə sistemli və əhatəli tərif vermək məqsədi daşıyan çox sayda təkliflər irəli sürülmüşdür. Bu təkliflər nəticəsində enerji təhlükəsizliyinə dair müxtəlif təriflər ortaya çıxmışdır. Enerji təhlükəsizliyi dedikdə:

- Enerjinin müntəzəm olaraq, təhlükəsiz, ekoloji təmiz və müxtəlif mənbələrdən, ölkələrdən lazımi miqdarda və münasib qiymətlərlə əldə edilməsi və səmərəli şəkildə istehlak edilməsi;
- Lazımi həcmdəki enerji resusrlarının, münasib qiymət və istiqrarlı mənbədən, faktiki olaraq təhdid altında olmayan tədarük yolları vasitəsilə (boru xətti, dəniz yolları, quru daşımaçılığı vs.) əldə edilməsi və ədalətli bölgüsüdür;
- Dünyadakı enerjinin səmərəli və qənaətlə istehlak edilməsidir;
- İqtisadiyyatın tələb etdiyi enerji ehtiyacının müntəzəm olaraq təmin edilməsi başa düşülür [2, s. 2].

Yuxarıda qeyd edilən təriflərə əlavə olaraq, 2000-ci illərin əvvəllərindən başlayaraq, enerji təhlükəsiziliyi anlayışına iqlim dəyişikliyi də əlavə edilmişdir [5, s. 175].

Dünya Enerji Şurası tərəfindən 1992-ci ildə təklif edilən tərif müxtəlif təklifləri özündə cəmləşdirir. Bu tərifə görə, enerji təhlükəsizliyi, "bir ölkənin vətəndaşlarına dövlət tərəfindən davamlı və təhlükəsiz yanacaq ilə enerji xidmətinin təşkil edilməsinin təminat altına alınması"dır.

Enerji təhlükəsizliyinə dair təklif edilən təriflərdə diqqət çəkən cəhətlərdən biri, bu təriflərin bəzilərində məsələnin enerji tərəfinin, digərlərində isə təhlükəsizlik tərəfinin önə çıxarılmasıdır. Təhlükəsizliyi əsas diqqət mərkəzinə yerləşdirən təriflərdə fiziki təhlükəsizlik nəzərdə tutulur. Neft, qaz, daş kömür kimi fosil mənşəli enerji resurslarının axtarışı,

* *dissertant, Gəncə Dövlət Universiteti*
*e-mail:* axundova gdu@yahoo.com

çıxarılması, tədarük edilməsi, daşınması kimi mərhələlərdə ortaya çıxa biləcək bütün təhlükəsizlik məsələləri burada nəzərdə tutulur. Terrorçuluq, düşmən dövlətlərin enerji təhlükəsizliyinə yönələn fəaliyyətləri də bu kontekstdə qiymətləndirilir. Buna Azərbaycandan misal göstərə bilərik. 2020-ci ildə Ermənistanın BTC, BTE kimi neft-qaz kəmərlərinə hədəf alan fəaliyyətləri Azərbaycanın və digər maraqlı dövlətlərin enerji təhlükəsizliyinə yönələn bariz təhlükə kimi qiymətləndirilə bilər.

Məsələnin enerji tərəfini əsas alan təriflərdə isə, adından da göründüyü kimi enerjinin iqtisadi əhəmiyyəti diqqət mərkəzinə yerləşdirilir. Bu zaman enerji təhlükəsizliyi dedikdə, məsələnin üç tərəfi nəzərdə tutulur: birincisi, enerji istehlakı təhlükəsizliyi, ikincisi, enerji istehsalı təhlükəsizliyi, üçüncüsü isə enerjinin tədarükünün (daşınmasının) təhlükəsizliyi.

Məqalədə, əvvəlcə ümumi olaraq enerji və enerji mənbələrinə nəzər yetiriləcək, daha sonra isə enerji təhlükəsizliyi geniş şəkildə tədqiq ediləcək.

**Müasir dövrdə enerji təhlükəsizliyinin məzmunu və mahiyyəti**

Enerjinin bəşər tarixindəki yeri Sənaye inqilabından sonra yeni səviyyəyə çıxmış, buxar maşınlarının icad edilməsi ilə, enerji daha əvvəl heç olmadığı qədər insanoğlunun gündəlik həyatının ən önəmli komponentinə çevrilmişdir. Enerji və texnologiya arasında əlaqənin ortaya çıxması və inkişaf etməsi də həmin dövrdə başlamışdır. Belə ki, texnologiyanın inkişaf etməsi enerjiyə olan tələbatı, enerjiyə olan tələbin artması isə texnologiyanın inkişafını sürətləndirmişdir.

XX əsrdə isə industrial mənada proqnozlaşdırılandan daha sürətli tərəqqi yaşanmışdır. Bu əsrə qədər maşınlar əsas nəqliyyat vasitəsi kimi istifadə edilirdi, çünki hava nəqliyyat vasitələri hələ istifadə edilmirdi. Mənzillərin isidilməsində daş kömür və odundan istifadə edilirdi. Sənaye müəssisələri də daha çox qərbin inkişaf etmiş dövlətlərində yerləşirdi. XX əsr ilə həm enerji resurslarının şaxələnməsi, buna bağlı olaraq enerjinin texnologiyaya tətbiqi, eyni zamanda enerjinin istifadə coğrafiyası genişləndi.

Müasir dövrdə isə elə bir sahə yoxdur ki, orada enerjiyə ehtiyac hiss edilməsin. Sənaye sahələri, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya, mənzillərin isidilməsi kimi insan həyatının bütün sahələrində enerji istifadəsi özünə dərin kök salmışdır. Enerji təkcə bəşəriyyətin məişət həyatını asanlaşdırmadı, ən əsası onun hərtərəfli inkişafının dinamikasını təşkil etdi. Enerji bəşəriyyətin tarixində, insanların, ölkələrin və beynəlxalq sistemin fəaliyyətində mühüm rol oynayır. Bu isə, enerji tələb-təklif balansında tez-tez pozulmalara, həmçinin dövlətlər arası münasibətlərdə müxtəlif problemlərə səbəb olmaqdadır. Belə ki, 1996-cı ildə Nobel mükafatçısı elm adamı Riçard Smeli “Bu gün, bəşəriyyətin qarşısında duran ən böyük problem enerji”dir, - deyərək, yuxarıdakı fikri dəstəkləmişdir.

Enerji resurslarının müxtəlif meyarlar əsasında qruplaşdırılması enerjinin həm istehsal, həm istehsal, həm daşınması və həm də ekoloji baxımdan mühüm əhəmiyyət kəsb edir. Məsələn, enerji resursları birinci və ikinci enerji resursları olmaqla iki qrupa ayrılır. Birinci enerji resursları, təbiətdə mövcud olduqları formada, hər hansı dəyişikliyə və dönüşümə məruz qalmadan istifadə edilən enerji ehtiyatlarıdır. Bu enerji resursları həm yenilənə bilən, həm də yenilənməyən enerji mənbələrindən əldə edilir. Bu resurslar arasında günəş enerjisi, neft, qaz, daş kömür, külək enerjisi, istilik-nüvə enerjisi, bioenerji və s. yer alır. Birinci enerji resursları bir çevrilmə prosesindən keçirilərək ikinci enerji formasına salınır. Kömür, neft, qaz ya da külək enerjisi kimi birinci mənbələrdən əldə edilən elektrik enerjisi, ikinci enerji formasına tipik misaldır, eyni zamanda benzin, sintetik yanacaqlar da ikinci enerji formaları arasında yer alır.

2013-cü ildəki BP göstəricilərinə görə, dünyada ən çox istehlak edilən enerji resursunu 33%-lə neft təşkil edir. Nefti 30%-lə daş kömür və 24%-lə qaz təşkil edir. İstilik-nüvə enerjisi, bioenerji, hidroelektrik və yenilənə bilən enerjinin ümumi enerji istehlakı içindəki payı isə cəmi 13% təşkil edir [13]. 2040-cı illərdə isə neft istehlakı həcmində ciddi geriləmə

olmayacağı, ancaq qaz və atom enerji resurslarından istifadə həcmində artım olacağı proqnozlaşdırılır [12]. Göründüyü kimi, enerji tələbinin böyük hissəsini qarşılayan fosil mənşəli yanacaqlar, sənaye cəmiyyətinin şah damarı olaraq qəbul edilir. Ancaq son illərdə ətraf mühitin ekoloji cəhətdən çirklənməsi, enerji resurslarının coğrafi bölgüsündə yaranan disbalans və qiymətlərin qeyri-sabitliyi, alternativ enerji resurslarına olan marağı artırmışdır. Bu çərçivədə günəş, istilik-nüvə, hidroelektrik və külək enerjisi kimi birinci dərəcəli enerji resurslarına diqqət artmışdır. Adı keçən enerji mənbələrinin fosil yanacaq növləri ilə müqayisədə demək olar ki, eyni mayadəyərə başa gəlməsi də onlara olan marağın artmasına böyük təsir edir. Buna baxmayaraq, neftin və qazın beynəlxalq münasibətlər sistemindəki rolu hələ uzun müddət əhəmiyyətini qoruyacaqdır. Bu səbəblə, tədqiqat işində xüsusilə neft və qaz resurslarının tədqiqinə əsas yer verilmişdir.

Hidrokarbonlar içində yer alan təbii qaz son dövrlərdə istehlak həcmi sürətlə artan enerji resurslarının başında gəlir. Müasir dövrdə, dünyada təbii qaz resurslarının böyük bir hissəsi Rusiyada, sonra isə İran, Qətər, ABŞ, Səudiyyə Ərəbistanı, Türkmənistandadır kimi ölkələr izləyir [8]. Ancaq qazın bir enerji resursu kimi istehlakının getdikcə genişlənməsinə baxmayaraq, neftin əsas enerji mənbəyi olmasının önünə keçə bilməmişdir. Bu gün dünya miqyasında istifadə edilən enerji resursları içində qazın istehlak həcmi 25% səviyyəsindədir. Ancaq 2030-cu illərdə bu göstəricinin daha da artacağı proqnozlaşdırılır.

***Cədvəl 1***

**Dünya yanacaq ehtiyacının qarşılanmasında istifadə edilən resurslar**

| Resurs növləri | 1990 | 2010 | 2015 | 2020 | 2030 | 2035 |
|---|---|---|---|---|---|---|
| Daş kömür | 2231 | 3474 | 3945 | 4082 | 4180 | 4218 |
| Neft | 3230 | 4113 | 4352 | 4457 | 4578 | 4656 |
| Qaz | 1668 | 2740 | 2993 | 3266 | 3820 | 4106 |
| Atom enerjisi | 526 | 719 | 751 | 898 | 1073 | 1138 |
| Hidroenerji | 184 | 295 | 340 | 388 | 458 | 488 |
| Bioyanacaq | 903 | 1277 | 1408 | 1532 | 1755 | 1881 |
| Digər | 36 | 112 | 200 | 299 | 554 | 710 |
| Cəmi | 8779 | 12730 | 13989 | 14922 | 16417 | 17197 |

**Mənbə:** *Institute For Energy. Fossil Fuels Still King In EIA`s Annual Energy Outlook 2013.*

Qeyd edildiyi kimi, xam neft dünya enerji təhlükəsizliyi baxımından ən əhəmiyyətli enerji mənbəyini təşkil edir. Xam neftdən təkcə yanacaq olaraq istifadə edilmir, eyni zamanda müxtəlif mərhələlərdən keçirilərək, müasir dövrdə həyatın hər sahəsində istifadə edilən bir sıra ara maddə ilə müxtəlif məhsulların əsas xammaddəsini təşkil edir.

Xam neft, qlobal miqyaslı enerji tələbinin ən əsas vasitəsi olaraq qəbul edilir. Alternativ enerji mənbələrinin enerji istehlakındakı payını artırmaq üçün aparılan bütün fəaliyyətlərə baxmayaraq, neft hələ də öz yerini qoruyur və möhkəmləndirir. ABŞ-ın Enerji İnformasiya İdarəsi (The U.S. Energy Information Administration - EIA) tərəfindən dünya miqyasında neft istehlakının 2013-cü ildə gündəlik orta hesabla 90,44 milyon barel, 2014-cü ildə 91,56, 2015-ci ildə isə 92,96 milyon barel olduğu qeyd edilmişdir [12].

2012-ci ildə dünyada ən çox neft istehsal edən ölkələr Səudiyyə Ərəbistanı, ABŞ, Rusiya, Venesuela, Çin, İran, İraq, Kanada, Nigeriya, Meksika, Küveyt, BƏƏ və Braziliya olmuşdur [9]. Bu ölkələri Norveç, Qətər, Alqola, Liviya, Qazaxıstan kimi ölkələr təqib etmişdir.

Digər tərəfdən 2013 ilə aid göstəricilərə görə Çin, ABŞ, Yaponiya, Braziliya, Kanada, Almaniya, Hindistan, Cənubi Koreya, Rusiya, Meksika, Səudiyyə Ərəbistanı və Fransa

ən çox neft idxal edən ölkələrdir [15]. Bu statistik məlumatlar nəzərə alınaraq, dövlətlərin neft istehlakına təsir edən faktorların başında iqtisadi inkişaf səviyyələri, sənayeləri və əhali sayının gəldiyini qeyd edə bilərik.

**Azərbaycanın enerji təhlükəsizliyinə töhfələri**

Azərbaycanda neft sənayesinin formalaşması 1860-cı illərə təsadüf edir. Sovet İttifaqı dövründə isə ölkənin neft sənayesi inkişafının ən yüksək səviyyəsinə çatmışdır. 1872-ci ildən başlayaraq, Çar Rusiyası Bakıdakı neft sənayesini özəlləşdirmiş və ölkədə güclü yatırımların və xarici sərmayənin həcmində böyük artım qeydə alınmışdır. Belə ki, 1872-ci ildə norveçli iş adamları olan Nobel qardaşlar öz adlarını daşıyan şirkətləri ilə Azərbaycanda neft sektorunda fəaliyyətə başlamışlar. Statistik göstəricilərə görə, Azərbaycanda 1873-cü ildə 12, 1899-cu ildə 61, 1905-ci ildə 158, 1913-cü ildə 182 neft şirkəti fəaliyyət göstərirdi. 1872-ci ildə Rusiyada emal edilən 27 min barel neftin 26 mini Azərbaycanda istehsal edilirdi [6, s. 24-28].

XX əsrin əvvəllərində Azərbaycan neft sənayesinin inkişaf sürətinə ve istehsal həcminə görə dünya bazarında ilk yerdə qərarlaşırdı. 1901-ci ildə dünyada istehsal edilən neftin yarıdan çoxu, Rusiyada istehlak edilən neftin 95 %`i Azərbaycandan ixrac edilmişdir. 1905-1907-ci illər arasında yaşanan rus-Yapon müharibəsi və proletariatın artan baykotları, neft sənayesinə olduqca pis təsir etmişdir [1, s. 19-24].

Müstəqillikdən sonra Azərbaycanın dünya enerji təhlükəsizliyinə verdiyi töhfə yenidən artmağa başlamışdır. Azərbaycanın enerji strategiyasının dinamikası və əsas prinsipləri 20 sentyabr 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" adlı sənəddə öz əksini tapmışdır. Bu müqavilə Azərbaycan neftinin dünya bazarına çıxarılması yönündə atılan ən önəmli addım olmuşdur. Bundan əvvəl isə, 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra Azərbaycanın neft-qaz sektorunun inkişafında dönüş yaranmış, neft və qaz yataqlarının istismarını müasir dövrün tələblərinə cavab verən səviyyədə yenidən qurulması üçün 4 fevral 1994-cü il tarixdə sərəncam imzalanmışdır [10]. Müqavilə "Azəri", "Çıraq" və "Günəşli" yataqlarından neftin çıxarılması və paylaşılmasını əhatə edir. Əsrin Müqaviləsinə səkkiz ölkədən (Azərbaycan, ABŞ, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Böyük Britaniya, Səudiyyə Ərəbistanı) 13 şirkət (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta) qoşulmuşdur [14]. Böyük Britaniyanın BP-nin şirkətinin 2019-cu ilə dair hesabatına görə, Azərbaycanda təsdiq olunmuş neft ehtiyatları 7 milyard barel təşkil edir. Hesabata əsasən, 2019-cu ilin sonuna dünyada təsdiq olunmuş neft ehtiyatları 244,6 mlrd. ton və ya 1 733,9 mlrd. barel təşkil edib (Azərbaycanın payı – 0,4 %) [7].

"APA-Economics"in BP-nin illik icmalına istinadən verdiyi məlumata görə, 2019-cu ilin sonuna Azərbaycanın təsdiq olunmuş neft ehtiyatları 1 mlrd. ton (7 mlrd. barel) təşkil edib ki, bu da 2018-ci ilin göstəricisinə bərabərdir..

Azərbaycanın beynəlxalq və milli enerji siyasəti və enerji təhlükəsizliyi ilə bağlı məsələlər 2003-cü ildən etibarən bir sıra dövlət sənədində də yer almışdır. Bu sənədlərin başında Azərbaycan Respublikasının Konstitusiyası, 2005-2015-ci illərdə yanacaq-enerji sektorunun inkişafına dair dövlət Proqramı, 2007-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası, həmçinin iqtisadiyyatın inkişafına dair yol xəritələri gəlir [4, s. 110].

Azərbaycan təkcə xam nefti ilə deyil, həmçinin təbbi qazı ilə də dünya enerji təhlükəsizliyi baxımından önəmli bir ölkədir. BP şirkətinin icmalında 2019-cu ilin sonuna Azərbaycanda təsdiqlənmiş qaz ehtiyatları 2,8 trilyon kubmetr həcmində qiymətləndirilir. Göründüyü kimi, 2018-ci ilin sonuna olan vəziyyətə görə, Azərbaycanın qaz ehtiyatları 2,1 trilyon kubmetr həcmində qiymətləndirilib. Beləliklə, həmin il ərzində qaz ehtiyatları 0,7 trilyon kubmetr və ya 33,3% artıb [7]. Ancaq bu rəqəmlər də gələcəkdə dəyişə bilər və 5

ilə 7 trilyon kubmetrə çata bilər. Enerji mütəxəssislərinin görüşünə görə, Azərbaycan bir neçə il içində illik təbii hasilatını 40 ilə 50 mlyd kubmetr arasında bir rəqəmə çatdıra biləcəkdir [3, s. 23-24].

**Nəticə**

Müasir dövrdə dünyada baş verən proseslər dünya enerji təhlükəsizliyinə təsirsiz ötüşmür. İstər siyasi, istər hərbi, istərsə də səhiyyə sahəsində baş verən bütün proseslər beynəlxalq səviyyədə enerji tələbatına, enerji qiymətlərinə böyük təsir göstərir. Bu isə öz növbəsində ölkələrin iqtisadi sferasında bir sıra ciddi fəsadlara hətta böhranlara səbəb olur. Bütün bunlar onu deməyə əsas verir ki, dünyanın enerjiyə olan tələbatının ödənilməsi enerji resurslarının istismar edilməsi qədər, digər faktorlardan da asılıdır. Bu asılılıq sektorun təhlükəsizliyinin təmin edilməsinin əvvəlki onilliklərdə olduğundan daha çox diqqət tələb edir. Eyni zamanda dünya dövlətlərinin inkişafının enerjidən birbaşa asılı olması, enerji təhlükəsizliyinin yaxın gələcəkdə təmin edilməsi məsələsində istər ixracatçı dövlətlər, istərsə də idxalatçı dövlətlərin əməkdaşlığının vacibliyini əsaslandırır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan tarixi (1900-1920-ci illər). Azərbaycan Milli Elmlər Akademiyası. Bakı, Elm, 2008, 269 s.
2. Gençtürk T. Enerji Güvenliği Nedir? // Ulusal ve Uluslararası Boyutta Enerjı Güvenliği Sorunu. Ankara: Başkent Universitesi Stratejik Araştırmalar Merkezi. 2012, 244 s.
3. Hasanov A. Hazar-Karadeniz Havzalarıyla Güney Kafkasya’nın Jeoekonomik Karakteristiği ve Azerbaycan’ın Yeni Petrol Politikası, İstanbul: Ötüken, 2016, 183 s.
4. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Azərbaycan Respublikasının Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, Bakı, 2011, 700 s.
5. Özer S. Avrupa Birliği, Rusya ve ABD`nin Avrupa Güvenliğine Farklı Yaklaşımlarının Transatlantik İttifakına Etkileri // Akdeniz Universitesi İİBF Dergisi, 2008, № 15, s.170-195.
6. Şirinli Q.B. Azərbaycanın enerji təhlükəsizliyi və onun təminatı. Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 2015, 245 s.
7. BP Azərbaycanın neft ehtiyatlarını yenidən qiymətləndirib, 17 iyun 2020 (https://apa.az/az/senaye-ve-energetika/BP-Azrbaycanin-neft-ehtiyatlarini-yenidn-qiymtlndirib-592185)
8. EIA. US Energy Information Administration (http://www.eia.gov/countries/cab.cfm?fips=ir)
9. EIA. US Energy Information Administration, Today In Energy (http://www.eia.gov/todayinenergy/detail.cfm?id=10231)
10. Əsrin müqaviləsi yüksəliş yolunun uğurlu təməli. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası (https://files.preslib.az/site/10il/gl1.pdf)
11. IEA, International Energy Agency (2016b). Key World Energy Statistics, Erişim Adresi (http://www.iea.org/publications/freepublications/publica-tion/KeyWorld2016.pdf )
12. Institute For Energy. Fossil Fuels Still King In EIA’s Annual Energy Outlook, 2013 (http://instituteforenergyresearch.org/analysis/fossil-fuels-still-king-in-eias-annual-energy-outlook-2013/)
13. Mearns E. Global Energy Trends. BP Statistical Review 2014 (http://euanmearns.com/global-energy-trends-bp-statistical-review-2014)
14. Neft sektoru (http://www.president.az/azerbaijan/contract)
15. US Energy Information Administration, Countries Consumption (http://www.eia.gov/countries/index.cfm?view=consumption)

*Summary*

***Lamiya Akhundova***

***International Energy Security as an Important Component of International Security***

Since the twentieth century, energy security has become an important part of international and national security. In modern times, both in terms of production and consumption, as well as in terms of import and export, and the safety of energy transportation, are the main components of energy security.

One of the highlights of the proposed definitions of energy security is that in some of these definitions the energy side of the issue is highlighted, while in others it is the security side. Definitions that focus on safety include physical security. As the name suggests, the economic importance of energy is the focus of energy-oriented approaches. In this case, energy security means three sides of the issue: first, the security of energy consumption, second, the security of energy production, and third, the security of energy transportation.

This article examines the issue of energy security in the light of the processes taking place in the world in recent years. In particular, the conflicts in the Near East over the past decade, as well as the impact of the coronavirus pandemic on global energy security in 2020, which has affected the world's developing countries, have been extensively analyzed. For this purpose, reports and statistics of a number of international organizations were used.

The processes taking place in the modern world affect by World Energy Security. All the processes taking place in the political, military and healthcare sectors have a major impact on energy demand and energy prices at the international level. Consequently, the satisfaction of the world's energy needs depends on other factors, such as the exploitation of energy resources as well. This dependency suggests that ensuring the security of the sector requires more attention than in previous decades. At the same time, the direct dependence of the development of the world's countries on energy justifies the importance of cooperation between exporting countries and importing states in the issue of ensuring energy security in the near future.

***Keywords:*** *energy security, energy geopolitics, energy production*

***Резюме***

***Ламия Ахундова***

***Международная энергетическая безопасность как важный компонент международной безопасности***

Начиная с двадцатого века энергетическая безопасность стала важной частью международной и национальной безопасности. В наше время как с точки зрения производства и потребления, так и с точки зрения импорта и экспорта, а также безопасности транспортировки энергоносителей являются основными компонентами энергетической безопасности.

Одним из основных моментов предлагаемых определений энергетической безопасности является то, что в некоторых из этих определений подчеркивается энергетическая сторона вопроса, в то время как в других-это сторона безопасности. Определения, которые фокусируются на безопасности, включают физическую безопасность. Как следует из названия, экономическая важность энергии находится в центре внимания подходов, ориентированных на энергию. В данном случае энергетическая безопасность означает три стороны вопроса: во-первых, безопасность потребления энергии, во-вторых, безопасность производства энергии и, в-третьих, безопасность транспортировки энергии.

В данной статье рассматривается вопрос энергетической безопасности в свете процессов, происходящих в мире в последние годы. В частности, были подробно проанализированы конфликты на Ближнем Востоке за последнее десятилетие, а также влияние пандемии коронавируса на глобальную энергетическую безопасность в 2020 году, которая затронула развивающиеся страны мира. Для этой цели использовались отчеты и статистические данные ряда международных организаций.

Процессы, происходящие в современном мире, затрагивают мировую энергетическую безопасность. Все процессы, происходящие в политическом, военном и медицинском секторах, оказывают серьезное влияние на спрос на энергоносители и цены на энергоносители на международном уровне. Следовательно, удовлетворение мировых энергетических потребностей зависит и от других факторов, таких как эксплуатация энергетических ресурсов. Эта зависимость говорит о том, что

обеспечение безопасности сектора требует большего внимания, чем в предыдущие десятилетия. В то же время прямая зависимость развития стран мира от энергетики оправдывает важность сотрудничества между странами-экспортерами и государствами-импортерами в вопросе обеспечения энергетической безопасности в ближайшем будущем.

***Ключевые слова:*** *энергетическая безопасность, энергетическая геополитика, производство энергии*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 327**

# I DÜNYA MÜHARİBƏSİNDƏN SONRA FRANSA-TÜRKİYƏ BMM HÖKUMƏTİNİN YAXINLAŞMASININ İQTİSADİ SƏBƏBLƏRİ

**Şəfa ƏBDÜRRƏHİMOVA***

*Məqalə redaksiyaya daxil olmuşdur: 18 aprel 2022; çapa qəbul edilmişdir:20 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*
*Received:18 th of April, 2021; accepted: 20 th of May , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər**: Türkiyə, Fransa, Birinci Dünya müharibəsi, beynəlxalq vəziyyət, maraqlar, əlaqə*

## Giriş

İnsanların, onların yetişdirdikləri liderlərin, dövlətlərin təbiəti elədir ki, onlar heç vaxt mövcud vəziyyətlə, nail olduqları ilə qənaətlənmək istəmirlər. Aqressiv və istilaçı iddialar mütləq müharibələrə gətirib çıxarır. I Dünya müharibəsi çox sayda dövlətlərin maraqlarının toqquşduğu müharibələrdən idi.

Kompyen barışığının imzalanması ilə əhalisi 1 mlrd. nəfərdən çox olan 34 ölkənin və səfərbərliyə alınmış 74 mln. nəfərin iştirak etdiyi Birinci Dünya müharibəsi sona çatdı. Müharibədə təxminən 10 mln. nəfər öldürüldü və 20 mln. nəfər yaralandı. Müharibəyə külli miqdarda vəsait xərcləndi. Birbaşa hərbi xərclər 208 mlrd. dollar təşkil edirdi (1, s. 72).

Müharibədən məğlub çıxan Osmanlı dövləti 1918-ci il oktyabrın 30-da Mudros barışığını imzalamağa məcbur oldu, bununla da dövlətin vəziyyəti xeyli ağırlaşaraq müttəfiqlərdən asılı hala düşdü. Bu müqavilənin şərtləri Osmanlı torpaqlarının qalib dövlətlər tərəfindən işğal olunması üçün başlanğıc oldu.

Müharibə nəticəsində dünyanın siyasi xəritəsində olan ciddi dəyişikliklərdən biri də Osmanlı imperiyasının parçalanması idi.

Birinci dünya müharibəsi başa çatdıqdan sonra dünyanın ərazi cəhətdən bölüşdürülməsi və dünya hökmranlığına nail olmaq uğrunda mübarizə Paris sülh konfransında davam etdi. Bu konfransda Almaniya və onun müttəfiqləri ilə sülh müqavilələri imzalanmalı idi.

## 1. Fransanın Türkiyə siyasəti

Türkiyədə külli miqdarda kapital qoyuluşuna malik olan Fransa İngiltərənin Yaxın Şərq siyasətinə öz mövqeyinə qarşı ciddi təhlükə kimi baxırdı. İngiltərənin müharibə illərində imzalanan gizli müqavilələrlə Fransaya vəd edilmiş Suriya, boğazlar və İstanbula olan iddiaları Fransanı daha çox narahat edirdi. Buna görə də, Fransa nümayəndələri konfransda İngiltərə planlarına qarşı çıxış edirdilər. Onlar İstanbulun beynəlxalq nəzarət altına verilməsinə Sultanın İstanbulda qalması şərti ilə razı idilər. Bununla bərabər, Fransa Kilikiyanı zəbt etmək və oradan şimala öz nüfuz dairəsini genişləndirmək niyyətində idi. Amma bu ərazidə Fransanın marağı ABŞ-ın marağı ilə toqquşurdu. ABŞ, Kilikiyanı ermənilərə verməklə öz nəzarəti altında Böyük Ermənistan yaradılmasını irəli sürürdü (2, s. 48).

Türkiyənin bölüşdürülməsi nə qədər uzanırdısa, bir o qədər müttəfiqlərarası münasibətlər gərginləşirdi. Uzun sürən müzakirələrdən sonra Türkiyənin parçalanmasına dair ilkin razılaşma əldə edildi və bu razılaşmaya əsasən Fransa Yaxın Şərqə göndərilən komissiyanın hesabatını gözləməklə müvəqqəti olaraq Suriyaya mandat alırdı.

* *dissertant, Azərbaycan Dillər Universiteti*
*e-mail:* chafouniya85@yahoo.fr

Beləliklə, Paris sülh konfransında Türkiyə məsələsi geniş müzakirələrə səbəb olsa da, heç bir nəticə əldə etmək mümkün olmadı. Türkiyə məsələsi müzakirə olunan zaman mənafelərin toqquşması müttəfiqlərarası münasibətlərə təsirsiz ötüşmür, vəziyyəti daha da gərginləşdirirdi.

конкурентоспособным и открытым рыночным системам в развитых странах может не обязательно быть хорошим примером для стран, в которых до сих пор отсутствует базовая инфраструктура. Следует помнить, что инфраструктура как в Северной Америке, так и в Великобритании в основном создавалась в рамках тех самых режимов регулирования, которые отвергает либерализация и которые обеспечивают безопасность и возврат инвестиций».

***Ключевые слова****: газовый рынок, либерализация, газовая промышленность, добыча газа, Соединенные Штаты Америки, Великобритания*

Redaksiya heyətinin üzvü s.e.d., prof. Ryabova Yelena Lvov qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 321.8:331.107**

# РАЗРАБОТКА ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ ДЛЯ ЭФФЕКТИВНОЙ РАБОТЫ ОРГАНОВ В САМОУПРАВЛЕНИИ

**Сабина ГУСЕЙНОВА***

*Məqalə redaksiyaya daxil olmuşdur: 24 aprel 2022; çapa qəbul edilmişdir:26 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received:24 th of April, 2021; accepted: 26 th of May , 2022; published online: 30 th of June, 2022*

***Ключевые слова***: *органы самоуправления, муниципалитеты, эффективное функционирование, информационные технологии*

## Введение

Целью данной статьи является выявление факторов, влияющих на развитие информационных технологий для эффективного функционирования органов самоуправления. «Электронный муниципалитет» – это совокупность критериев, принципов и технологий, которые позволяют органам местного самоуправления создавать комплексные решения по автоматизации рабочих процессов. Все прикладные системы электронного правительства должны соответствовать четырем ключевым критериям: масштабируемость, интероперабельность, мобильность и удобство для пользователя.

## Повышение эффективности местных администраци

Основной задачей, стоящей перед процессом применения ИКТ в сфере муниципального управления, является повышение эффективности местных администраций. Без достижения этого должно быть обеспечено конституционное право граждан на доступ к информации, в том числе обеспечение удобного и эффективного использования этой информации гражданами государством. Кроме того, работа в этом направлении должна проводиться параллельно с комплексом организационных мероприятий по обеспечению координации деятельности в сфере информатизации, выявлению типовых требований к эффективности государственных и муниципальных расходов на информатизацию и применение.

Обеспечение квалифицированными кадрами процесса информатизации также находится в зачаточном состоянии. ¾ часть муниципальных органов власти испытывает нехватку специалистов в области ИКТ. В то же время более половины органов местного самоуправления не имеют профильных ИТ-подразделений. Некоторые муниципалитеты решают проблему информатизации с помощью профессиональных подрядчиков или с помощью разрозненных кадров внутри аппарата.

Использование ИКТ в органах местного самоуправления является одним из приоритетов административной реформы. В настоящее время информатизация охватывает не только органы государственного управления с высокими уровнями управления, но и органы местного самоуправления [6, с. 127] Несмотря на то, что на ИТ для государственного управления выделяются большие суммы денег, по-прежнему существует потребность в повышении эффективности муниципальных органов.

* *магистрант, Академия государственного управления при Президенте Азербайджанской Республики*
*e-mail:* sabina.huseynovaa111@gmail.com

Применение ИКТ в местном самоуправлении основано на так называемом принципе «трех инструментов». Это нормативно-правовая поддержка, финансирование и подготовка квалифицированных кадров. Опрос показал, что большинство муниципалитетов сталкиваются с трудностями из-за этих трех принципов.

Первым шагом в применении ИКТ является подготовка стратегии или программы информатизации местного самоуправления. К сожалению, в большинстве муниципалитетов такой программы нет. Несколько иная ситуация в сфере нормативно-правового обеспечения представительства муниципальных образований на интернет-ресурсах. В настоящее время разрабатывается законодательство в этом направлении. Причина такого правового пробела в том, что при отсутствии поддержки со стороны центра чиновники вынуждены заниматься многими аспектами законодательства самостоятельно, не имея соответствующего опыта. [7, с. 17]

**Важными проблемами, стоящими перед применением ИКТ**

Важными проблемами, стоящими перед применением ИКТ в деятельности органов местного самоуправления, являются в основном нехватка финансовых и квалифицированных кадров, пробелы в нормативно-правовой базе.

В целях совершенствования внедрения электронного правительства органы местного самоуправления должны выполнять следующие задачи [8, с. 20]:

- создание в муниципальном образовании соответствующей инфраструктуры для оказания муниципальных услуг в электронной форме;
- формирование и развитие сайтов местного самоуправления для получения информации о деятельности органов местного самоуправления и муниципальных служб;
- обеспечение доступа населения к инженерным сетям через пункты общего доступа и информационные терминалы;
- подготовка информации о муниципальных услугах, организация работы по размещению информации на порталах государственных и муниципальных услуг;
- участие в программе применения единой электронной карты гражданина;
- предоставление заказов на поставку товаров, работ и услуг для муниципальных нужд с использованием электронных торговых площадок;
- организация использования электронного документооборота в деятельности органов местного самоуправления;
- участие в создании единой системы взаимного взаимодействия органов власти на электронном уровне;
- формирование важных информационных ресурсов, таких как реестр, реестр;
- меры по обеспечению информационной безопасности;
- пересмотр схемы функционирования и развития с учетом условий подключения существующих муниципальных информационных систем к оказанию муниципальных услуг в электронной форме;
- в связи с тем, что управление процессом информатизации не входит в полномочия дотационных органов местного самоуправления, возникают следующие проблемы;
- расходы на информатизацию и создание информационных ресурсов не включаются в бюджет муниципальных территорий. Опыт показывает, что при изменении бюджета в первую очередь сокращается финансирование программ информатизации, предусмотренных целевыми муниципальными программами [9, с. 325];
- поскольку большинство муниципалитетов не имеют полномочий, в штатном расписании отсутствуют структурные подразделения. Отделы информатизации должны действовать в составе муниципальных предприятий без статуса муниципальных служащих. Это приводит к тому, что работа в сфере муниципальной информатизации не престижна, что приводит к текучести кадров;

Отдел информатизации органа местного самоуправления не может формировать техническую политику по информатизации в целом в муниципальном образовании и управлять процессом информатизации без необходимого статуса.

**Заключение**

В настоящее время электронный документооборот в нашей стране становится уникальным инструментом эффективной работы всех государственных органов. Эта система позволяет централизованно управлять работой всех органов управления, включая систему удаленных рабочих мест для руководителей. Это улучшит рабочий процесс в государственных органах, ускорит документооборот за счет согласования документов и сокращения времени подготовки, позволит муниципальным служащим более эффективно использовать свое время и ресурсы.

Если применить соответствующий раздел к муниципальной деятельности, то будут созданы условия для эффективного информационного и оперативного эффективного взаимодействия муниципалитетов с отдельными органами государственного управления, предприятиями, общественными объединениями и организациями. Для этого, в первую очередь, необходимо совершенствование единого межведомственного Положения о системе электронного документооборота органов государственной власти.

## ЛИТЕРАТУРА

1. ICT, Urban Governance and Youth, UN "Youth-led Global Development" deleted reports, Nairobi, 2014, 390 p.
2. Smart Cities qeyri-mənfəət təşkilatı, Creating Municipal ICT Architectures, Smart City Reference Guide. Berlin, 2010. 280 p.
3. Azim A. Z., Basiri M., Somekh M. F. Fundamentals of the Organizational Architecture of the Electronic City and Electronic Municipality, Tabriz, 2014, 390 p.
4. Balokko R., Chappini A., Rangone A. Information Systems Management, Kuala Lumpur, 2013, 267 p.
5. Klimushin P.S., Thanks to D.V. Electronic Management Mechanisms in the Information Society. Kharkov, 2017, 450 p.
6. Meyer A., Bannister F., M. Tans. ICT, Governance and Democracy in the Coming Decade", Amsterdam, 2013, 313 p.
7. Nixon Muganda. E-Government Implementation: Reflections on South African Municipalities, South Africa, 2017, 350 p.
8. Relhan G., Ionkova K., R. Hooke. Africa's Urban and Water Economy, World Bank, Washington, 2010, 340 p.
9. Zaygam Mahmud. E-Government Implementation and Practice in Developing Countries, New York, 2013, 220 p.

***Xülasə***

***Səbinə Hüseynova***

***Özünüidarəetmə orqanlarının səmərəli fəaliyyəti üçün informasiya texnologiyalarının inkişafı***

Elektron bələdiyyə idarəetməsi texnologiyanın istifadəsini aktuallaşdırır, inteqrasiya prosesləri də daxil olmaqla birbaşa şəffaf idarəetmə mexanizmlərinə daxil olur. İnteqrasiya olunmuş elektron bələdiyyə sistemində informasiya məkanında təhlükəsizlik mexanizmlərini, elektron əməkdaşlığı, şəffaflığı nümayiş etdirən nəzarət və hesabatlılığı olan açıq hökuməti qeyd etmək olar.

İnformasiya texnologiyalarının tətbiqi və onlardan fəal istifadə edilməsi icra hakimiyyəti orqanlarının fəaliyyətinin keyfiyyətinə və səmərəliliyinə, qəbul edilən dövlət idarəetmə qərarlarının düzgünlüyünə və səmərəliliyinə

təsir göstərir. İnformasiyalaşmanın qanunvericilik bazası informasiya cəmiyyətinin inkişafının sabit mütərəqqi templərini qoruyub saxlamaq üçün daim yenidən baxılmasını və təkminləşdirilməsini tələb edir.

Sənəd dövriyyəsi sahəsində informasiya texnologiyaları dövlət və bələdiyyə idarəetmə orqanlarının əsas fəaliyyət sahələrindən bazarda digər xarici proqram vasitələri ilə müqayisədə populyarlaşır, hakimiyyət orqanlarının qarşısında qoyulan tələblərin geniş dairəsini təmin edən zəruri elektron sənəd dövriyyəsi sistemləri ilə inkişaf etdirilməsi və təmin olunması meylləri və perspektivləri vardır.

İdarəetmənin informasiya məkanına inteqrasiyası, ilk növbədə, vətəndaşların elektron xidmətlərə çıxışının təmin edilməsi, istifadəçilərin təhlükəsizlik mexanizmlərinin tətbiqi vasitəsilə onların informasiyasının qorunması və qorunması xidmətlərini birləşdirir. Başqa sözlə, informasiya texnologiyaları informasiyanın toplanması, saxlanması və emalı prosesini optimallaşdırmaq və personalın fəaliyyətini asanlaşdırmaq üçün lazımdır.

Hazırda dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliliyinin artırılması, ərazinin sosial-iqtisadi vəziyyətinin dəyişdirilməsi meyllərinin daha dolğun və vaxtında nəzərə alınması və inkişaf perspektivlərinin müəyyən edilməsi üçün müasir informasiya texnologiyaları əsasında çoxaspektli tematik bazalara əsaslanan inkişaf etmiş informasiya analitik sisteminin yaradılması aktualdır.

İnformasiya analitik sistemləri idarəetmə qərarlarının qəbul edilməsi üçün effektlidir, çünki ərazinin inkişafını səciyyələndirən proseslərin modelləşdirilməsinə, çoxvariant ssenari hesablamalarını yerinə yetirməyə imkan verir.

İnformasiya texnologiyalarının düzgün tətbiqi zamanı informasiyanın böyük həcmlərini saxlamaq və təhlil etmək, qanunauyğunluqları aşkar etmək və bələdiyyə idarəetmə strukturlarının fəaliyyətinin səmərəliliyini artırmaq imkanı yaranır. Nəticədə, nəinki qərar qəbul etmək üçün lazım olan müddət azalır, həm də əhalinin idarə edilməsi və həyat keyfiyyəti artır.

İdarəetmə orqanlarının effektiv işləməsi üçün informasiya texnologiyalarının hazırlanmasının əsas çətinlikləri aşağıdakılardır: kifayət qədər maliyyələşdirmə, kadr hazırlığının aşağı səviyyəsi. Həmçinin informasiya resurslarının və vahid kadastr və qeydiyyat sisteminin tətbiqində vahid yanaşmanın olmaması, informasiyanın tam əlçatmazlığı müşahidə olunur. Bundan əlavə, həm dövlət qulluqçuları, həm də əhali tərəfindən informasiya texnologiyalarından istifadə sahəsində praktiki vərdişlərin olmaması müşahidə olunur.

***Açar sözlər:*** *özünüidarəetmə orqanları, bələdiyyə, səmərəli fəaliyyət, informasiya texnologiyaları.*

***Summary***

***Sabina Huseynova***

***Development of Information Technologies for Effective Work of Bodies in Self-Government***

Electronic municipal management actualizes the use of technologies, including integration processes directly into transparent management mechanisms. In the integrated system of the electronic municipality, it is possible to distinguish security mechanisms in the information space, electronic cooperation, open government with control and accountability, demonstrating transparency.

The introduction of information technologies and their active use affects the quality and effectiveness of the activities of executive authorities, the correctness and rationality of public administration decisions. The legislative base of informatization requires constant revision and improvement in order to maintain a stable progressive pace of development of the information society.

Information technologies in the field of document management, as in one among the key areas of activity of state and municipal authorities, they are popular in the market compared to other foreign software tools, have trends and prospects for the development and provision of authorities with the necessary electronic document management systems that meet a wide range of requirements.

Integration of management into the information space, first of all, combines services to provide citizens with access to electronic services, storage and protection of their information through the use of user security mechanisms. In other words, information technologies are needed to optimize the process of collecting, storing and processing information and to facilitate the activities of personnel.

Currently, in order to increase the efficiency of the work of public authorities and local self-government, to more fully and timely take into account existing trends in the socio-economic situation of the territory and determine the prospects for its development, it is important to create a developed information analytical system based on modern information technologies based on multidimensional thematic databases.

Information analytical systems are effective for making managerial decisions, as they allow modeling processes characterizing the development of the territory, performing multivariate scenario calculations, as well as a comprehensive analysis of interrelated subsets of indicative macro indicators.

With the proper implementation of information technologies, it becomes possible to store and analyze large amounts of information, identify patterns and improve the efficiency of municipal government structures. As a result, not only the time required for decision-making is reduced, but also the quality of management and life of the population is improved.

The main difficulties in developing information technologies for the effective work of bodies in self-government are: insufficient funding, low level of staff training. There is also a lack of a unified approach in the use of information resources and a unified system of cadastres and registers, incomplete availability of information. In addition, there is a lack of practical skills in the use of information technology, both on the part of civil servants themselves and the population.

***Keywords:*** *self-government bodies, municipalities, efficient operation, information technology*

Şöbə redaktoru s.e.d., prof. Nəsirli Elman Xudam oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

***FİLOLOGİYA***

**UOT 82**

# NƏCMƏDDİN KÜBRƏVİDƏN HƏSƏNOĞLUNUN ŞEYXİ ƏHMƏD ZAKİRƏ QƏDƏR: TƏSƏVVÜFİ DÜŞÜNCƏ TARİXİNƏ BİR NƏZƏR

**Seyfəddin ALTAYLI***

*Məqalə redaksiyaya daxil olmuşdur: 18 aprel 2022; çapa qəbul edilmişdir:20 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received:18 th of April, 2021; accepted: 20 th of May , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər**: təsəvvüf, təriqət, Arslan Baba, yəsəvilik, kübrəvilik, Şeyx Əhməd Zakir Gürpani*

## Giriş

Müqəddəs kitabımız Qurani-Kərimin "Təriq" surəsinin 1-3-cü ayələrində "Göyə və təriqə and olsun. Təriqin nə olduğunu haradan biləcəksən? O (işığıyla qaranlığı) deşən bir ulduzdur" (21, s. 557; 6, s. 590) deyə buyurulmuşdur. Zöhrə – sübh ulduzunun adı da təriqdir (24, s. 1166). "Təriq" burada yolu nişan verən, bələdçi anlamındadır. Təriq həm də yol anlamında (2, s. 3287; 20, s. 95) olub Tanrıya aparan, ona çatdıran vasitə anlamındadır. Təriqət əslində təsəvvüflə bağlı məlumatların və biliklərin öyrədildiyi yer, qurum olub dinin əsasını dərk edərək, Tanrının rizasını qazanmaq, həm dünyada, həm də axirətdə səadəti əldə etməyi məqsəd götürən bir vasitədir.

Təriqətlər miladi VIII yüzillikdə yaranaraq, hz. Məhəmmədə və Tanrıya mənəvi yöndən çatmaqda insanlara rəhbərlik edən bir mürşidə bağlı olan müridlərin və ya dərvişlərin hərəkətləri, davranışları ilə əlaqəli olaraq müəyyən edilmiş əxlaqi, mənəvi, ictimai qaydaların tamamını əhatə edən, buna görə yaradılmış qurumlardır (8, s. 28).

Kübrəvilik təriqətini yaradan şeyx Nəcməddin Kübranın xəlifələri Şeyx Məcdüddin Bağdadî (ö. 1209), Sədəddin Həməvi / Hammavi (ö. 1252), Raziyüddin Əli Lələ (ö. 1244), Seyfəddin Baxərzi (ö. 1259), Nəcməddin Dayə Razi (ö. 1256), Baba Kamal Cündi (ö. 1273), Eynüzzaman Camaləddin Geyli / Gili (ö. 1253) (7, s. 870; 3, s. 54), *"Təzkirətü'l-övliya"* adlı əsərin yazarı Fəridəddin Əttar Nişaburi də Nəcməddin Kübranın xəlifəsi Şeyx Məcdəddin Bağdadinin mürididir (7, s. 870). Bəzi araşdırıcılar Mövlananın atası Bahaəddin Vələdin də Nəcməddin Kübranın xəlifəsi olduğunu söyləmişlər (7, s. 654). Aparılan araşdırmalarda Nəcməddin Dayə Razi, Bahaəddin Vələd, onun xəlifəsi Bürhanəddin Mühəqqiq Tirmizî və müridlərinin kübrəvilik təriqətinə mənsub olduğu aydın olmuşdur (19, s. 36).

Nəcməddin Kübranın xəlifəsi Raziyəddin Əli Lələnin adı ***Əli b. Səid b. Əbdülcəlil Lələ Qəznəvi***dir. Atası Şeyx Səid Həkim Sənainin əmisioğludur. Cüveyn vilayətində Xosrovi-Şirgirdə dünyaya gəlmişdir. Təsəvvüfə könül verib illər uzunu dolanıb durmuş, Asiya qitəsinin bir çox yerində olmuş və dörd yüz şeyxdən icazət almışdır. Tanınmış bir sufi olan Əli Lələ Hindistanda belə mənqəbəsi dillərdə dolanan və 1400 il yaşadığı iddia edilən, bir rəvayətə görə də hz. İsanın həvvarilərindən ***Əbu Rza Baba Rətən Hindi*** ilə görüşmüş, ondan hz. Məhəmmədin özü üçün bağışladığı darağını da almışdır. Şeyx Əli Lələ xəlifə Mütəsim zamanında (9 avqust 1244) vəfat etmiş və Xorasanda dəfn edilmişdir, Qəznəli Həkim Sənainin əmisi oğludur (15, s. 74).

* *filologiya üzrə fəlsəfə doktoru, dosent, Bakı Avrasiya Universiteti*
e-mail: altayli_s@yahoo.com

“Nəfahatül-üns”ə görə isə, atası Şeyx Səid Sənainin əmizadəsidir. “Nəfahatül-üns”ə görə, onunla bağlı bu məlumatlar qeyd edilmişdir:

“Şeyx Nəcməddin Kübra hədis yığmaq üçün Həmədana getmiş, Şeyx Lələ ora təqribən 5 km məsafədə yaşayırmış. Əli Lələ o gecə bir yuxu görmüş, onu atasına danışmış və atasının da tövsiyəsi ilə yuxusunda gördüyü şeyxi axtarmağa başlamış, ancaq Nəcməddin Kübranın Xarəzmə getməsinə kimi axtarışı davam etsə də, tapa bilməmişdir. Nəcməddin Kübra Xarəzmə gedib təriqətini yaymağa başlamış, bu əsnada Şeyx Əli Lələ Türküstanda Şeyx Əhməd Yəsəvinin təkkəsində imiş. Bir gün Xarəzmdən biri onun dərgahına gəldiyində Əli Lələ o anda xəlvətdə imiş. Şeyx Əhməd həmin dərvişə – *Xarəzmdə dərviş var*? - deyə sorduqda - *Bəli, biri gəlib indilərdə xalqı irşad edir və bir az da müridi vardır* demiş, Yəsəvi adını sorduqda o – *Nəcməddin Kübradır* deyə cavablamış Şeyx Əli Lələ onun eşidər-eşitməz xəlvətdən sürətlə çıxıb qurşağını bağlamış və yol hazırlığı görməyə başlamışdır. Əhməd Yəsəvi ona hazırlığının səbəbini sorduqda – *Yola çıxacağam demişdir*. Yəsəvi də – *Gözlə qış ötsün gedərsən* dedikdə Əli, - *Gözləyəcək halda deyiləm, səbrim çatmır* deyib yola düşmüş, gedib Nəcməddin Kübranın xidmətinə girərək müridi olmuşdur. Uzun bir müddətdən sonra da Şeyx Məcdəddinin müridi olmuşdur. Şeyx Nəcməddin təriqətini yayarkən otuz beş yaşına çatmaq üzrə imiş. Şeyx Məcdəddin isə Şeyx Əli Lələdən üç dörd yaş böyükmüş. Əli Lələ miladi 1244-cü ildə rəbbiül-əvvəl ayının 3-də (9 avqust) vəfat etmişdir” (7, s. 667-669).

Şeyx Nəcməddin Kübranın bir digər xəlifəsi olan Nəcməddin Dayə Razidir. Kübra onunla birlikdə Əli Lələnin təlimi üçün Məcdəddin Bağdadini vəzifələndirmiş və Dayə bu şəkildə təsəvvüfə addım atmışdır (3, s. 43-48).

*“Mirsadül-ibad”, “Təfsiri-Bəhri-həqaiq”* kimi əsərləri olan Dayə Razi Çingiz xanın Xarəzmə basqın etməsindən öncə şeyxi Nəcməddin Kübranın təlimatına uyaraq Anadoluya getmiş, şeyx Sədrəddin Konəvi və Mövlana Cəlaləddin Rumi ilə görüş keçirmiş, 1256-cı ildə Bağdadda vəfat etmişdir (7, s. 666-667).

*“Nəfhatül-üns”*ə görə, Şeyx Bahaəddin Vələd Şeyx Nəcməddin Kübranın xəlifələrindəndir, hz. Əbubəkrin nəslindəndir. Anadolu Səlcuqlu dövləti sultanı Ələddin Keyqubad onları Konyaya dəvət edincə oraya gedib məskunlaşmışlar. Bahaəddin Vələd burada vəfat etmişdir (7, s. 691-692).

Nəqşibəndi təriqəti Türküstanda xacəqan adıyla Əhməd Yəsəvi ilə birlikdə Yusif Həmədaninin öncə müridi, sonra da xəlifəsi olan Əbdülxaliq Qucdüvani tərəfindən qurulmuş daha sonrakı dönəmlərdə Buxaraya yaxın Qəsri-Arifa kəndində dünyaya gəlib burada da vəfat edən şeyx Məhəmməd Bahaəddin Nəqşibəndin (1318-1389) adını almış, Morakkodan İndoneziya, Çin, Şərqi Afrika, Anadolu, Qafqaza və Volqa boyuna kimi olan sahələrdə yayılmışdır.

Nəqşibəndilik XV-XVI yüzilliklər arasında Orta Volqa və Ural bölgəsinə sirayət edərək Yəsəvi və Qədiri təriqətini, XVII-XVIII yüzillərdə Xəzər və ətrafı, Dağıstan bölgəsi, XIX yüzildə Çeçenistan, Orta və Qərbi Qafqaza yayılaraq, yəsəvilik və ondan nəşət edən kübrəvilik təriqətlərini öz bətninə alaraq əritmişdir (5, s. 80).

Əbdülxaliq Qucdüvaninin atası imam Malikin nəslindən Əbdülcəmildir. Malatya sultanı düşmənləri tərəfindən şəhərdən çıxarılmış, ancaq Əbdülcəmil sultanın təkrar şəhərə qayıtmasına nail olmuş və sultan da 113 yaşında olmasına baxmayaraq, qızını ona vermiş ondan Əbdülxaliq olmuşdur. Atası bilinməyən bir səbəblə Malatyanı tərk edib Qucduvan kəndinə getmişdir. Əbdülxaliq burada dünyaya gəlmiş, öncə şəhərin tanınmış şeyxlərindən dərs almış sonra da Yusif Həmədaninin öncə müridi sonra da xəlifəsi olmuşdur (1, s. 169-170). O bir gün şeyxi Yusif Həmədaniyə xəlifələrinin kimlər olacağını sormuş, o da: “*Mənim xəlifəm xacə Abdullah Bərki (ö.1160) olacaq, ondan sonra xacə Həsən Əndaki (ö.1157), ondan sonra Əhməd Yəsəvi olacaqdır. Xilafət növbəsi Əhmədə gəldikdə o, Türküstana gedəcək sən burada xəlifə olacaqsan*” deyə cavab vermişdir (16, s. 131).

Əmir Teymurun nəsli nəqşibəndi şeyxlərinə xüsusi diqqət göstərmiş, XVI yüzillikdə Şeybanilər dönəmində hökmdar xanədanının tamamı bu təriqətin müridləri olmuş və beləliklə, nəqşibəndilik Mavəraünnəhr bölgəsində böyük önəm və nüfuz qazanmışdır (16, s. 190).

Nəqşibəndi təriqəti həm xalqa, həm də elitaya xitab edərək, hərəkətlərini gündəlik həyatın gedişatına görə uydurmuş, qeyri-müsəlmanlara qarşı mötədil davranmış, işğalçı xristian imperialistlərə qarşı cihad metodunu özü təyin edərək, təsəvvüf düşüncəsini qurumlaşdırıb siyasi, ictimai və mədəni həyatın tamamlayıcısı olmuş, beləliklə, digər təriqətləri öz çətri altına alaraq əritmişdir.

Nəqşibəndi təriqəti, Anadoluda olduğu kimi, Azərbaycanda da yayılıp inkişaf etmişdir. Azərbaycanda bu təriqəti ilk yayan şəxs İsmayıl Şirvani əfəndi (5, s. 95) öncə Şamaxıda mədrəsə təlimi aldıqdan sonra təhsilini Ərzincan və Tokatda mədrəsədə davam etdirmiş, daha sonra Şamaxıya qayıdaraq, bir müddət mollalıq etmişdir. Mövlana Xalidin dərgahına girərək onun müridi olan İsmayıl əfəndi Kürdəmirdə nəqşibəndilik təriqətini yaymış, sonra da Anadoluya gedərək irşad fəaliyyətini burada yeritmiş, 1848-ci ildə Amasiyada vəfat etmişdir (18, s. 4).

Nəqşibəndi təriqəti Azərbaycan vasitəsilə Qafqaz bölgəsində də geniş kütlələr tərəfindən mənimsənmişdir. Mütəsəvvif İsmayıl Şirvani əfəndi bir çox mürid yetişdirmiş və Qafqaz bölgəsində nəqşibəndi təriqətinin yayılmasında önəmli işlər görmüşdür. Xas Məhəmməd Şirvani Dağıstanın Yaraq kəndində irşad vəzifəsini yeridərkən müridi Molla Məhəmməd Yaraqlını Kürdəmirə İsmayıl Şirvani əfəndiyə yollamış, o da Molla Məhəmmədi yetişdirərək Dağıstana qaytarmış, Molla Məhəmməd də Camaləddin Qumukini yetişdirərək ona icazətnamə vermişdir. Camaləddin Qumuki də Qazı Məhəmməd və Şeyx Şamili təriqətə cəlb edərək yetişdirmiş, Şamil də Xamzat bəyin ölümündən sonra imam seçilmiş və iyirmi beş il Ruslara qarşı yeridilən azadlıq hərəkatının başına keçmişdir (18, s. 6).

Seyid Mir Həmzə Nigari də bu təriqətə mənsub bir mütəsəvvifdir. Azərbaycanın Qarabağ bölgəsində doğulub boya-başa çatmış, ölkənin bütün bölgələrində tanınan və hörmət göstərilən bir nəqşibəndi şeyxi olmuşdur. Qafqazda rus işğalçılığına qarşı yeridilən Müridizm hərəkatını dəstəkləmiş və çar idarəsi tərəfindən təqibata uğrayınca 1851-1852-ci illərdə Ərzuruma gedərək bir müddət burada qalmış sonra İstanbula getmiş və burada böyük bir mühit yaratmış, 1858-1859-cu ildə təkrar Ərzuruma qayıdaraq təriqətlə bağlı çalışmalarını yeritmişdir. 1866-67-cı ildə Amasiyanın Mərzifon qəsəbəsinə gedərək, burada məskunlaşmış, hər gün artan müridləri idarəçiləri nigaran etdiyindən öncə Samsuna, sonra da Harputa sürgün edilmiş, 1885-ci ildə vəfat etdikdən sonra nəşi yaxınları tərəfindən aparılaraq, vəsiyyətinə görə Amasiyada dəfn edilmişdir (18, s. 6-7). Yazdığı şeirlər bu gün də, xüsusilə Gürcüstan hakimiyyətindəki Borçalı bölgəsində yaşayan Azərbaycan türkləri arasında "*meyxana*" deyilən zikir törənlərində oxunmaqdadır.

**Şeyx Camalüddin Əhməd Zakir Gurpani/Cürfani İsfərayini**

Şeyx Camaləddin Əhməd Zakir İsfərayini Şeyx Nəcməddin Kübranın xəlifələrindən Şeyx Raziyəddin Əli Lələnin dostlarındandır və kübrəviyyə təriqətinə mənsubdur (7, s.669). Şeyx Əhməd Zakir İsfərayində doğulmuşdur, ancaq dünyaya gəldiyi il qəti olmamaqla birlikdə böyük ehtimalla hicrətin 580-590-cı illəri arasında dünyaya gəldiyi fikirləşilməkdədir. İsfərayin (Farslar bu bölgəyə Əsfərayin deyirlər-S.A) qədim çağlardan bəri bir çox ariflərin, mütəsəvviflərin doğma yurdu olmuş və xalqının tamamı türkdür. Şeyx İzzəddin Həsənoğlu bölgənin ən tanınmış mütəsəvvüf şairi olub adı Misir, Hələb, Anadolu və Azərbaycanın tamamında yayılmışdır. Şeyx Camaləddin Əhməd Zakir onun şeyxidir. Araşdırmalarda Şeyx Zakirin çap olunmamış bir əlyazmada 39 türkcə qəzəlinin olduğu, onlardan yalnızca dördünün üzə çıxdığı, lakin bunların da çap olunmadığı irəli sürülmüşdür. Şeyx Əhməd Zakir Şeyx Raziyəddin Əli Lələnin çox sevdiyi şeyxlərindən biri və daim tərki-dünyalığı mənimsəyib sufi həyatı yaşayaraq, ömrünü ibadət və zikrlə keçirdiyindən ona "Zakir" deyilmişdir. 1268-ci il tarixində (rəbbiül-axir 667)

cümə ertəsi (altıncı gün) günü vəfat etmiş, İsfərayinin cənub qərbindəki Gurpan/Cürfan kəndində dəfn edilmişdir (12, s. 304; 4, s. 314).

İndiyə kimi Şeyx Əhməd Zakirlə bağlı kifayət qədər məlumat tapılmamışdır. Qulamrza Fəsəngərinin 2000-ci ildə çap olunan *"İsfərayinin tanınmış şəxsiyyətləri"* adlı əsərini 12 il müxtəlif kitabxanalardakı əlyazmalardakı məlumatlar əsasında yazmışdır. Təsəvvüf əhli arasında *Qübbeyi-İslam* kimi qələmə verilən İsfərayinin bir çox alim və tanınmış şəxsiyyəti ilə bağlı yeni məlumatlar həmin əsərdə təqdim olunmuşdur. Azərbaycanın XIII yüzillikdə yetişdirdiyi görkəmli şairi İzzəddin Həsənoğlunun şeyxi Əhməd Zakir Gurpani ilə əlaqəli olaraq əldə edilən yeni məlumatlar həmin kitabın 122-129-cu səhifələri arasında qeyd edilmişdir.[2]

Bədrüdduca (Şeyx Əhməd Zakirin təxəllüsüdür) (9, s. IX) Şeyx Camaləddin Əhməd Zakir Gurpani hicri VII yüzilliyin ariflərindən və kübrəviyə təriqətinin önəmli simalarından biri olmuş, ona *"Zakirlərin sultanı"* deyilmişdir. İsfərayinin Gurpan kəndindən olub, dini elm sahəsində ad qazanmış, Məhəmməd Haşim Dərvişə görə, Şeyx Əhməd Zakir Gurpani, Şeyx Raziyəddin Əli Lələ (h. 642) və Şeyx Nurəddin Əbdürrəhman Kəsrəgi İsfərayininin (h. 722-763) yetişdirdiyi şəxsiyyətlərdir. Şeyx Əhməd Zakir Gurpani təsəvvüf yoluna Şeyx Əli Lələ vasitəsilə düşmüş, sonra Şeyx Nəcməddin Kübranın və şeyx Məcdəddin Bağdadinin (ö. 1219?) irşad dairəsinə girmişdir (9, s. IX; 12, s. 300).

Şeyx Əhməd Zakirin təsəvvüfdə bu dərəcəyə çatmasıyla əlaqəli olaraq, kifayət qədər məlumat yoxdur, ancaq onun müridi olub, VII-VIII-ci yüzilliyin tanınmış ariflərindən və Bağdadda Nuriyə-İsfəraniyyə silsiləsinin qurucusu olan Nurəddin Əbdürrəhman Kəsrəgi İsfərayini "*Kaşifül-əsrar*" adlı əsərində bu məlumatları qeyd etmişdir:

*"İlk dəfə zühdə üz tutan bu fəqir, müqərrib məqamların şərabından, müridlərin məşaribinin zövqündən və müştaqların coşqusundan xəbərsizdi. O zamanlar - Tanrı rəhmət eləsin - Şeyx Əhməd Zakir Gurpaninin (ki, bu fəqir də onun xüsusi müridi idi) xidmətində bir qrup dərviş vardı ki, şeyx onlarla xəlvətə çəkilirdi; amma Şeyx (Əhməd Gurpani) pəpəmə və ümmü olduğu üçün başlarda bu fəqir ona bağlana bilmirdi. Çünki bu qərib onun zahiri görkəminə baxır və bətnində olan ulu sevgini fiziki varlığında axtarırdı. Amma Allah bu fəqirə kəramət bəxş etdiyi üçün Puri-Həsən / Həsənoğlu XIII yüzildə yaşamış arif və şair İzzəddin Həsənoğlu İsfərayini] adıyla tanınan əziz dərvişlərdən biriylə tanış etdi. Sonra – xoşbəxtliyi daim olsun – o əziz insan şeyx və təriqəti haqqında bir az mənə məlumat verdi; onun zikir və xəlvətiylə əlaqəli bəzi şeyləri söylədi. Beləliklə, bu qəribin şeyxə ürəkdən bağlanmasına vasitəçi oldu. Bu hadisə İsfərayinin Kəsrəg kəndində gerçəkləşdi. Kəndin qüzeyində, Şeyx Əbu Bəkr Kəttaniyə məxsus bir xəlvətxana vardı; bu fəqir o əziz insanla burada görüşürdü* (14, s. 19-21).

Hafız Hüseyn İbni-Kərbəlayi "*Rövzətül-cinan*" adlı əsərində Şeyx Əhməd Gurpaninin xüsusiyyətləriylə əlaqəli olaraq bunları yazmışdır:

*"Şeyx Əhməd Zakir Gurpaninin tərki-dünya bir həyat sürməsi və sakit təsəvvüf anlayışı onun ən böyük xüsusiyyəti idi. Gurpaninin "nəfyi-sübut"(sübut etmə) şərtilə "qəviyi-xəfi" (güclü və gizli) zikri eləsinə yayğınlaşmışdı ki, Əli Həmədaninin (h. 713-786) məktəbində onu "dörd ritmli zikrin"*[3] *yaradıcısı kimi bilirdilər. Bu mövzuyla əlaqəli olaraq belə bir rəvayət vardır: "Deyilənə görə, Şeyx İsfərayinin Curfan (Gurpan) kəndində olan bir ağacın altında hz. Məhəmmədi görmüş (yuxuda?!), peyğəmbər ona dörd ritmli zikri yaratmasını təlqin etmiş, o da bunu həyata keçirmişdir. Ondan əvvəl dərvişlər xüsusilə kübrəviyə silsiləsinə bağlı olanlar həmail zikrini həyata keçirirmiş*" (12, s. 300).

Cami "*Nəfəhatü'l-üns*" adlı əsərində bunları qeyd etmişdir:

*"Şeyx öz mürşidi Şeyx Raziyəddin Əli Lələnin vəfatından sonra ömrünün axırına kimi yəni 27 il xalqı irşad etməklə məşğul olmuşdur. Allaha niyaz etməkdə və masivaya istiğnada*[4]

---

[2] Bu məlumatları əldə etməyə yardım etdikləri üçün Urmiya Universitetinin müəllimi cənab Mir Əli Rzai və araşdırıcı-yazar Mehdi Həsəni bəylərə səmimi qəlbdən təşəkkür edirəm.

[3] la ilahə illa Allah

[4] Allahdan özgəsinə möhtac olmamaq

*tayı-bərabəri yox idi. Bir gün tanınmış arif və şeyx Kübranın kamil müridi olan şeyx Sədəddin Hammuyə/Hammavi Cürfana gəlmiş və birini Şeyx Əhməd Zakiri çağırmaq üçün yollayaraq demişdir: Mənə batindən bir işarət gəldi, Şeyx Raziyəddin Əli Lələnin sənə icazətnamə yazdığı kimi, gəl, mən də yazım demişdir*" (7, s. 439). Şeyx xəlvətə çəkildiyi üçün belə cavab vermişdir: "*Mən Ulu Tanrıya icazətnamə ilə ibadət etmərəm*" (7, s. 439).

Şeyx Əlaüddövlə Simnani Şeyx Əhməd Zakirin bu sözünə olduqca böyük dəyər vermişdir (13, s. 239). Şeyx Zakir kitab yazmamış, fikirlərini dəftərə qeyd etməmişdir, ancaq onun ülvi kəlamları dillərdə əzbər olmuşdur. Deyilənlərə görə, Şeyx Zakir öz daxili dünyasına eləsinə qərq olarmış ki, bir həftə heç nə yeməzmiş. Birinin ona yemək aparmaq məqsədilə yanına getməsini və onun addımlarının səsini eşidib narahat edilməsini istəməzmiş. Qulam Sərvər Lahuri *"Xəzinətül-əsfiya"* adlı əsərində bunları qeyd etmişdir: "*Şeyx Əhməd Zakir müridlərindən birinin öz daxili dünyasına çəkildiyini gördüyü zaman nalını çıxarıb boynunun kökünə vurmuş. Müridi ona: "Mən öz dünyama qərq olmuşam, şeyxim niyə məni narahat edirsən?* dedikdə *Şeyx: "Öz dünyasına qərq olan şəxs eləsinə özündən keçməlidir ki, bir həftə heç nə yeməsin, birinin ayaq səsini eşitdikdə də ona yeyəcək nəsə gətirməsini yadına salmasın.*" (10, s. 122; 17, s. 276; 13, s. 238).

Şeyx Əhməd Zakirin anadan olduğu yerin adı bəzi təzkirələrdə Cüzgani, Cüzcani və Cürfani şəklində qeyd edilmişdir. Bu da əlyazma katiblərinin bu coğrafi bölgəni yaxşı tanınmamasından bəhrələnmişdir. Təsəvvüf haqda araşdırma aparan yazarlar Cürfani toponimini Məşhədin Cüzgan bölgəsi kimi fikirləşərək, Cüzgan şəklində yazıb yanıla bilərlər. Halbuki Hafız Hüseyin Kərbəlayi Təbrizli "*Rövzətül-cinan*" adlı əsərində buranın adını açıqca Cürfani deyə qeyd etmişdir (10, s. 123; 12, s. 300). Curfani toponiminin ərəb dilindəki tələffüz biçimi Gurpani şəklindədir və Gurpan da İsfərayinin güney qəsəbələrindən birinin adıdır. Şeyx Əhməd Zakirin Gurpandaki xangahı və orda olan bir kahadakı ibadətxanası tanınmış bir məkandır. İstəxri də bu yerin adını səhvən Cuzganı biçimində qeyd etmiş və oranı Məşhədin bir kəndi kimi qələmə vermişdir (10, s. 123; 13, s. 238).

"*Əqtabi-uveysi*" təzkirəsində Şeyx Əhməd Zakirin ürfani və mənəvi məqamı ilə rütbəsi daha detallı qeyd edilmişdir. Bu şeirlərdə onun anadan olduğu yer səhvən Cürfani və Hürpani "Cuzcani" biçimində yazılmışdır:

*Tanrı Cüzcaniyə yaxşı xəbər verdi*
*Ki, ey gizli sirləri bilən,*
*Sən Əhməd kimi bizim yolumuzun dəlilisən,*
*Vəlilər əhlinin bələdçisisən.*
*Bir kimsənin can gəmisinin burulğana düşdüyünü gördükdə*
*Xilası üçün Nuh kimi yüyür.*
*Biz sənin üçün qulaq, əl və dilik,*
*Sənin üçün can qədəhində coşmarıq.*
*Sən başdan-ayağa boş bir meysən,*
*Sənin üçün gah içki gah qədəhik.*
*Sən xoşbəxt qafilə başçısı olasan,*
*Qafilələrin zəngi olasan.*
*Haqqı axtaranlar üçün işarətsiz işarəsən,*
*Bu qafilənin yanan çırağısan.*[5] (10, s. 126; 4, s. 307)

---

[1] بشارت داد حق بر جوزجاني گورپاني
تو چون احمد, دليل راه مايي چو
بيني كشتي جاني به گرداب تو را دست و
زبان و گوش ماييم تو چون نايي تهي
از پاي تا سر تو باشي كاروان
سالار مقبل

كه اي واقف به اسرار نهاني
دل اهل و ال را رهنمايي
پي آزاديش چون نوح بشتاب
تو را در ساغر جان, جوش ماييم
تو را گه باده‌ايم و گاه ساغر
دراي حضرت حق در قوافل

Əlaüddövlə Simnanî "*Xumhaneyi-vəhdət*" adlı əsərində kübrəviyə-zəhəbiyyə təriqətinin qütblərini şeir tərzində yad etmiş və Şeyx Əhməd Zakirin də adını anmışdır:

*Onun ardınca (Əli Lələ) Şeyx Əhməd bələdçi,*
*Mürtəza Kuyinin aşiqlərinin mürşidi.*
*Onun Coganı (Cürfan) laməkandı,*
*O bəxtiyar vəlinin məkanı oldu.*[61] (25, s. 24-25)

Yenə "*Əqtabi-uveysi*" adlı təzkirədə açıqca Əli Lələdən sonra yerinə Əhməd Gurpaninin keçdiyini qeyd etmişdir. Əli Lələ vəfat etdiyi zaman Cuzcaniyə (Cürfani) qaibdən Tanrı tərəfindən işarət gəlmişdir. Şeyx Camaləddin Əhməd Gurpani dünyadan köçdükdən sonra Şeyx Nurəddin Əbdürrəhman Kəsrəgi (Kəsirki) İslam Dünyasının böyük arifi (h. 639-717) Gürpaninin canişini olaraq xəlifə seçilmiş və kübrəviyyə təriqəti Bağdadda Nuriyə İsfərayiniyyə silsiləsi müridləri tərəfindən davam etdirilmişdir (10, s. 128):

*İsfərayindən olan Şeyx Nurəddin*
*Əhməddən sonra ələmi ucaltdı.*
*Əbdürrəhman adı namı və*
*Təriqətdə mövla Heydərin quludur.* (13, s. 563)

Şeyx Əhməd Zakir Gurpani kamil Şeyx Raziyəddin Əli Lələnin müridi, Lələ də şəhid Şeyx Məcdəddin Bağdadinin xələfi, o da alimlərin imamı, mühəddislərin sultanı və araşdırıcıların qütbü, itmiş işıqların məkanı, qüdsi sirlərin mədəni, mənbəyin və dinin ulduzu, Kübra adıyla tanınan və Bidlisli Şeyx Əmmarın xələfi və o da Əbu Nəcib Əbdülqadir Sührəverdinin xələfi, o da Əhməd Qəzalinin xələfi, o da Əbubəkrü Nəssacın xələfi, o da Əbülqasım əl-Qurkaninin xələfi, o da Əba Osmanül-Məğribinin xələfi, o da Əbüləli Katibin xələfi, o da Əbüləli Rudbarinin xələfi, Əbülqasım əl-Cüneydin xələfi, o da Sürəyya əl-Saqatinin xələfi, o da əl-Kərhinin tanınmış xələfi, o da İmam Əli Rzanın xələfi, o da İmam Musa Kazımın xələfi, o da İmam Cəfər Sadiqin xələfi, o da İmam Məhəmməd Baqirin xələfi, o da İmam Əli Zeynəlabdinin xələfi, o da şəhid olan imam hz. Hüseynin xələfi, o da - Allah məkanını cənnət eləsin - Əbu Talibin oğlu vəlilərin vəlisi, elm şəhərinin qapısı, sirlər xəzinəsi, Allahın aslanı olan imam Əlinin xələfi, o da peyğəmbərlərin şahı, dindarların rəhbəri, kəhanət bargahının sultanı, fələklərin günəşi, kainatın ulu şəxsiyyəti, yaradılmışların ən ülvisi, Allahın rəsulu hz. Məhəmməd və bütün peyğəmbərlərin tamamına ən gözəl dualar. Ulu Tanrıya həmd və sənalar olsun (10, s. 128; 11, s. 371; 13, s. 140-141).

Qaynaqlarda Şeyx Əhməd Zakir Gürpanînin təxəllüslərilə əlaqəli olaraq *"**bədrüd-düca**"* (14 gecəlik ay) qeydi vardır.

Ondan (Əli Lələdən) sonra şeyx Əhməd müctəhid (imam) olduğundan ləqəbi "***Bədrüd-düca***"dır (10, s. 128; 9, s. 9341).

---

[5] از به حقجویان نشان بی نشانی
پي او )علي الال( شيخ احمد رهنماست
جوقانش )جورفانش( بود جای مکان
[1] بشارت داد حق بر جوزجاني گورپاني
تو چون احمد, دليل راه مايي چو
بيني كشتي جاني به گرداب تو را دست و
زبان و گوش مايي تو چون ناي تهي
از پاي تا سر تو باشي كاروان
ساالر مقبل
به حقجویان نشان بی نشانی
[6] از پي او )علي الال( شيخ احمد رهنماست
جوقانش )جورفانش( بود جای مکان

سراج روشن اين كارواني
هادي عشاق كوي مرتضاست
شد مكان آن ولي كامران
كه اي واقف به اسرار نهاني
دل اهل و ال را رهنمايي
پي آزادياش چون نوح بشتاب
تو را در ساغر جان, جوش مايي
تو را گه بادهايم و گاه ساغر
دراي حضرت حق در قوافل
سراج روشن اين كارواني
هادي عشاق كوي مرتضاست
شد مكان آن ولي
كامران

Şeyx Əhməd Gurpani Dadi Şirazinin şeirləri üstündə çoxlu araşdırmalar aparmışdır. Onun bir tərcibəndi:

*Mən sərxoş, **qələndər** və laqeydəm*
*Bu yönümlə mən əbədiyəm.*
*Bir yar istərəm, bir də tənha yer*
*Dünyanın məşğələsilə əlləşməm.*
*Bir könüllü yarın kuyinin xumxanəsi*
*Qoymaram o mühitə.*
*Xum başının kərpicini yastıq edək*
*Torpaq onda fidan kimi bütdür.*
*Bütlərin eşqindən qurtulmaq üçün*
*Onlara qovuşmaq gərək*
*Ondan xəyali vəsvəsə qalar.*
*Qalxıb yarın əlindən tutalım.*
*Yarsız nə cür sakitlik tapım.* (10, s. 129; 23, s. 456)

Şeyx Əhməd Zakir Gurpaninin ölümüylə əlaqəli olaraq mənbələrdə müxtəlif məlumatlar vardır. Bəziləri onun ölüm tarixini h.q. 669, bəziləri də h.q. 667-ci ilin rəbbiül-axir ayının son günü olan bazar ertəsi gününü qeyd etmişdir, ancaq yayğın düşüncə h.q. 669-cu ildə vəfat etdiyidir. Qulam Sərvər Lahuri, şeyx Əhməd Zakirin ölüm tarixini şeirlə dilə gətirmiş və ölüm tarixini belə qeyd etmişdir:

*Öz dövründə dinin gözəlliyi olan Əhməd*
*Onun zati gözəlliyi ayıdır.*
*O dünya gözəlinin ölüm ili*
*Gözəllik günəşinin qütbünü say* (h.k. 669) (17, s. 276).

Şeyx Əhməd Gurpani Hülaku xanın çağdaşıydı və onun hakimiyyəti dövründə Allahın rəhmətinə qovuşmuş və İsfərayinin Gurpan məzarlığında dəfn edilmişdir (10, s. 129; 12, s. 304; 4, s. 314; 25, s. 574). Şeyx Əhməd Zakirin məzarı da, xanəgahı da İsfərayinin Gurpan bölgəsindədir (22, s. 498).

Gurpanın şimal-şərqində bir dağın yamacında və Şeyx Əhmədin xanəgahından 700 metr uzaqda bir mağara vardır. Burası Şeyx Əhməd Zakirin ibadət evi kimi bilinir. Böyük ehtimalla Hüseyn ibn Kərbəlayinin qeyd etdiyi və hz. Məhəmmədin Gurpaniyə dörd zərbli zikri təlqin etdiyi ağac da bu mağaranın yanındaymış.

**Nəticə**

Türküstan bölgəsi türk xalqının böyük sufi şəxsiyyəti Xacə Əhməd Yəsəvinin ilk təriqəti yaratdığı coğrafiyadır. Onun başlatdığı təriqət ənənəsi və silsiləsi müxtəlif adlarla və böyük sufi şəxsiyyətlərin səyləri ilə xüsusilə köçəri türk tayfaları arasında geniş kütlələrə çatdırılmışdır. Əhməd Yəsəvi və Əbdülxaliq Qucdüvaninin yaratdıqları yəsəvilik və öncə xacəqan, sonra da nəqşibəndilik adıyla çıxış edən təriqətlər yüzillər boyu türk xalqlarını irşad etmiş, onları Tanrının yoluna səsləmişdir. Türklərin də buna biganə qalmamasının yeganə səbəbi qədim türk dini inamı tanrıçılığın nümayəndəsi olan qam, ozan və baxşıların ənənəsinin eynilə təsəvvüf yolunu mənimsəmiş təriqət əhli tərəfindən həyata keçirilməsidir.

Xorasan bölgəsi ilə Azərbaycan tarix boyu daim keçid rolunu oynamış və təsəvvüfün Mərkəzi Asiya və Kiçik Asiya ilə digər bölgələrə yayılmasında ən böyük paya sahib olmuşdur. Nəcməddin Kübradan başlayan kübrəvilik təriqəti onun xəlifələri tərəfindən davam etdirilmiş, Əli Lələ, şeyx Əhməd Zakir vasitəsilə Azərbaycanın görkəmli sufi şairi İzzəddin Həsənoğluna

ötürülmüşdür. "*Kitabi-Sirətün-nəbi*" adlı görkəmli siyər əsəri Həsənoğlunun sufi anlayışını əks etdirməklə yanaşı, mifoloji çağlardan süzülə-süzülə gələn tanrıçılıq inamı ilə türk xalqının mifik anlayışını, dünyaya baxışını, bütövlükdə onun yaratdığı ədəbi mədəniyyətinin də səviyyəsini göstərməkdədir.

Yəsəvidən başlanan təriqət ənənəsi Həsənoğluna ötürülmüş, ondan da ötərək, Anadolunun görkəmli mütəsəvvifi Hacı Bəktaş Vəliyə və davamçılarına çatdırılmışdır.

## ƏDƏBİYYAT


1. Algar, Hamid. Abdülhalik Gucdüvani // TDV İslam Ansiklopedisi, Ankara: TDV Yayınları, 1996.
2. Altaylı, Seyfettin. Azerbaycan Türkçesi Sözlüğü, C. I-II, Ankara: TDK Yayınları, 2018.
3. Baltacı, Halil. Necmeddîn Daye Razi. İstanbul: İnsan Yayınları, 2011.
4. Nəmini, Baqiri Cəmaləddin. Təzkire-ye əqtab-e uveysi, c. I-V, 1983.
5. Benningsen, Alexandre Sûfi ve Komiser, Terc. Dr. Osman Türer, Ankara: Akçağ Yayınları, 1988.
6. Qurani-Kərim. Ərəb dilindən tərcümə: Ziya Bünyadov, Vasim Məmmədəliyev). Bakı: Çıraq, 2005.
7. Câmî, Ahmed bin Molla Nureddin Abdurrahman. Nefhatü'l-Üns min Hadarati'l-Kuds Evliya Menkıbeleri, Terc.: Mahmud Lamiî Çelebi, Sadel.: Abdülkadir Akçiçek, İstanbul: Huzur Yayınevi, 2020.
8. Ceyhan, Semih. Türkiye'de Tarikatlar, Tarih ve Kültür. Ankara: TDV Yayınları, 2015.
9. Dərviş Məhəmməd Haşim. Velayetname. Kitabxane-ye Astan-e Qods-e Rezevi, nüsxe-ye xətti: şomare 9341.
10. Fesəngəri, Ğolamreza Əhməd Şahid. Məşahir-e Recal Əsfərayin. Məşhəd: Bonyad-e pejuheşha-ye eslami, 1379.
11. Həmədani, Əmir Seyyid Əli. Risalə. Daneşqah-e Tehran, mikrofilm, şomare-ye 371.
12. Hoseyn, İbn-e Kərbəlayi, Rouzatol-cinan, c. 2, Tehran, 1965/1970.
13. Hoseyn, İbn-e Kərbəlayi. Rouzatol-cinan və cənnatol-cinan. Ba moqəddeme, təkmil, təshih və təliq-e Cəfər Sultanol-qorrai. Tebriz: Setude, 1383.
14. İstəxri, Əhsənollah Əli. Osul-e Təsəvvof, Tehran, 1338.
15. Esfərayini, Nurəddin Əbdorrəhman. Kaşif ol-əsrar, be ehimam-e Herman Lendelet, Moəssəse-ye Mottəalat-e Eslami-ye Daneşqah-e Tehran, Tehran, 1358.
16. Köprülü, Mehmet Fuad. Türk Edebiyatında İlk Mutasavvıflar, Ankara: TDV Yayınları, 1984.
17. Köprülü, Mehmet Fuad Türk Edebiyatında İlk Mutasavvıflar, İstanbul: Alfa Yayınları, 2018.
18. Lahuri, Ğolam Sərvər. Xəzinətol-əsfiya, c. II, . II, çap-e səngi, Kanpur, 1994.
19. Mir Həmzə Seyid Nigari. Divan. Hazırlayan: Nəzakət Məmmədli, Bakı: Elm və təhsil, 2010.
20. Öngören, Reşat. Tarikat // TDV İslam Ansiklopedisi, C. 40, Ankara: TDV Yayınları, 2011.
21. Öztürk, Yaşar Nuri. Kur'an-ı Kerim Meali, İstanbul: Hürriyet Ofset, Matbaacılık ve Gazetecilik A.Ş.,1994.
22. Sami, Şemseddin. Kamus-ı Türkî. Ankara: TDK Yayınları, 2010.
23. Simnani, Əlaoddoule. Xumxane-ye vəhdət. Be kuşeş-e Əbdorrəfi Həqiqət (Rəfii). Tehran: Kumeş, 1385



***Özet***

***Seyfeddin Altayli***

***Necmeddin Kübrevi'den Hasanoğlu'nun Şeyhi Şeyh Ahmed Zakir'e Kadar: Tasavvuf Düşünce Tarihine Bir Bakış***

Tarikat tutulacak yol, ancak aslında kalbi temizleyerek Tanrı'ya ulaşacak yollar anlamında kullanılmış ve bu anlamını yitirmeden ortaya çıktığı tarihten itibaren günümüze kadar gelip çıkmıştır.

Türk dünyasında tarikat İslam dininin kabulü ile kendini göstermiştir. Tarikatların oluşumuna ise tasavvuf anlayışı sebep olmuştur. Tasavvuf ise miladi XI. yüzyılda ferdi anlamda görülmüş ve XII. yüzyıldan itibaren de

bir şeyhin önderliğinde kitlesel karakter kazanmıştır. Bu anlamda ilk tarikatlar Abdülkadir Geylani'nin kurduğu Kadirilik ve Ebu Hafs Şehabeddin Ömer Sühreverdi'nin kurduğu Sührevilik adlı kurumdur. Türk dünyasında ilk tarikat önce Arslan Baba adlı şeyh tarafından bulunarak yetiştirilen sonra da onun tavsiyesi ile Yusuf Hemedani'ye bağlanan Ahmet Yesevi tarafından kurulan Yesevilik'dir. Yusuf Hemedani'nin başka bir müridi olan Abdülhaluk Gucduvani de Hacegân adlı tarikatı kurmuş, bu tarikatın adı daha sonra Bahaeddin Nakşibendi tarafından değiştirilerek Nakşibendilik adını almıştır. Büyük tarikatlar olarak Şazeliyye, Kübreviyye, Rıfaiyye, Çiştiyye, Mevleviyye, Vefaiyye, Bayramiyye'nin adları anılabilir. Bu tarikatların Anadolu ve Azerbaycan'da yayılması tamamen Horasan erenleri adlı şahıslar tarafından gerçekleştirilmiş ve onların yetiştirdikleri müritler şeyhlerinden aldıkları icazetle yollarını devam ettirmiş, bazıları da kendi adlarıyla anılan ve aynı tasavvuf anlayışını devam ettirmiştir. Bu makalede Kübrevilik tarikatının kurucusu Necmeddin Kübra'dan İzzeddin Hasanoğlu'nun şeyhi ve onu yetiştiren Şeyh Ahmed Zakir Gurpani'ye kadar olan silsile ile tasavvuf yolları incelenmiştir.

***Anahtar sözler:*** *tasavvuf, tarikat, Arslan Baba, Yesevilik, Kübrevilik, Şeyh Ahmet Zâkir Gurpani*

***Summary***

***Seyfettin Altayli***

***A Look at the History of Mystical Thought from Najmaddın Kubravı to Hasanoglu's Sheıkh Ahmed Zakır***

The sect has been used to mean the ways to reach Allah by cleansing the heart, and it has survived until today without losing its meaning. The Turkish world encountered the concept of sect after accepting the religion of Islam. The understanding of mysticism caused the emergence of sects. The period when Sufism emerged is the 11th century AD. However, the understanding of Sufism seen in this century is individual, but Sufism has gained a social character in the company of some sect leaders since the 12th century. In this sense, the first major sects were the Qadiriyya founded by Abdul qadir Gilani and the Suhrawardiyya founded by Suhrawardi. The first sect in the Turkish world is Yasawiyah, which was found and raised by Arslan Baba and founded by Ahmad Yasawi, who was later joined to Yusuf Hamadani by his advice. The Hacegan order, which was also founded by Gucduvani, the disciple of Yusuf Hamadani, later took the name of Naqshbandi. Shazeliye, Kubrawiya, Rifa'iyya, Chishtiya, Mawlawiyya, Vefaiyye, Bayramiyye sects can also be mentioned as major sects. The arrival of these sects in Anatolia and Azerbaijan was carried out by the group called Khorasan saints. The disciples they trained continued their path with the permission they received from their sheikhs, and some of them continued the same understanding of Sufism under their own names. In this article, the lineage from Najm al-Din Kubra, the founder of the Kubrawi order, to Sheikh Ahmed Zakir, who was the sheikh of Izzeddin Hasanoğlu and who trained him, and the way of Sufism they followed were examined.

***Keywords**: Sufism, sect, Arslan Baba, Yasawiyah, Kubrawiya, Sheikh Ahmed Zakir Gurpani*

Məsul katib f.ü.f.d.,dos. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.

**PEDAQOQİKA**

**UOT 372**

# ЭКОЛОГИЧЕСКАЯ КУЛЬТУРА И ОБРАЗОВАНИЕ – РЕАЛЬНОСТЬ

**Вусаля ГАСАНОВА***

*Məqalə redaksiyaya daxil olmuşdur: 16 aprel 2022; çapa qəbul edilmişdir:17 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received:16 th of April, 2021; accepted: 17 th of May , 2022; published online: 30 th of June, 2022*

***Ключевые слова:*** *экология, образование, культура, устойчивое развитие, экологическое пространство*

В формировании экологической культуры должны принимать участие: семья, образовательные учреждения всех уровней, общественные, государственные законодательные структуры, политические и профсоюзные организации, учреждения культуры, науки, туризма и спорта, средства массовой информации, вооруженные силы и религиозные конфессии. Цель экологического образования в семье: формирование такого отношения к окружающему миру, которое обеспечивает осознанное стремление к овладению знаниями, умениями и навыками, необходимыми для личного участия каждого члена семьи в решении и предупреждении экологических проблем, уменьшении антропогенного воздействия на окружающую среду; формирование основ понимания единства и взаимосвязи человека и окружающего мира; воспитание принципов взаимодействия с окружающим миром. Направления экологического образования в семье: обучение детей навыкам бережного отношения к собственному жилью, домашним и сельскохозяйственным животным, комнатным растениям; обучение детей бережному использованию воды, электроэнергии, продуктов питания; формирование у членов семьи культуры потребления и понимания необходимости вторичного использования бытовых отходов; осознание связи между каждодневным поведением человека и состоянием окружающей среды, качеством жизни семьи, включая здоровье и благополучие ее членов и других людей; организация просветительской деятельности среди детей и их родителей в неформальных объединениях при учреждениях и домоуправлениях. Средства экологического образования в семье: организация работы с молодыми родителями путем включения их в активную экологическую деятельность вместе с детьми; создание и распространение методик осуществления экологических проектов для семей с целью привлечения внимания к экологическим проблемам быта, дачного и фермерского хозяйства; создание привлекательных практически полезных пособий по приемам уменьшения экологического риска в повседневной жизни и курсов для всех категорий граждан; разработка и внедрение методик экологического образования, основанных на традиционных ценностях, культурных обычаях, опыте поколений [2, 71-73].

* *кандидат юридических наук, доцент, ИИН НАНА*
*e-mail:* vhasanova@yahoo.com

В своей предыдущей статье, я исследовала экологическую культуру и образование, его развитие и правовое регулирование в Азербайджанской Республике [1, 47-55]

Были раскрыты понятия и расписана хронология развития экологического образования и культуры в Азербайджанской Республике. Проведен анализ понятий на международном и местном уровнях; принципов закрепленных в законодательствах Азербайджанской республики и Российской Федерации; предложены пути решения из сложившейся ситуации [1, 52-54].

В дополнение к предыдущему исследованию, хочу рассмотреть, как указанные в предыдущей статье проблемы и пути их решения находят свое отражение в реальности.

Необходимо обозначить, что экологическое образование имеет цель, а именно подготовка высококвалифицированных людей, владеющих знаниями об окружающей среде, осознающих свою роль и место в современном мире, в которых заложено чувство долга и ответственности, психологически готовых принимать экологически правильные решения и отвечать за их последствия.

Достигнуть этой цели можно лишь путем формирования экологического сознания, привития населению экологической культуры.

В то же время воспитание экологической культуры не может быть результатом только образовательных усилий, а требует создания особой «экологизированной» среды.

В связи с чем, в Азербайджане учрежден Альянс DANMA (Национальный альянс во имя устойчивого Азербайджана), объединяющий в себе структуры, функционирующие в экологической сфере и поддерживающие политику по защите окружающей среды [3].

Главной целью альянса является поддержка создания устойчивого будущего и зеленой окружающей среды в Азербайджане, в том числе мобилизация молодежи в защите окружающей среды, достижение тесного сотрудничества между частным сектором, правительством и гражданским обществом для решения экологических проблем в стране.

Эффективная защита окружающей среды требует объединения усилий между молодыми эко активистами, думающими о будущем нашей планеты, а также поисков более системных путей борьбы с проблемами.

Установление связей осуществляется на разных уровнях взаимодействия: на уровне обмена информацией, разовых мероприятий (акций), а также целенаправленной комплексной деятельности.

Учеными и практиками была разработана концепция развития экологического образования для устойчивого развития города. Она имеет системный методологический характер, включая как теоретический аспект (философское обоснование, методологические и мировоззренческие ориентиры, нормативно-правовые основания, психолого-педагогические основы), так и практико-процессуальный аспект, где рассматриваются этапы реализации экологического образования в городе, а также определены приоритетные функции различных городских учреждений и организаций в обеспечении единого эколого-образовательного пространства в Азербайджане.

Взаимодействие между специалистами НПО, государственных учреждений, образовательных учреждений всех уровней и НАНА будет значительным толчком для формирования непрерывного экологического воспитания и образования в Азербайджане, что создаст в последующем условия для обеспечения единого эколого образовательного пространства в Азербайджане.

Цель экологического образования учащихся – воспитание экологической культуры для становления экологически значимых качеств личности. Экологическая культура формируется системой непрерывного экологического образования, в которой экологическое образование и воспитание учащихся занимает приоритетное место. Именно сегодняшним школьником большую часть жизни предстоит жить в 21 веке. Поэтому не будет преувеличением сказать, что судьба человечества в 21 в. определяется тем, как сегодняшние школьники примут духовные идеалы и как они будут ими руководствоваться в последующей жизни.

Экологическая проблематика была включена в учебные планы дошкольного и школьного образования, а в некоторых школах предлагается углубленное изучение курса экологии.

***Дошкольное и школьное образование***

В дошкольных образовательных учреждениях Азербайджана преподаются элементы экологии. С этой целью используются методические пособия; «Экологическое воспитание в детских садах», «программа экологического образования для детей «Хазар», экологические игры», «Моя первая книга о природе» (для детей в возрасте 3-4 лет) и «Моя первая книга о природе» (для детей в возрасте 5-6 лет) [2, 71-73].

Вопросы экологии в школах излагаются в ходе занятий по истории природы, биологии и географии. Министерство образования приступило к подготовке учебников «Экология и природопользование», «Основы экологии», «Социальная экология», «Экологическое право», «Экология и охрана окружающей среды» и «Окружающая среда, экономика и жизнь».

НПО и некоторые международные организации выдвинули инициативы по экологическому образованию в школах Азербайджана [2, 71-73].

В некоторых районах Государственный центр экологической подготовки и образования Министерства образования открыл ряд центров экологического образования для детей и молодежи. Центр приглашает экспертов из Национальной академии наук Азербайджана, ПО и НПО для проведения курсов, цель которых – повышение информированности об окружающей среде.

***Профессионально-техническая подготовка и высшее образование***

В рамках профессионально-технической подготовки проводится обучение по следующим профессиям: егерь охраняемых территорий, гид-проводник национальных парков и лесник лесного хозяйства.

В учебные планы высших учебных заведений включен ряд экологических предметов, например теоретическая экология, экологическая стандартизация и сертификация, прикладная экология, технические и технологические основы охраны окружающей среды, общая экология, состояние и проблемы окружающей среды в Азербайджане, радиоактивное загрязнение, переработка промышленных и бытовых отходов, экологическая экспертиза, мониторинг окружающей среды, промышленная экология и городская экология.

В планы учебных заведений Азербайджана включены такие предметы, как геоэкология, экология растений, экология животных, экология суши, экология человека, экологическая токсикология и экологическая эпидемиология.

Предмет «Экология» включен в перечень предметов для соискания степени бакалавра по окончании высшего учебного заведения, который утвержден постановлением №8 Кабинета министров от 12 января 2009 года. Для его реализации Министерством образования разработан и одобрен образовательный стандарт по

данному предмету. В 2009/2010 учебном году начато обучение ему на уровне бакалавра в Азербайджанском государственном педагогическом университете, Гянджинском государственном университете, Бакинском государственном университете, Азербайджанском государственном экономическом университете и Ленкоранском государственном университете.

Кроме того, подготовка по специальности «Экологический инжиниринг» начата в Азербайджанской государственной нефтяной академии, Азербайджанском техническом университете, Азербайджанском архитектурно-строительном университете, Сумгаитском государственном университете, Азербайджанском технологическом университете и Мингечаурском политехническом институте.

***Переподготовка***

Академия государственного управления при Президенте Азербайджана организует ежегодные краткосрочные курсы подготовки по вопросам окружающей среды для руководителей верхнего звена государственных учреждений. Институт подготовки и переподготовки МЭПР проводит двух-четырехнедельные курсы подготовки и однодневные-двухдневные семинары по переподготовке для сотрудников Министерства и его подразделений [2, 71-73].

С этой целью необходимо разрабатывать новые подходы и формы работы, которые будут способствовать развитию экологического поведения, формировать экологическое мировоззрение.

Подводя итоги всему сказанному, необходимо отметить, что экологическое образование – это сложный и длительный процесс, это систематическое и последовательное воздействие на личность в продолжение всей жизни, поэтому важно акцентировать внимание на экологическом поведении людей всех возрастов - и юношества, и взрослого населения.

## ЛИТЕРАТУРА

1. Azərbaycan Milli Elmlər Akademiyası Elm Tarixi İnstitutu Elm Tarixi və Elmşünaslıq “Elm günü” (xüsusi buraxılış). № 5 2022, c. 47-55.
2. Европейская экономическая комиссия ООН Нью-Йорк и Женева – Обзоры результативности экологической деятельности. Азербайджан – Второй обзор, 2011, с. 71-73. (https://unece.org/DAM/env/epr/epr_studies/Azerbaijan_II.r.pdf)
3. https://www.trend.az/azerbaijan/society/3385471.html

***Summary***

***Vusala Hasanova***

***Environmental Culture and Education – Reality***

This article focuses on environmental culture and education, their development and legal regulation in Azerbaijan. "Ecological culture" and "environmental education" are consequences arising from the ecological consciousness of citizens. Signs of the formation of environmental consciousness will be - globality, rethinking all major worldview issues, relying on science, combining it with humanistic values, the ability to rise above one's interests for the sake of the interests of wider social strata, the desire to act in the name of preserving nature, saving life on the planet.

The Environmental Performance Review of the UN environmental activities, the following concept is given: Ecological consciousness is a form of public consciousness that is in the process of formation, including a set of ideas, theories, views, and motivations for ecological social life; real practice of relations

between a person and his environment, society and nature, including regulatory principles and norms of behavior aimed at achieving the optimal state of the "society-nature" system.

The objects of reflection of ecological consciousness are: - ecological situation, - social and ecological relations, - social and ecological activity.

The subject of ecological consciousness is the relationship of people to nature and to each other about nature.

The content of ecological consciousness is revealed through the concepts of "environmental relations" and "environmental activity".

The main component of the content of eco consciousness is awareness of the value of life and the danger of its degradation, the need to preserve it, awareness of the limited resources of nature; the need to establish a balance between natural systems and the human system; global nature and the need to solve the environmental crisis, etc., which should affect the environmental education and information space.

***Keywords**: Ecology, education, culture, sustainable development, ecological space*

***Xülasə***

***Vüsalə Həsənova***

***Ekoloji mədəniyyət və təhsil – reallıqdır***

Bu məqalə Azərbaycanda ekoloji mədəniyyət və təhsilə, onların inkişafı və hüquqi tənzimlənməsindən bəhs edir. "Ekoloji mədəniyyət" və "ekoloji təhsil" vətəndaşların ekoloji şüurundan irəli gələn nəticələrdir. Ekoloji şüurun formalaşmasının əlamətləri bunlardır: qloballıq, bütün əsas dünyagörüşü məsələlərini yenidən düşünmək, elmə arxalanmaq, onu humanist dəyərlərlə birləşdirmək, daha geniş sosial təbəqələrin maraqları naminə öz mənafeyindən yuxarı qalxmaq bacarığı, fəaliyyət göstərmək istəyi. təbiəti qorumaq, planetdə həyatı xilas etməkdir.

BMT-nin ekoloji fəaliyyətlərinin Ətraf Mühitin Mühafizəsi üzrə İcmalında aşağıdakı konsepsiya verilir: Ekoloji şüur formalaşma mərhələsində olan ictimai şüurun formasıdır, o cümlədən ekoloji sosial həyat üçün ideyalar, nəzəriyyələr, baxışlar və motivasiyalar toplusudur; "cəmiyyət-təbiət" sisteminin optimal vəziyyətinə nail olmağa yönəlmiş tənzimləmə prinsipləri və davranış normaları da daxil olmaqla, insan və onun ətraf mühiti, cəmiyyət və təbiət arasındakı münasibətlərin real praktikası.

Ekoloji şüurun əks olunma obyektləri bunlardır:

- ekoloji vəziyyət;
- sosial və ekoloji münasibətlər;
- sosial və ekoloji fəaliyyət.

Ekoloji şüurun predmeti insanların təbiətə və təbiətin ona münasibətidir.

Ekoloji şüurun məzmunu "ekoloji münasibətlər" və "ekoloji fəaliyyət" anlayışları vasitəsilə açılır.

Ekoloji şüurun məzmununun əsas komponenti həyatın dəyərini və onun tənəzzül təhlükəsini dərk etmək, onu qoruyub saxlamaq zərurəti, təbiətin məhdud resurslarını dərk etmək; təbii sistemlərlə insan sistemi arasında tarazlığın yaradılması zərurəti; ekoloji təhsilə və informasiya məkanına təsir etməli olan qlobal xarakter və ekoloji böhranın həlli zərurəti və s.-dir.

***Açar sözlər**: ekologiya, təhsil, mədəniyyət, davamlı inkişaf, ekoloji məkan*

Redaksiya heyətinin üzvü p.e.d., prof. Hüseynzadə Rüfət Lətif oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**İQTİSADİ ELMLƏR**

**UOT 332.12; 336.027**

# REGİONUN MALİYYƏ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİNİN XİDMƏT SAHİBKARLIĞININ İNKİŞAFINDA ROLU

**Ədalət ƏSƏDOV** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 16 aprel 2022; çapa qəbul edilmişdir:17 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*
*Received:16 th of April, 2021; accepted: 17 th of May, 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər:*** *region, regional inkişaf, maliyyə, vergi, xidmət sahələri, sahibkarlıq*

## Giriş

Müasir dövrdə Azərbaycan Respublikası üçün mühüm vəzifələrdən biri də, tarazlı regional inkişafa nail olmaqdır. Vətən müharibəsində əldə edilən Zəfər, torpaqlarımızın işğaldan azad edilməsi regional inkişaf hədəflərini daha da artırır və zəruriləşdirir. Hal-hazırda ölkəmizin davamlı və dinamik tərəqqisinin əsasında regionların proporsional inkişafı dayanır desək, yanılmarıq. Dünya təcrübəsi də sübut edir ki, davamlı və etibarlı dinamik inkişaf o zaman mümkündür ki, ölkənin ümumi tarazlı inkişafı təmin edilsin. Məhz bu baxımdan, Azərbaycan Respublikasında da bu istiqamətdə mühüm normativ sənədlər, layihələr və Dövlət Proqramları həyata keçirilməkdədir. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı"nın həyata keçirilməsi, sonrakı illərdə də proqram təminatlı inkişafa üstünlük verilməsi və s. Azərbaycan Respublikasında regional inkişafa böyük önəm verildiyini sübut edir. Azərbaycanın öz tarixi torpaqlarını işğaldan azad etməsindən sonra iqtisadi rayonlaşma ilə bağlı yeniliklərin edilməsi və dövlət başçısının 7 iyul 2021 tarixli fərmanı ilə 14 iqtisadi rayonun yaradılması, iqtisadi rayonların əhatə etdiyi inzibati ərazi vahidlərinin yenidən təsnifləşdirilməsi də regional inkişafın önəminin daha bir nümunəsi kimi qəbul edilə bilər [12].

## Bazar münasibətləri şəraitində regionların inkişafı

Məlumdur ki, bazar iqtisadiyyatı dövlət mülkiyyətinin özəlləşdirilməsi, özəl sektorun inkişaf etdirilməsi və dövlətin iqtisadiyyata müdaxiləsinin minimuma endirilməsini nəzərdə tutur. Bu isə o deməkdir ki, bazar iqtisadiyyatının əsas atributlarından biri də sahibkarlıq fəaliyyətidir. Müşahidələr göstərir ki, bazar iqtisadiyyatında sahibkarlıq, həm də cəmiyyətin təkanverici qüvvəsinə çevrilir. Belə ki, hər bir sahibkarlıq fəaliyyətinin başlıca məqsədi gəlir əldə etməkdir. Ona görə də əldə etdiyi gəlirləri daimi artırmağa çalışan sahibkar, dolayısı ilə cəmiyyətin inkişafının əsas amilinə çevrilir. Məsələn, sahibkar göstərdiyi xidmətin keyfiyyətini, təhlükəsizliyini, rahatlığını, vaxt itkisinin minimumluğunu və s. təmin etməklə daha çox alıcı (müştəri) cəlb edir ki, bu da qarşılıqlı olaraq həm sahibkarın, həm də onun alıcılarının inkişafına səbəb olur. Təbii ki, daha yüksək inkişaf səviyyəsinə malik sahibkar daha keyfiyyətli xidmət göstərəcək, inkişaf etmiş alıcı

* *iqtisad üzrə fəlsəfə doktoru, dosent, Bakı Avrasiya Universiteti*
*e-mail*: seyidheci@mail.ru

(müştəri) isə, öz növbəsində daha keyfiyyətli və təkmil xidmət tələb edəcək. Bu cür qurulmuş qarşılıqlı münasibətlər isə tarazlı inkişafa şərait yaratmış olur [2, s. 112-123].

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Priotitetlər", "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə də sahəvi və regional tarazlı inkişaf əsas hədəflərdən biri kimi qarşıya qoyulmuşdur [1; 8].

Müşahidələr göstərir ki, Azərbaycanın regionlarında xidmət sahibkarlığının inkişaf səviyyəsi, hələ arzu edilən səviyyədə deyildir. Xidmət sahibkarlığı dedikdə, əsas etibarı ilə, xidmət sahələrində - nəqliyyat, turizm, rabitə və s. sahələrdə təşkil edilmiş sahibkarlıq nəzərdə tutulur. Bu sahədə ciddi çatışmazlıqlardan biri istifadə edilən texniki və nəqliyyat vasitələrinin istismar keyfiyyətləri ilə bağlıdır. Belə ki, regionda, mərkəzə nisbətən, müştəri azlığı və eləcə də əhalinin maddi rifahının səviyyəsi sahibkarların, təkmilləşdirici addımlarını məhdudlaşdırır. Başqa sözlə desək, yönəltdiyi vəsaitin itəcəyindən və ya uzun müddətdən sonra geri qayıdacağından ehtiyat edən sahibkar əlavə vəsait qoyuluşuna risk etmir və köhnə, istismara yarasız vasitələrlə xidmət göstərməyi daha üstün tutur. Bu isə, təbii ki, ümumi inkişafı ləngidən səbəblərdən biridir [3, s. 98-107; 6, s. 87-98; 7, s. 145-163].

Aydındır ki, sahibkarlığın inkişaf etdirilməsində mühüm şərtlərdən biri də onun maliyyə təminatıdır. Başqa sözlə desək, maliyyə təminatı olmadan sahibkarlıq fəaliyyətini təşkil etmək və onu inkişaf etdirmək qeyri-mümkündür. O cümlədən, sahibkarlığın geniş yayılmış formalarından biri olan xidmət sahibkarlığının təşkili üçün maliyyə vəsaitlərinin əldə edilməsi zəruridir. Bu baxımdan da, maliyyə potensialının səviyyəsi regionlarda sahibkarlıq fəaliyyətinin inkişafını müəyyən edən əsas amillərdən biridir. Eyni zamanda, sahibkarlığın digər formalarından fərqli olaraq, xidmət sahibkarlığı regionun maliyyə potensialından, orada yaşayan əhalinin maddi-sosial rifah halından daha çox asılıdır. Ona görə də xidmət sahibkarlığının təşkili üçün region əhalisinin yaşayış tərzinin, rifah halının, eləcə də regionun maliyyə potensialının maksimum dəqiqliklə qiymətləndirilməsi çox vacibdir [5, s. 167-182; 11, s. 67-84].

**Regionun maliyyə potensialı və bunun sahibkarlığın inkişafına təsiri**

Araşdırmalar göstərir ki, regionun maliyyə potensialını bir neçə üsulla qiymətləndirmək olar. Birincisi, bu məqsədlə region üzrə faktiki yığılan daxilolmaların ümumi həcmindən istifadə etmək mümkündür. Hazırda isə regionların maliyyə potensialının qiymətləndirmə meyarı kimi baza ilində faktiki əldə edilən gəlirlərin göstəricisindən istifadə olunur. İkincisi, region üzrə adambaşına düşən digər göstəricilərdən istifadə etmək olar ki, bu da maliyyə potensialının nisbi səviyyəsinin əsas göstəricisi hesab olunur. Ümumiyyətlə, adambaşına düşən gəlir göstəricisindən artıq uzun illərdir ki, dünyanın bir çox ölkələrində maliyyə potensialının nisbi meyarı kimi istifadə olunur. Regionun maliyyə potensialının qiymətləndirilməsi zamanı, istifadə edilə bilən digər mühüm göstərici region üzrə ümumi məhsulun (RÜM) həcmidir. Nəhayət, bu istiqamətdə, regionun ümumi vergi bazasının səviyyəsi, "reprezentativ vergi sistemidir" və s. göstərici və üsullardan istifadə etmək mümkündür. Qeyd edilən üsulların mahiyyəti ilə daha yaxından tanış olmaq üçün, ilk növbədə, onların praktiki əhəmiyyətini araşdıraq [10, s. 214-221; 11, s. 82-97; 13].

Tədqiqatlardan aydın olur ki, hal-hazırda Azərbaycan Respublikasında regionların maliyyə potensialını qiymətləndirmək üçün baza ilində region üzrə faktiki yığılan ödəmələrin ümumi həcm göstəricisindən istifadə olunur. Baza ilinin məlumatlarından istifadə etmək prinsipi regionlarda yanlış rəylərin əmələ gəlməsinin qarşısını alır. Eyni zamanda bu üsul regionları vergi dərəcələrini aşağı salmağa sövq etmir, çünki bu halda transfertlərin həcmi cari ildə regionda yığılan ödəmələrin həcmindən asılı olmur. Ona görə də, region büdcəsinin gəlirlərinin ən əsas mənbəyi – həmin ərazidə yaşayan vergi ödəyi-

cilərinin gəlirləridir. Məhz buna görə də, regionun maliyyə potensialının nisbi səviyyəsinin ən geniş istifadə olunan göstəricilərindən biri də adambaşına düşən gəlirlərin göstəricisidir [5, s. 213-222; 9, s. 119-126; 10; 11; 13].

Maliyyə potensialının qiymətləndirilməsi meyarı kimi istifadə olunan həmin göstəricinin ən böyük üstünlüyü bu barədə məlumatların daha asan əldə edilməsindən ibarətdir. Dövlət Statistika Komitəsi (DSK) hər il regionlar üzrə əhalinin orta adambaşına gəliri haqqında məlumatları dərc edir. Həmin göstəricinin mənası son dərəcə aydın və obyektivdir, eləcə də nəzəri baxımdan mühüm üstünlüyə malikdir. Bu göstəricinin sadəliyi və aydınlığı ondan ibarətdir ki, təhsilindən asılı olmayaraq hər kəsə məlumdur ki, adambaşına düşən orta gəlir göstəricisi necə hesablanır və niyə onu regionun fiskal potensialının nisbi səviyyəsinin müəyyən edilməsi göstəricisi kimi qəbul etmək olar [10; 11; 13].

Bütün bunlarla yanaşı, sadəlik adambaşına düşən orta gəlir göstəricisinin əsas üstünlüyü olmaqla yanaşı, eyni zamanda onun əsas nöqsanıdır. Ona görə ki, adambaşına düşən orta gəlir statistikası heç də hər zaman həqiqəti əks etdirmir, çünki müxtəlif regionların iqtisadiyyatında kölgə iqtisadiyyatının fərqli payı vardır. Lakin əgər orta gəlir göstəricisinin dəqiqliyi problemini qoysaq belə, bu göstərici regionun büdcə gəlirlərini generasiya etmək qabiliyyətini tam əks etmir. Məsələn, təsəvvür edək ki, regionda turizm güclü inkişaf edib. Belə region, büdcə daxilolmalarının həcminin əksər hissəsini turistlərin həmin ərazidə sərf etdiyi xərclərin hesabına yığa bilər (məsələn, mehmanxana rüsumları və s.). Lakin eyni zamanda, regionun büdcəsində mövcud olan bu növ əlavə gəlir mənbələri həmin region üzrə adambaşına düşən orta gəlirlərdə əks olunmaya və ya qismən əks oluna bilər. Başqa sözlə, regionun maliyyə potensialını qiymətləndirmək məqsədilə istifadə olunan adambaşına düşən orta gəlir göstəricisinin nöqsanı ondan ibarətdir ki, bu göstərici heç də hər zaman regionun ixtiyarında olan ümumi vergi bazasının nisbi həcmini adekvat şəkildə əks etdirmir. Bu göstəricinin Azərbaycanda istifadəsi ilə bağlı ən əsas problem ondan ibarətdir ki, adambaşına düşən orta gəlirlər üzrə məlumat mütəmadi şəkildə dərc olunsa da, həmin informasiyanın dəqiqliyi şübhə doğurur. Bunun səbəbi təkcə kölgə iqtisadiyyatının mövcudluğu ilə deyil, həm də ölkədə həmin göstəricinin müəyyən olunmasının texniki çətinliyi ilə bağlıdır [10, s. 321-332; 11, s. 28-43; 13].

Regionun maliyyə potensialının əks etdirə bilən üçüncü göstərici – ümumdaxili məhsulun regional analoqu olan RÜM və ya ümumi regional məhsuldur (ÜRM). ÜRM cari dövr üçün regionun iqtisadi ehtiyatlarının (torpaq, əmək, kapital) istifadəsi ilə istehsal edilən mal, iş və xidmətlərin ümumi dəyəri kimi müəyyənləşdirilir. Regionda istehsal edilən mal, iş və xidmətlərin ümumi əlavə dəyərinin istifadə olunmuş iqtisadi ehtiyatların sahibləri tərəfindən əldə olunan ümumi gəlirə bərabər olduğunu nəzərə alsaq, ÜRM regional hakimiyyətin vergiyə cəlb edə biləcəyi ümumi gəlir həcmini əks etdirir. Maliyyə potensialını hesablamaq üçün ÜRM adambaşına düşən orta gəlir göstəricisindən daha məqsədəuyğun bir göstəricidir. Ona görə ki, ÜRM region daxilində generasiya edilən bütün gəlirləri, işçilərin yaşadığı yerdən və ya müəssisənin qeydiyat yerindən asılı olmayaraq əhatə edir [11, s. 45-63; 13].

Daha yığcam olmasına baxmayaraq, maliyyə potensialının meyarı kimi istifadə olunan ümumi regional məhsulda da müəyyən nöqsanlar var. Aydındır ki, ÜRM sadəcə olaraq, regionun iqtisadi ehtiyatları tərəfindən əlavə edilən bütün dəyərlərin cəmidir. Eyni zamanda, ümumi region məhsulunun hesablanması çox çətin bir prosesdir və burada böyük həcmdə məlumatların istifadəsi tələb olunur ki, bu da, öz növbəsində müəyyən çətinliklər yaradır [10; 13].

Ümumi regional məhsulun digər çatışmazlığı, Azərbaycanda vergi ödənişi haqqında tələblər və vergilərin quruluşu ilə bağlıdır. Məlumdur ki, müəssisənin mənfəət vergisi, fəaliyyət yerində deyil, qeydiyyat yerində ödənilir. Bununla bağlı olaraq maliyyə poten-

sial və ÜRM arasında müəyyən fərq yaranır. Buradan nəticə çıxarmaq olar ki, ÜRM, maliyyə potensialını ölçmək üçün adambaşına düşən orta gəlir göstəricisindən daha münasib meyar olsa da, burada regionun real vergi ödəyən ehtiyatları ilə ÜRM arasında müəyyən uyğunsuzluqlar mövcuddur. Ona görə də regionun maliyyə potensialının daha dəqiq qiymətləndirilməsi üçün başqa göstəricidən istifadə etmək zəruridir [5; 10; 11; 13].

Araşdırmalardan aydın olur ki, hal-hazırda Azərbaycanda həyata keçirilən vergi siyasəti, regional siyasət və s. amillərdən asılı olaraq, regionun maliyyə potensialının qiymətləndirilməsi üçün daha münasib olan göstərici "regionun ümumi vergi ödəyən ehtiyatları" göstəricisidir. Bu göstəricisi, regionu maliyyə potensialı meyarı kimi çıxış etdikdə, ümumi regional məhsul ilə sıx bağlı olur. Eyni zamanda, tədqiqatlardan da aydın olur ki, maliyyə potensialının meyarı kimi istifadə edilən bu göstərici bir çox xarici dövlətlərdə (məsələn, ABŞ-da), hələ XIX əsrin 80-cı illərindən istifadə edilir [4; 10, s. 182-196; 11, s. 112-128; 12; 13].

Maliyyə potensialı göstəricisi kimi ümumi vergi ehtiyatlarının üstünlüyü ondan ibarətdir ki, bu göstərici ÜRM ilə müqayisədə regionun vergi ehtiyatlarının həcmini daha dəqiq əks etdirir. Bununla bərabər, bu göstəricinin də nöqsanları olmamış deyil. Bu nöqsanlar ondan ibarətdir ki, ümumi vergi ehtiyatlarının əldə olunması üçün külli miqdarda məlumat tələb olunur ki, bu da bəzi çətinliklər yaradır [11; 13].

Tədqiqatlar sübut edir ki, regionun maliyyə potensialını maksimal dərəcədə dəqiqliklə əks etdirən göstəricini əldə etmək üçün, region və yerli büdcələrə daxil olan bütün vergi və qeyri-vergi ödəmələri nəzərə alınmalıdır. Hər bir region üzrə regional vergi sisteminə daxil edilən ödənişlər bütün yerli vergiləri, eləcə də qeyri-vergi ödənişlərini – nəqliyyat vasitələrini sahiblərindən tutulan vergi, lisenziya ödəmələri, qeydiyyat rüsumları müxtəlif icazələr üçün (xüsusi razılıq tələb edən fəaliyyətlə məşğul olmaq üçün) tutulan ödəmələr, kommunal xidmətlərə görə ödənişləri və müxtəlif cərimələri əhatə etməlidir. Təbii ki, müxtəlif regionlarda həmin vergi və qeyri-vergi ödənişlərinin tərkibi fərqli olacaqdır. Eyni zamanda, regional hakimiyyətin mülkiyyətində olan müəssisələrin gəliri də regionun maliyyə potensialını gücləndirir və buna görə həmin gəlirlər də maliyyə potensialının qiymətləndirilməsində nəzərə alınacaq gəlir mənbələrinə daxil edilməlidir [10; 11; 13].

**Nəticə**

Müasir dövrdə Azərbaycan iqtisadiyyatının inkişaf hədəfləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də aydın şəkildə ifadə olunub. Qeyd edək ki, bu prioritetlər həm də qloballaşan dünyanın qəbul etdiyi Davamlı inkişaf konsepsiyasından, minilliyin hədəfləri adlanan "Dayanıqlı inkişaf məqsədlərindən" irəli gəlir. Təbii ki, bu hədəflərin reallaşdırılması, qarşıya qoyulmuş məqsədlərin ardıcıl şəkildə həyata keçirilməsi müvafiq maliyyə təminatı tələb edir. Hansı ki, belə bir təminat bazar münasibətləri şəraitində, əsasən, özəl sektorun hesabına formalaşır. Büdcənin əsas gəlir mənbəyi olan özəl sektor vergi ödəmələri vasitəsilə həm dövlət büdcəsini formalaşdırır, həm də regionun inkişaf potensialının reallaşdırılmasına kömək edir. Bu baxımdan da hər bir regionun inkişaf strategiyasının əsasında onun maliyyə-vergi potensialı dayanır. Ona görə də, bazar iqtisadiyyatı şəraitində maliyyə-vergi potensialının düzgün qiymətləndirilməsi istənilən regionun inkişaf strategiyası və inkişaf ardıcıllığının zəruri şərtlərindən birinə çevrilib.

Eyni zamanda maliyyə potensialının qiymətləndirilməsi, öz növbəsində regionda sahibkarlığın inkişaf səviyyəsi, region əhalisinin maddi vəziyyəti və eləcə də əhalinin alıcılıq qabiliyyəti barədə müəyyən fikir formalaşmasına kömək edir. Bütün bunlar məlum olduqda isə xidmət sahibkarlığının inkişafı üçün münbit şərait yaranır. Başqa sözlə desək, bu halda xidmət sahibkarlığının təşkilinin səmərəliliyi barədə əvvəlcədən, müəyyən rəy

yürütməyə imkan yaradır. Bu baxımdan regionun maliyyə potensialının ətraflı təhlil edilməsi və qiymətləndirilməsi ümumilikdə sahibkarlıq fəaliyyətinin, xüsusilə də xidmət sahibkarlığının təşkili üçün çox vacibdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Priotitetlər // "Xalq qəzeti", 3 fevral 2021, s. 2-3.
2. Əlirzayev Ə.Q. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları: nəzəriyyə və təcrübə, Bakı: Elm, 2000, 250 s.
3. Əsədov Ə.M. Xidmət sahələrində kommersiya fəaliyyətinin əsasları. Dərs vəsaiti. Azərbaycan Universiteti. Bakı: Yeni poliqrafist MMC, 2016, 284 s.
4. Hüseynov S.Y. Regionların davamlı inkişafının sosioloji aspektləri // Dirçəliş - XXI əsr. 2004. № 76-77, s. 12-21.
5. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Monoqrafiya. Bakı: Elm, 2005, 468 s.
6. Məmmədov Z.S. XXI əsr: iqtisadi inkişafın nəqliyyat faktoru, Bakı: Elm, 2002, 320 s.
7. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri, Bakı: Elm, 2007, 465 s.
8. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri // Xalq qəzeti, 7 dekabr 2016, s. 2-4.
9. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı: Elm, 2007, 428 s.
10. Rzayev İ.M. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı: mövcud vəziyyət və gələcək perspektivlər. Bakı: İqtisad Universiteti, 2010, 514 s.
11. Sadıqov M.M. Azərbaycan Respublikasının maliyyə potensialının formalaşması problemləri, Bakı: Elm, 2001, 150 s.
12. https://www.azerbaijan-news.az/posts/detail/yeni-iqtisadi-rayonlar-olkemizin-gelecek-inkisafi-ucun-yeni-imkanlar-acir-1625780115
13. http://unec.edu.az/application/uploads/2016/07/L-YEV-SAM-R-.pdf


***Резюме***

***Адалат Асадов***


***Роль в развитие услуга предпринимательство оценивал финансовый потенциал в регионе***

Одной из важных задач для Азербайджанской Республики в наше время является достижение сбалансированного регионального развития. Победа в Великой Отечествен-ной войне, освобождение наших земель от оккупации еще больше усиливает и обуславливает задачи регионального развития. В настоящее время можно с уверенностью сказать, что в основе устойчивого и динамичного развития нашей страны лежит пропорциональное развитие регионов. Мировой опыт также доказывает, что устойчивое и надежное динамичное развитие возможно только при условии обеспечения общего сбалансированного развития страны.

С этой точки зрения в Азербайджанской Республике в этом направлении реализуются важные нормативные документы, проекты и государственные программы. Реализация «Государственной программы социально-экономического развития регионов Азербайджанской Республики (2004-2008 годы)», утвержденной Указом Президента Азербайджанской Республики от 11 февраля 2004 года, с обеспечением в последующие годы приоритета к развитию и т.д. Это свидетельствует о том, что региональному развитию в Азербайджанской Республике придается большое значение. Другим примером важности регионального развития можно считать нововведения в экономическом районировании после освобождения исторических земель Азербайджана и создание 14 экономических районов указом президента от 7 июля 2021 года, а также реклассификацию административно-территориальных единиц, охватываемых экономическими районами.

В статье просматривал происхождение формирование финансовый потенциал в регионе. Автор подробный анализирован разных метод с целью оценивать финансовый потенциал в регионе. В

статье показывался что зависимый в развитие услуга предпринимательство финансовый потенциал и благосостояние население в регионе. Автор обосновываван что обязательный с точного оценивать финансового потенциала в регионе для организовать услуга предпринимательство. В статье даль некоторые предложение в направлении оценивал финансовый потенциал в регионе и в развитие услуга предпринимательство.

***Ключевые слова:*** *регион, региональное развитие, финансы, налоги, услуги, предпринимательство*

***Summary***

***Adalat Asadov***

***Role in Development of the Service Ownership of the Having Valued Financial Potential of the Regions***

One of the important tasks for the Republic of Azerbaijan in modern times is to achieve balanced regional development. Victory in the Great Patriotic War, liberation of our lands from occupation further enhances and necessitates regional development goals. At present, it is safe to say that the sustainable and dynamic progress of our country is based on the proportional development of the regions. World experience also proves that sustainable and reliable dynamic development is possible only if the overall balanced development of the country is ensured.

From this point of view, important normative documents, projects and state programs are being implemented in the Republic of Azerbaijan in this direction. Implementation of the “State Program of Socio-Economic Development of the Regions of the Republic of Azerbaijan (2004-2008)” approved by the Decree of the President of the Republic of Azerbaijan dated February 11, 2004, software in the following years giving priority to development, etc. It proves that great importance is attached to regional development in the Republic of Azerbaijan. Innovations in economic zoning after the liberation of Azerbaijan's historical lands and the creation of 14 economic regions by presidential decree dated July 7, 2021, and the reclassification of administrative territorial units covered by economic regions can be considered as another example of the importance of regional development.

In article was looked through formation origins of financial potential of the regions. Autor was comprehensive investigated different ways with the purpose valued of financial potential of the regions. In article have stressing that the development of the service ownership is dependent financial potential of the regions and financial position of population of the region. Autor was grounded valued of financial potential of the regions with maximum exactness is necessary for organize of the service ownership. In article has given definite offers in the direction valued of financial potential of the regions and the development of the service ownership.

***Keywords:*** *region, regional development, finance, tax, services, entrepreneurship.*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Həsənli Yadulla Həmdulla oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

UOT 339,72; 339.9

# BİRBAŞA XARİCİ İNVESTİSİYALARIN İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRƏ TƏSİRİ

**Behbidalı NOVRUZLU** *

*Məqalə redaksiyaya daxil olmuşdur: 17 aprel 2022; çapa qəbul edilmişdir:19 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*
*Received:17 th of April, 2021; accepted: 19 th of May , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər***: *birbaşa xarici investisiya, investisiya, iqtisadi artım, iqtisadi inkişaf, İEOÖ*

## Giriş

Müasir dünyada Transmilli şirkətlərin iqtisadi gücünün ölçüləri bəzi ölkələrin iqtisadiyyatları ilə rəqabət apara biləcək səviyyəyə çatıb. Beynəlxalq kapital hərəkətliliyinin ən mühüm mənbəyi kimi, şübhəsiz ki, Birbaşa Xarici İnvestisiyalar (BXİ) meydana çıxdıqları ölkələrin iqtisadiyyatlarına müxtəlif təsirlər yaradır. Bunun ən mühüm səbəbi investisiyalarını daha çox gəlir əldə etmək düşüncəsi ilə xaricə yönəldən transmilli şirkətlərin bu sərmayələrə böyük əhəmiyyət vermələri və əhəmiyyətli investisiyalar etmələridir. Bu baxımdan böyük miqyaslı BXİ-lərin İnkişaf Etməkdə Olan Ölkələrə (İEOÖ) bir çox cəhətdən təsir etməsi tamamilə təbiidir. Reallaşdırılan BXİ ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bu sərmayələrin mənfi təsirləri olduğunu iddia edənlər olsa da, əksəriyyət müsbət təsirləri olduğunu müdafiə edir. Bu müsbət təsirlər bəzi mənfi təsirləri kompensasiya etmək üçün kifayət qədər böyük və dəyərlidir. Son 20 ildə BXİ cəlb etmək yarışına girmiş və iqtisadi inkişafının böyük bir hissəsini BXİ-lərə borclu olan İEOÖ-in nümunələri ilə birlikdə araşdırsaq, məsələni daha yaxşı başa düşə bilərik. Sözügedən məsələyə keçməzdən əvvəl daha obyektiv olmaq üçün bəzi tərəflərin müdafiə etdiyi BXİ-lərin İEOÖ-lərə mənfi təsirlərindən danışaq.

## Birbaşa xarici investisiyaların mənfi təsirləri

Bəzi seqmentlər tərəfindən yaradıldığı düşünülən BXİ-lərin İEOÖ-ə təsiri; Ödəniş balansı, Rəqabət, Oliqopoliya, Ətraf Mühit və İstehsal Texnologiyaları sahədə araşdıra bilərik.

*Ödəniş balansına mənfi təsirlər*

Daha yüksək mənfəət əldə etmək və mövcud kapitallarını genişləndirmək istəyən transmilli şirkətlər bu istiqamətdə İEOÖ-ə sərmayə qoymağı seçirlər. Bu yolla investisiya qoyulan ölkənin tədiyyə balansına əlavə valyuta gəlir və nəticədə öz müsbət təsirini göstərir. Tədiyyə balansı müəyyən dövr ərzində bir ölkənin rezidentləri ilə xarici ölkənin rezidentləri arasında aparılan bütün iqtisadi əməliyyatları göstərən sistemli qeyd kimi ifadə edilə bilər. Şirkət və təşkilatların rezident statusunun vətəndaşlıqla heç bir əlaqəsi yoxdur (8, 397).

Əsas məqsədi mənfəət əldə etmək olan transmilli şirkətlər bir müddət sonra qoyduqları kapitalın bir hissəsini mənfəət köçürməsi kimi vətənə geri çəkirlər. Bunun baş verməsi olduqca təbii olsa da, investisiyanın yerləşdiyi ev sahibi ölkənin tədiyyə balansı bu vəziyyətdən mənfi təsir görəcəkdir. Əgər transmilli şirkətlər investisiyanı dayandırıb

* *doktorant, Gəncə Dövlət Universitet*
*e-mail:* behbudnovruzlu@gmail.com

vətənə qayıtmaq qərarına gələrsə, o zaman ilkin olaraq qoyulmuş bütün kapital ev sahibi ölkəni tərk edəcək və tədiyyə balansına mənfi təsir göstərəcək. BXİ-lərin digər mənfi təsiri ölkədə istehlaka marijinal meylini artıraraq, idxala təkan verə bilər. Nəticədə ev sahibi ölkə gətirilən kapitalın öz ölkəsində qalmasını istəyərkən, transmilli şirkətlər də mənfəət köçürmələrini həyata keçirmək istəyəcəklər. Yuxarıda qeyd olunan fikirlərin həyata keçirilməsi və balanslaşdırılmamış mənfəət köçürmələri zamanı qəbul edən ölkənin tədiyə balansına mənfi təsir göstərəcək.

**Rəqabətə mənfi təsirlər**

BXİ-lər, əsasən, rəqabətə müsbət təsir göstərsə də, bu təsir bəzən dəyişə bilər və İEOÖ-ə mənfi təsirlər müşahidə oluna bilər. Mənfi təsirlər ümumiyyətlə inhisarçı anlayışın mövcud olduğu bazarlarda müşahidə olunur. Bu anlayışın qarşısını almaq üçün hüquqi tənzimləmələr kifayət etməzsə, monopolist anlayışa uyğun, rəqabətdən uzaq bir anlayış ortaya çıxacaq. Transmilli şirkətlərin, əsasən, güclü investorlar olduğunu nəzərə alsaq, ev sahibi İEOÖ-in biznesləri bu vəziyyətin öhdəsindən gəlməyə bilər. Bayaq qeyd etdiyimiz kimi, yaradılan stimullar həm inhisarçılığı, həm də hüquqi boşluqları dəstəkləyə bilər. Bu baxımdan ölkənin münasibəti və hüquqi praktika xüsusi əhəmiyyət kəsb edir. Aşağıdakı hallarda rəqabətə bəzi mənfi təsirlər yarana bilər (3, 36);

- Qəbul edən ölkə bazarında aparıcı mövqedə olan müəssisənin xarici şirkəti biznes tərəfindən alınması,
- Eyni ölkədə fəaliyyət göstərən iki xarici müəssisənin birləşməsi;
- Xarici müəssisənin keçmişdə məhsul ixrac etdiyi ölkədə hansısa biznesi ola bilər.
- Potensial rəqabət aparan müəssisələrin birləşməsi.

**Oliqopoliya effekti**

Transmillətli şirkətlərin yerli istehsalın həcmini zamanla azaldaraq məhdudiyyətləri bəlkə də ən çox tənqid edilən mənfi təsirlərdəndir. Əsas mərkəzlərin mənfəət köçürmə dərəcələri, ixrac rəqəmləri və istifadə olunan texnologiya ilə bağlı qərarı qəbul edən ölkə üçün mənfi atmosfer yarada bilər. Bundan əlavə, transmilli şirkətlər investisiya etdikləri ölkələrdə çox yüksək olmayan əmək haqqı və inkişaf etməmiş texnologiyanı özündə birləşdirən istehsal modellərindən istifadə edirlər. Transmilli şirkətlərin bu yanaşması ev sahibi ölkənin iqtisadiyyatına mənfi təsir göstərir (3, 38).

**Ətraf mühitə təsirlər**

Transmilli şirkətlərin sərmayə qoyduqları İEOÖ-lərdə yaratdığı ekoloji problemlər tamamilə işlədikləri sektordan, emal olunan materialdan və istifadə olunan texnologiyadan asılıdır. Xüsusilə kimya məhsulları, neft, təbii qaz və mədən məhsulları sahəsində işləyən şirkətlər kifayət qədər diqqət və həssaslıq göstərməsələr, təbii ehtiyatlar təhlükəli şəkildə istifadə oluna və zədələnə bilər. Bununla belə, mütəmadi yoxlamalar, neftayırma zavodlarının açılması, ekoloji təmiz məhsullardan maksimum istifadə üzə çıxan mümkün mənfi təsirlərin qarşısını ala bilər. Xüsusilə, ətraf mühitə mənfi təsir edən sahələrə lazımi nəzarət və səlahiyyətin mövcud olmadığı ölkələrdə bu vəziyyətdən sui-istifadəyə daha çox rast gəlinir. Həmçinin İEÖ-də olduğu kimi ictimaiyyət tərəfindən bu tip məsələlərə nəzarət və həssaslıq yüksək olarsa nəticədə fəaliyyət göstərən şirkətlər daha məsuliyyətli olacaqlar.

**İstehsal texnologiyalarına mənfi təsirlər**

BXİ-lərin İEOÖ-in istehsal texnologiyalarına mənfi təsir göstərdiyini bildirən bəzi fikirlər mövcuddur. Bu fikrin ən böyük əsaslandırılması ondan ibarətdir ki, transmilli

şirkətlər, adətən, ucuz işçi qüvvəsi hesabına istehsal investisiyalarını əmək tutumlu sahələrə yönəldirlər. Belə olan halda investisiya qoyulan ev sahibi ölkədə texnologiyanın inkişafını gözləmək olmaz. İstehsal texnologiyaları öz səviyyəsində olacaq və reallaşdırılan BXİ heç bir töhfə verməyəcək. Texnologiyadan başqa İEOÖ-lər olduqda, transmilli şirkətlər ev sahibi ölkə ilə məlumat mübadiləsi aparmaq məcburiyyətində deyillər. Bu vəziyyət sərmayə qəbul edən ölkənin istehsal texnologiyalarının inkişafına da mənfi təsir göstərir.

**Birbaşa xarici investisiyaların müsbət təsirləri**

İqtisadiyyatda BXİ-lərin reallaşmasının keyfiyyət və kəmiyyət baxımından böyümə, vergi gəlirləri, texnologiya, kapital yığılması, daxili rəqabət, məşğulluq, ixrac və maliyyə kimi müxtəlif sahələrə töhfə verir. İEOÖ-lərdə həyata keçirilən BXİ-lardan sonra inkişaf prosesində sektorların ÜDM-ə töhfələrində fərqlər müşahidə olunur. İnkişaf etdikcə kənd təsərrüfatı sektorunun payı azaldığı halda, sənaye və xidmət sektorunun payı artır (7, 77). Nəzərə alsaq ki, sənayeləşmə prosesini ön planda başa vurmuş ölkələr bu gün aparıcı iqtisadiyyatlardır, deyə bilərik ki, sənayenin inkişafı bir ölkənin iqtisadi inkişafının göstəricisidir. Biz BXİ-lərin İEOÖ-in iqtisadiyyatlarına müsbət təsirlərini araşdırırıq.

**Kapitalın yığılmasına təsiri**

Kapital yığılması olmadan heç bir istehsal fəaliyyətindən danışmaq mümkün olmadığından, xarici investisiyaların İEOÖ-in iqtisadiyyatına ilk və ən mühüm töhfəsi, şübhəsiz ki, ən böyük çatışmazlıq və ən çox ehtiyac duyulan kapital artımıdır. Ölkənin resurslarının kifayət qədər qeyri-adekvat olduğu İEOÖ-ə xarici borcla investisiya qoymaq kifayət qədər riskli və baha başa gəlir. Transmilli şirkətlər investisiyaları ilə İEOÖ-ə əhəmiyyətli miqdarda kapital köçürürlər. Sonrakı dövrlərdə yeni müəssisələrin qurulması və həyata keçirilən yeni investisiyalar investisiyalardan əldə edilən mənfəətlə birlikdə kapital artımının davamlılığını təmin edir və İEOÖ-in inkişafına mühüm töhfə verir. İEOÖ mövcud olan yoxsulluq problemini həll etmək üçün investisiya səviyyəsini yüksəldəcək və gəlir səviyyəsini artıracaq kapital yığımına ehtiyac duyurlar. Buna görə də İEÖ-in ev sahibi ölkələrə gətirdiyi birbaşa investisiyalar bu ölkələrdə kapitalın yığılması baxımından üstünlük yaradır. Başlanğıcda sərmayə, istehsal və buna uyğun olaraq ixracat artımı ilə əlavə bir çox müsbət inkişaf tendensiyası zəncirvari olaraq davam edir.

**Milli gəlir səviyyəsinə və məşğulluğa təsiri**

BXİ ilə kapital yığımının formalaşması, investisiyaların və istehsalın artması nəticəsində milli gəlir artacaq, yeni biznes sahələri yaranacaq və buna uyğun olaraq məşğulluq da artacaq. Bununla belə, məşğulluğun artım sürəti əmək tutumlu investisiyalar və ya kapital tutumlu sektorlara daxil olmasına görə dəyişir. Əmək tutumlu sahələrə qoyulan investisiyalar məşğulluğu daha çox artırsa da, kapital tutumlu investisiyalar texnoloji inkişaflar gətirir və işçi qüvvəsinin keyfiyyətini artırır. Texniki bilik və idarəetmə bacarıqları qazanan işçilər daha sonra BXİ sayəsində öz bizneslərini qurmaq üçün lazımi infrastruktur əldə edirlər. İnvestisiyalardan sonra formalaşacaq ara istehsal məşğulluğa dolayı təsir göstərəcək. Gəlir səviyyəsi yüksək olan ölkələrdə istehsal həcmi də artacaq bu, öz növbəsində məşğulluğun artmasına səbəb olacaq (4, 322). Ən vacib məqamlardan biri məşğulluğun inkişafının daimi olmasıdır. Buna yerli şirkətlərlə harmoniyada işləmək və yeni biznes sahələri yaratmaq üçün ölkəyə gələn BXİ-lərə dəstək verməklə nail olmaq olar. Unudulmamalıdır ki, yeni biznes sahələri yaratmaq biliyə malik olmayan İEOÖ üçün məşğulluq baxımından BXİ-larla birlikdə işləməlidir (2, 5).

**Ödəniş balansına təsirlər**

BXİ-lər İEOÖ-in tədiyyə balansına da ciddi təsir göstərir. Quruluş zamanı gətirilən xarici kapital və xarici valyuta axını ölkənin tədiyə balansına ciddi töhfə verir. İnvestisiya istehsala başladıqdan sonra ixrac və idxalı əvəzləmə şəklində tədiyyə balansında müsbət və valyuta gəlirləri yaratmağa davam edir. Əgər ev sahibi ölkədə daxili bazar o qədər də cəlbedici deyilsə, ölkə xarici investisiyalar baxımından üstünlüklərə malikdirsə, qurumların əməkdaşlığı iqtisadiyyat baxımından yüksək səviyyədədirsə və iqtisadiyyat xarici bazarlara uyğunlaşdırılıbsa, zəruri ixrac mühiti təmin ediləcək və tədiyə balansı qorunacaqdır. Xarici ticarətə bağlı ölkələrin iqtisadiyyatlarında tarazlıq həmişə qorunmur (1, 63). BXİ-lər yerli firmaları rəqabətə məcbur edə bilər ki, bu da onların daxili bazarda sağ qalmasını çətinləşdirir və onların ixracına səbəb olur ki, bu da dolayısı ilə ixraca və tədiyyə balansına təsir göstərir.

**İqtisadi artıma təsirləri**

Bir ölkənin inkişafı həmin ölkənin adambaşına düşən gəliri ilə ölçülür. Hesab olunur ki, ölkədə adambaşına düşən gəlir artdıqca ölkənin inkişaf səviyyəsi də yüksəlir. BXİ-lər ev sahibi ölkənin vətəndaşları məhdud imkanların olması səbəbiylə istehsal edilə bilməyən və ya ölkəyə gətirilə bilməyən məhsullar istehsal edərək adambaşına düşən milli gəliri və ölkənin iqtisadi inkişaf səviyyəsini artırır. BXİ-lərin digər dolayı töhfəsi ölkə daxilində digər investisiyaların, eləcə də öz investisiyalarının səmərəliliyini artırmaqla milli gəlirə töhfə verməsi hesab edilə bilər. BXİ investisiyaları və onların ölkəyə gətirdiyi texniki və təşkilati məlumatlar zamanla ölkədəki digər investorlar tərəfindən mənimsəniləcək və bu, məhsuldarlığı artıracaq. İnvestorun əldə etdiyi gəlir sahibkarlığın inkişafına və yeni investisiyalara sərf olunarsa, qəbul edən ölkənin iqtisadiyyatında daha sürətli artım baş verəcək. Bundan əlavə, BXİ vasitəsilə investisiya qəbul edən ölkədə mövcud olmayan resursların təmin edildiyini nəzərə alsaq, ölkənin inkişafına çox fərqli şəkildə müsbət şəkildə inkişaf edəcəkdir. İEOÖ-də reallaşdırılacaq birbaşa investisiyalar həm ixracı, həm də rəqabət səviyyəsini əhəmiyyətli dərəcədə artıracaq, həyata keçirdikləri istehsalla bazarlarda məhsuldarlıq artacaq və iqtisadi artım sürətləndiriləcək. Xüsusilə son illərdə Uzaq Şərq Çin, Sinqapur və Cənubi Koreya kimi xarici iqtisadi strategiyalar inkişaf etdirərək öz qabığından çıxan ölkələr cəlb etdikləri birbaşa investisiyalar sayəsində çox sürətli iqtisadi böyüməyə girmiş, Latın Amerikası ölkələri xarici ticarətdə tətbiq etdikləri embarqolar nəticəsində hələ də borclar və büdcə kəsirləri ilə mübarizə aparırlar (3, 54). Bu misal BXİ-lərin iqtisadi artım üzərində yaratdığı təsirin konkret nümunə kimi göstərilə bilər.

**Texnologiyaya təsirlər**

Texnologiya, yeni məhsulun yaradılmasına və ya mövcud məhsulların daha aşağı qiymətə və daha yüksək keyfiyyətlə istehsalına imkan verən bütün növ bilik, bacarıq və proseslər kimi müəyyən edilə bilər. Texnologiya təkcə məhsul istehsalında deyil, həm də marketinq və idarəetmə kimi xidmətlərin istehsalında və təkmilləşdirilməsində istifadə olunur. Texnoloji yeniliklər və təkmilləşdirmələr kifayət qədər elmi biliyə və üstünlüyə malik olmaqla əldə edilə bilən tədqiqat və araşdırma qabiliyyəti ilə birbaşa əlaqəlidir (8, 781). Bu məlumatlara əsasən aydın olur ki, texnologiya yeni məhsullar istehsal etmək və ya mövcud məhsullardan daha çox qazanc əldə etmək üçün çox mühüm amildir. İnkişaf etməkdə olan ölkələrdə hətta kifayət qədər kapitalın olmadığını nəzərə alsaq, bu ölkələrdə lazımi texnologiya və kifayət qədər texniki biliklərin olmadığını təxmin edə bilərik. Qazanclarını ən yüksək səviyyədə tutmağı hədəfləyən BXİ-lər innovativ-texnoloji tədqiqat işlərinə böyük əhəmiyyət verir və texnologiyaların inkişafına böyük büdcələr ayırır. Buna görə də həmişə ən qabaqcıl texnologiyadan istifadə edirlər. BXİ-lər sayəsində texnoloji

inkişaflar dolayı yolla texnoloji təşəbbüslər üçün lazımi infrastruktura malik olmayan İEOÖ-ə ötürülür. Xarici firmaların istedadı və qabaqcıl texnologiyaları "baxaraq öyrən-mə" yolu ilə daha kiçik yerli firmalara ötürülür. Bu öyrənmə texnikası ilə əmək təcrübəsi də ötürülür, texniki dəstək verilir və bacarıqlar əldə edilir (5, 2). Ev sahibi ölkəyə texno-logiya transferinin ən ümumi formalarından biri yerli işçi qüvvəsinin transmilli şirkətlər-də işləməsi və sonra qazanılan xarici təcrübənin yerli firmalara ötür-məsidir. Bu vəziyyət əmək vasitəsilə transfer adlanır və texnologiya transferinin ən ucuz yoludur. Şübhəsiz ki, texnoloji inkişafın ən çox əldə olunduğu investisiya növü kapital tutumlu sənayelərdə baş verəcəkdir. İşgüzar intensiv sektorlarda xüsusilə texniki idarəetmə biliklərinin və marke-tinq strategiyalarının ötürülməsi müsbət təsir olaraq ortaya çıxır. Sadalanan yollar vasitəsi ilə BXİ qəbul edən ölkədə yeni və qabaqcıl texnologiya ilə məhsuldarlığın artırılmasında, daxili bazarlarda rəqabətin artırılması ilə inhisarçı strukturların qarşısının alınmasında, daxili bazarda istehsal həcminin genişləndirilməsində və qiymət səviyyəsinin aşağı salın-masında təsirli olur (4, 75).

**Marketinq və idarəetmə bacarıqlarına təsirləri**

Yuxarıda qeyd etdiyimiz kimi, xüsusilə əmək tutumlu sektorlara qoyulan investisi-yalarda, BXİ-lər yerli menecerləri idarəetmə və marketinq bilikləri üzrə öyrətmək və on-ların texnoloji investisiyadan daha çox yerli bazarda üstünlüklərindən faydalanmaq istə-yirlər. Getdikcə daha çox transmilli şirkətlər xarici ölkələrə investisiyaları üçün yerli ida-rəçilərə etibar edir ki, bu da İEOÖ-in ümumi idarəetmə biliklərini təkmilləşdirir. Yalnız menecer kimi deyil, digər aşağı vəzifələrdə də çalışan ev sahibi ölkənin əməkdaşları nə-zəri və strateji cəhətdən özlərini inkişaf etdirmək imkanı əldə edirlər. Bu gün yerli idarə-çilər dünyanın ən böyük transmilli şirkətlərində idarəetmənin ən yüksək səviyyəsinə yük-sələ bilirlər. Dünyanın ən böyük transmilli şirkətlərindən biri olan Coca-Colanın, Mc Do-naldsın və digər transmilli şirkətlərin təcrübəsini bu mövzuda mühüm nümunə kimi gös-tərə bilərik.

**Rəqabətə təsirlər**

BXİ-lər rəqabətin çox vaxt yüksək olmadığı yeni bazarlara daxil olduqda, bazarda mövcud olan firmalar bazarda öz yerlərini qorumaq üçün rəqabətdə iştirak etmək məcbu-riyyətində qalacaqlar. Rəqabətin artması iqtisadiyyata çox müsbət təsir göstərəcək. İnki-şaf etməkdə olan ölkələrdə yerli şirkətlər bazar paylarını qorumaq üçün qiymətləri aşağı salmaq və məhsullarını təkmilləşdirmək üçün innovativ-texnoloji tədqiqat-araşdırma iş-lərinə məcbur olacaqlar ki, bu da məhsuldarlığın əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. İnhisarlaşmaya mənfi təsir göstərən BXİ-lər; resurslardan ədalətli istifadəyə, rə-qabətin təmin edilməsinə və məhsuldarlığın artmasına gətirib çıxaracaq (6, 323).

**ƏDƏBİYYAT**


1. Aktan C.C., Vural İ.Y. Çok Uluslu Şirketler Global Sermaye ve Global Yatırımlar. Konya: Çizgi Kitabevi Yayınları, 2006.182 s.
2. Asiedu E. On Thedeterminants of Foreign Direct Investment to Developing Countries: Is Africa Different?. World Development, Elsevier, 2002.-vol. 30 (1), p. 107-119.
3. Batmaz N., Tunca H. Doğrudan Yabancı Sermaye Yatırımları ve Türkiye. İstanbul: Beta Basım Yayın, 2005. 390 s.
4. Berber M. İktisadi Büyüme ve Kalkınma. Trabzon: Derya Kitabevi, 2006.-424 s.
5. Kosma T., Kottaridi C., McHugh J. On the Differential Impact of FDI Host Economies. Nottingham: European Trade Study Group (ETSG), 2004. 133 s.

6. Lebe F. ve Ersungur Ş.M. Türkiye'de Doğrudan Yabancı Sermaye Yatırımını Etkileyen Ekonomik Faktörlerin Ampirik Analizi, Atatürk Üniversitesi İİBF Dergisi, 2011.- s. 321-339,
7. Sabır H. Doğrudan Yabancı Sermaye Yatırımlarını Gelişmekte Olan Ülkelere Yönlendirici Politikalar// İstanbul, Dış Ticaret Dergisi, -2002. s. 74-84.
8. Seyidoğlu H. Uluslararası İktisat Teori, Politika ve Uygulama. (Geliştirilmiş 21. Baskı), İstanbul: Güzem Can Yayınları, 2017. 956 s.

***Summary***

***Novruzlu Behbidali***

***İmpact of Foreign Direct İnvestment on Developing Countries***

In the modern world, the dimensions of the economic power of transnational companies are up to a level where they can compete with some economies. As the most important source of international capital mobility, FDIs have an impact on emerging factors. The most important goal is for multinational companies to invest heavily and make significant investments in order to make more money. In this regard, large-scale FDIs have a significant impact on developing countries. There are opinions about the implemented FDI. Although there are those who claim that these investments have strong effects, they argue that energy has energy effects. These high-energy products have a huge impact. We see that the developing countries and economic development that have entered the race to increase FDI over the last 20 years owe a great deal to FDI. In order to get more and expand their existing capital, transnationals choose to invest in DDCs in this way. In this way, additional currency income is added to the balance of payments from the country in which the investment is made, and as a result has its own income effect. It can express all transactions between residents of a country and residents of foreign countries used during the balance of payments as a systematic record. The resident status of companies and firms has nothing to do with citizenship. The implementation of FDI in the economy contributes to various areas such as quality and quality growth, tax revenues, technology capital accumulation, domestic competition, employment, exports and finance. There are differences in the contribution of the development process sectors to GDP after the developing countries created in the developing countries. As the agricultural sector pays for growth, so does the industrial and service sector. If we take into account that today the leading economies have completed the process of industrialization in the foreground.

**Keywords:** *foreign direct investment, investment, economic policy, economic growth, developing countries, economic development.*

***Резюме***

***Новрузлу Бехбидали***

***Влияние прямых иностранных инвестиций на развивающиеся страны***

В современном мире размеры экономической мощи транснациональных компаний достигли уровня, при котором они могут конкурировать с некоторыми экономиками. Являясь наиболее важным источником международной мобильности капитала, прямые иностранные инвестиции оказывают влияние на возникающие факторы. Самая важная цель для многонациональных компаний состоит в том, чтобы вкладывать значительные средства и делать значительные инвестиции, чтобы заработать больше денег. В этом отношении крупномасштабные прямые иностранные инвестиции оказывают значительное влияние на развивающиеся страны. Есть отзывы о реализованных прямые иностранные инвестиции. Хотя есть те, кто утверждает, что эти инвестиции имеют сильный эффект, они утверждают, что энергия имеет энергетический эффект. Эти высокоэнергетические продукты имеют огромное влияние. Мы видим, что развивающиеся страны и их экономическое развитие, вступившие в гонку за увеличение ПИИ за последние 20 лет, многим обязаны ПИИ. Чтобы получить больше и расширить свой существующий капитал, транснациональные корпорации предпочитают инвестировать в DDC таким образом. Таким образом, к платежному балансу добавляется дополнительный валютный доход от страны, в которой осуществляются инвестиции, и в результате возникает собственный доходный эффект. Он может отображать все операции между резидентами страны и резидентами зарубежных стран, используемые в платежном балансе, в виде систематической

записи. Статус резидента компаний и фирм не имеет ничего общего с гражданством. Внедрение ПИИ в экономику способствует развитию различных областей, таких как качество и рост качества, налоговые поступления, накопление технологического капитала, внутренняя конкуренция, занятость, экспорт и финансы. Существуют различия во вкладе секторов процесса развития в ВВП после того, как развивающиеся страны создали в развивающихся странах. Как сельскохозяйственный сектор платит за рост, так и промышленный сектор и сектор услуг. Если учесть, что сегодня ведущие экономики завершили процесс индустриализации на первом плане.

***Ключевые слова:*** *прямые иностранные инвестиции, инвестиции, экономическая политика, экономический рост, развивающиеся страны, экономическое развитие.*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 338.3**

# RƏQABƏT QABİLİYYƏTLİ MƏHSUL İSTEHSALININ ELMİ-NƏZƏRİ ƏSASLARI

**Səxavət MİRZƏYEV***

*Məqalə redaksiyaya daxil olmuşdur: 05 aprel 2022; çapa qəbul edilmişdir:10 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*
*Received: 05th of April, 2021; accepted: 10 th of May , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər:*** *rəqabət, əmtəə, məhsul, marja, xidmət, istehsal, ticarət, istehlak, sənaye, qiymət, innovasiya, maya dəyəri*

## Giriş

Rəqabət qabiliyyətlilik bütün fəaliyyət sahələri üçün zəruri və prioritet olsa da, hər bir fəaliyyət sahəsində onun formalaşmasına müxtəlif amillər təsir edir. Rəqabət qabiliyyətliliyin formalaşmasına çoxsaylı müxtəlif yanaşmalar mövcuddur ki, bu da məhz, təsir edən amillərin əsasında fərqlənir. Hər bir tədqiqatçı rəqabət qabiliyyətliliyin formalaşmasında bu və ya digər amilin daha üstün mövqeyə malik olduğunu əsaslandırmağa çalışır.

Rəqabət qabiliyyətlilik konsepsiyası özündə bazarın tələblərinə çevik reaksiya, bazarı daimi artan tələbat malları ilə təmin etmək, xarici bazarlara əlverişli çıxış imkanı qazanmaq və rəqabət mübarizəsində davam gətirmək kimi şərtləri birləşdirir. Eyni zamanda, rəqabət qabiliyyətlilik əmtəə, təsərrüfat subyekti, sahə, region, ölkə səviyyəsində formalaşır ki, bu da rəqabət qabiliyyətini müxtəlif səviyyələrdə tədqiq etməyi zəruriləşdirir. Ümumilikdə isə, rəqabət qabiliyyətlilik bazarda rəqabət mühitində əmtəənin öz funksiyalarını tələb olunan keyfiyyət və xərclə yerinə yetirmək bacarığı deməkdir [1, s. 64-72; 6].

Müasir dövrdə iqtisadiyyatın rəqabətə davamlılığı sənaye istehsalının demək olar ki, yeniliklər tətbiq etmək və modernləşmək qabiliyyəti ilə müəyyən edilir. Elmi-texniki tərəqqininin sürəti, digər sahələrdə əmək məhsuldarlığının artması, əhalinin rifah səviyyəsi və s. milli sənayenin inkişaf səviyyəsindən asılıdır. Ümumilikdə isə, rəqabət qabiliyyəti təsərrüfatın idarə olunmasının baza sisteminə xas olan mürəkkəb, çoxtərəfli və çoxsəviyyəli kateqoriyadır. Rəqabət qabiliyyəti fenomeninin öyrənilməsi ilə uzun müddətdir müxtəlif ölkələrin tanınmış alimləri və ayrı-ayrı qruplar, elmi-tədqiqat institutları, dövlət hakimiyyəti orqanları, işgüzar dairələr və s. məşğul olurlar [2].

Rəqabət qabiliyyəti probleminin öyrənilməsində tanınmış alim M.Porter hələ 1990-cı ildə özünün "Beynəlxalq rəqabət qabiliyyəti" adlı əsərində göstərmişdir ki, rəqabət qabiliyyəti anlayışının ümumi qəbul olunmuş tərifi yoxdur. Firmalar üçün rəqabət qabiliyyəti qlobal strategiya olduqda dünya bazarında rəqabət imkanı, bir çox iqtisadçılar üçün – müsbət saldoya malik olan xarici ticarət balansı, bir sıra iqtisadçılar üçün isə mübadilə məzənnəsinə çevrilmiş məhsul vahidinə ən az istehsal məsrəfləridir [1, s. 66-78; 12].

Rusiya-Avropa iqtisadi siyasət mərkəzinin eksperti Fransua Benaroy M.Porterin kitabından 25 il sonra 2006-cı ildə çap olunmuş məqaləsində rəqabət qabiliyyəti anlayışını

* *doktorant, Azərbaycan Kooperasiya Universiteti*
*e-mail*: mirzeyev.s@gmail.com

özünəməxsus şəkildə izah etmişdir. O göstərir ki, adətən rəqabət qabiliyyəti dünya bazarlarında müvəffəqiyyətli fəaliyyətin əhalinin rifah səviyyəsinin yüksəldilməsi ilə əlaqələndirilməsi kimi başa düşülür. Onun fikrinə görə, hər hansı bir ölkədə əhalinin rifah səviyyəsinin yüksəldilməsi strategiyası rəqabət qabiliyyətinin aşağıdakı tərkib hissələrinin əlaqələndirilməsini tələb edir [6; 8; 10]:

- məhsuldarlıq – onun yüksəldilməsi əhalinin gəlirlərinin davamlı olaraq artmasının vacib şərtləridir;
- qiymət üzrə rəqabət qabiliyyəti (real mübadilə məzənnəsi ilə) – ölkənin dünya bazarında rəqabət mübarizəsi aparma qabiliyyəti və ölkədə yeni iş yerləri açılmasına təsir göstərən amillərdən biridir;
- innovasiya fəaliyyəti və texnoloji ixtisaslaşma - dünya miqyasında ixtisaslaşmaya və əhali rifahının yüksəldilməsinə təsir göstərən yeni ideya və texnologiyanı formalaşdırır;
- investisiya cazibədarlığı, onun əsası – məhsuldarlığa və innovasiya fəaliyyətinə həlledici təsir göstərən əlverişli investisiya mühitidir.

Rəqabət qabiliyyəti – ölkənin hökumət və sənaye dairələrini narahat edən ən mühüm məsələdir. Firmalar rəqabətdə müvəffəqiyyət əldə etmək üçün ya aşağı istehsal məsrəflərinə, yaxud yüksək keyfiyyətlə baha qiymətə məhsul satmaq imkanına malik olmalıdırlar.

Tanınmış alman iqtisadçısı Y.Şumpeterin göstərdiyi kimi, "rəqabət qabiliyyəti" anlayışı həddən artıq dinamik kateqoriyadır və onun dinamikası, hər şeydən əvvəl, xarici amillərlə əlaqədardır. Aydındır ki, rəqabət tarazlıq deyil, daim dəyişəndir. İstənilən sahədə təkmilləşmə və yeniləşmə birdəfəlik hadisə deyil, fasiləsiz prosesdir və onun arxasında uzunmüddətli sabitlik dayanır. Bu günki üstünlük, sabah itirilə bilər və yaxud əksinə. Bu baxımdan rəqabət qabiliyyəti rəqabət üstünlüyünə nail olunması üçün həyata keçirilən məqsədyönlü dinamik prosesdir. Başqa sözlə desək, rəqabət qabiliyyəti - məhsul istehsalı və bölgüsü prosesində inhisar mövqeyi ilə əlaqədar yaranan və müvafiq mənfəətin əldə edilməsinə imkan verən, hər hansı bir istehsalçının başqa istehsalçılar üzərində hökmranlığını əks etdirən bazar münasibətləri kimi xarakterizə oluna bilər [1, s. 66-81; 4; 6].

Bununla belə, rəqabət qabiliyyətlilik məhsuldarlıq və ya mənfəətlə məhdudlaşa bilməz. Hər kəsə aydındır ki, ölkə yaradılmış gəlirləri bölüşdürmürsə, əhalinin sağlamlığının sığortalanmasını və ya təhsil infrastrukturunu lazımi səviyyədə inkişaf etdirmirsə və ya siyasi və sosial sabitliyi təmin etmirsə, həmin ölkə uzunmüddətli dövrdə inkişaf etmir. S.Qarellinin qeyd etdiyi fikirlər ölkə miqyasında iqtisadi səmərəliliyin təmin olunmasının şərtlərindəndir. Bu baxımdan M.Porterin yanaşması daha çox diqqəti cəlb edir ki, məhsuldarlıq ölkəyə yüksək əmək haqqını, sabit valyutanı, kapitalın əlverişli şəkildə ödənməsini və bununla da yüksək həyat səviyyəsini təmin etməyə imkan verir [1; 2; 16; 17].

Rəqabət qabiliyyətinin hansı amillin təsiri ilə formalaşması iqtisadiyyatın necə inkişaf etdiyini, milli iqtisadiyyat və təsərrüfat subyektləri qarşısında hansı xüsusi problemlərin qoyulduğunu aydınlaşdırmağa da imkan verir.

Ümumilikdə isə, rəqabət qabiliyyətinə təsir edən amillərə yanaşma birmənalı deyil. Məsələn, B.Raizberq və Q.Fatxutdinovun fikrincə, amillər iqtisadi proseslərin xarakterini və səmərəliliyini müəyyən edən, istehsal olunan məhsulun kəmiyyət və keyfiyyətini müəyyən edən parametrlərdir. Bazar münasibətləri şəraitində amillərin təsiri qaçılmazdır. Bir çox şirkətlərin yüksək rəqabət qabiliyyəti intellektual kapital, müqayisəli qiymətləndirmə, yeni əmtəə və xidmətlərin yaradılması kimi amilləri cəlb etməsi ilə izah olunur. Bu isə o deməkdir ki, bütün dövrlərdə müəssisənin və ya konkret məhsulun rəqabət qabiliyyətlilik səviyyəsi müxtəlif amillərin təsiri ilə baş verir və bu amillərdən asılıdır. Rəqabət qabiliyyətliliyinə təsir edən müxtəlif amillərin təhlili göstərir ki, rəqabətqabiliyyətlilik amilləri bir sıra meyarlara əsasən nəzərə alınır: tədqiqat obyekti, baş vermə xarakteri, əhatə dairəsi, idarəolunma qabiliyyəti, ixtisas və rəqabət səviyyəsi və s. [6; 10; 15; 16].

O.Rossixinanın fikrincə, təsərrüfat subyektinin ən mühüm vəzifəsi ölkənin və ya iqtisadiyyatın inkişafı üçün mövcud olan və proqnozlaşdırıla bilən şərtləri nəzərə almaqla əsas uğur amillərini müəyyən etməkdir. A.Tompson, A.Strikland isə öz araşdırmalarında rəqabət qabiliyyəti amillərinin müəyyən edilməsi probleminə daha çox diqqət yetirmişlər. Onların fikrincə, əsas uğur amilləri müəyyən edilmiş strategiyanın həyata keçirilməsi üzrə fəaliyyətlər, rəqabətə qabiliyyətli olmaq və maliyyə uğuru əldə etməyə yönəlmiş fəaliyyətdir [4; 13; 14; 16 ].

Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, amillərin formalaşması nəsildən-nəslə ötürülür və inkişaf edir. Hər bir nəsil əvvəlki nəsildən qalmış ənənəvi amilləri miras alır və fəaliyyət mühitini, şəraiti nəzərə alaraq əlavələr edir və özünün amillər sistemini formalaşdırır. Məsələn, fransız iqtisadçıları A.Ollivier, A.Diane və G.Urse hesab edirlər ki, hər hansı təsərrüfat subyekti (şirkət) öz rəqabət qabiliyyətini 8 amil üzrə təmin edə bilər [1; 16; 17]:

- əmtəə və xidmətlər üzrə şirkətin fəaliyyəti;
- məhsulun bazar liderlərinin yüksək səviyyəli məhsullarına uyğunluğu;
- sınaq, müqayisəli təhlil və s. üsullarla müəyyən edilən keyfiyyət səviyyəsi;
- mümkün marja ilə əmtəənin qiyməti;
- şəxsi və borc götürülmüş maliyyə;
- ticarət üsulları və fəaliyyət vasitələri;
- satışqabağı hazırlıq səviyyəsi;
- istehlakçıların gələcək ehtiyaclarını qabaqcadan görmək bacarığı və onları bu ehtiyacları ödəmək üçün şirkətin müstəsna imkanlarına inandırmaq bacarığı.

Ümumilikdə isə rəqabət qabiliyyətlilik səviyyəsi həm də istehlakçının alıcılıq səviyyəsindən, seçim imkanlarından da asılıdır. Təbii ki, əgər istehlakçı keyfiyyəti, yüksək xidməti və müəyyən statusu dəyərləndirə bilən qrupa aiddirsə, onların diqqətini ucuz məhsula cəlb edə bilməyəcəyimiz dəqiqdir. Bu mənada, məhsulun rəqabət qabiliyyətinə təsir edən amilləri 3 istiqamətdə təsnifləşdirə bilərik: məhsul (əmtəə) amilləri, bazar amilləri və resurs amilləri.

| | |
|---|---|
| **Məhsul amilləri** | Seçilmiş auditoriya arasında əmtəənin cəlbediciliyini artıran xassələri və funksional xüsusiyyətləri rəqabət qabiliyyətliliyin məhsul meyarlarına aid edilir. Məhsul meyarları dedikdə dad, qoxu, rəng, məhsul və ya xidmətin unikallığı, məhsulun hədəf auditoriya üçün effektivliyini göstərən meyarlar, satış şərtləri, satış sonrası şərtlər, qiymət, məhsulun nümayiş keyfiyyəti, istehlakçının məhsul haqqında məlumatlılıq səviyyəsi və s. kimi amillər nəzərdə tutulur. |
| **Bazar amilləri** | Rəqabət qabiliyyətin bazar parametrləri bazar şərtləri ilə müəyyən edilir və mövcud rəqabət şəraitində və siyasi mühitdə məhsulun nə qədər uğurlu ola biləcəyini ifadə edir. Əvəzedici məhsulların mövcudluğu, sahibkarlığın inkişaf səviyyəsi (mühiti), rəqiblərin sayı, dövlət məhdudiyyətləri və s. kimi amillər bazar amillərinə aid edilir. |
| **Resurs amilləri** | Rəqabət qabiliyyətinin resurs amilləri təsərrüfat subyektinin daxili mühiti ilə müəyyən edilir və hansı resursların rəqabətdə qalib gəlməyə imkan verəcəyini, məhsulun cəlbediciliyini və bazarda üstün mövqeyini təmin edəcəyini göstərir. Resurs amilləri dedikdə ixtisaslı kadrların, sərbəst dövriyyə kapitalının mövcudluğu, məhsulun reklam imkanları, coğrafi mühit, patentlərə və ya xüsusi texnologiyalara sahiblik, çeviklik səviyyəsi və s. nəzərdə tutulur. |

Bütün bunlarla yanaşı, araşdırmalar göstərir ki, hər hansı təsərrüfat subyektinin və ya məhsulun rəqabət qabiliyyəti təkcə onun öz potensialından deyil, həm də əsaslı şəkildə xarici mühit amillərindən asılıdır. Xarici mühit amilləri isə, ilk növbədə, milli iqtisadiyyatın rəqabət qabiliyyətlilik səviyyəsi və dövlətin iqtisadi siyasəti əsasında formalaşır. Bu problemin hərtərəfli və sistemli tədqiqi rəqabət mübarizəsində uğur və uğursuzluğun

səbəblərini uzun illər araşdıran M.Porter tərəfindən aparılmışdır. Porter də öz əsərlərində amilləri qruplara ayırmağı təklif edir, lakin alimin yanaşması fərqlidir [12].

M.Porterə görə, I qrupa ölkədə insan resursları, təbii və maddi, maliyyə və informasiya ehtiyatları, infrastruktur təminatı və s. amillər daxildir. Təsərrüfat subeykti, məhz bu amillərin dəyərindən və dəyərləndirilməsindən asılı olaraq rəqabət üstünlüyü formalaşdırmaq üçün əlverişli şəraiti (mühiti) təmin edə bilər. M.Porterin təklif etdiyi II qrup amillərə tələb şərtləri daxildir. İqtisadçı alim haqlı olaraq, bunu belə əsaslandırır ki, hər hansı məhsula intensiv tələbat onun istehsalının inkişafına təkan verir. Bu halda istehsalçı yeni texnologiyalar tətbiq etməyə, məhsul istehsalını təkmilləşdirməyə, yeni məhsullar buraxmağa daha həvəsli olur. Başqa sözlə desək, Poret II qrupa yeni texnologiya əsasında formalaşan mühit amillərini aid edir [1, s. 65-80; 12].

M.Porterə görə, III qrup amillərə regional klasterlərin formalaşması üçün zəruri olan əlaqəli sənaye sahələrinin mövcudluğu daxildir. Digər iqtisadçı alim D.Panasenkonun fikrincə, hər hansı müəssisənin rəqabət qabiliyyətliliyinin mühüm şərti milli iqtisadiyyatda inkişaf etmiş əlaqəli sahələrin olmasıdır. Hansı ki, iqtisadiyyatın bu sahələri müəssisəni zəruri olan keyfiyyətli materiallar, yarımfabrikatlar, komponentlər, informasiya resursları ilə təmin etmək imkanına malikdir. Eyni zamanda, əlaqəli sənaye sahələri biri-birini əvəz edə bilən əmtəələri bazara çıxaran güclü rəqiblər kimi də çıxış edə bilərlər. Bunun müsbət tərəfi odur ki, müxtəlif sahələri arasında elmi-texniki tərəqqi üçün həvəsləndirici mühit, rəqabət mühiti formalaşır [12].

M.Porterin tövsiyə etdiyi amillər hər hansı ölkənin müəssisələrinin, sənaye sahələri və klasterlərinin fəaliyyət göstərdiyi sistem və ya mühiti formalaşdırır. Rəqabət qabiliyyətliliyin formalaşmasına dair M.Porterin amillər şərti ilə bağlı fikirlərinə yaxın olan iqtisadçı alim N.Kastels də hesab edir ki, rəqabət subyektlərinin bazarda uğuru aşağıdakı amillərlə müəyyən edilir [12; 16; 17]:

- “elm – texnologiya – istehsal – cəmiyyət” sisteminə aid texnoloji inkişaf amilləri;
- istehsalçının istehsal məsrəfləri ilə hədəf bazarlardakı qiymətlər arasındakı fərq;
- daha geniş və zəngin bazarlara çıxış;
- ölkələrin və ya ayrı-ayrı regionların inkişaf strategiyaları.

Digər tədqiqatçı alim Q.Fətxutdinov isə rəqabət qabiliyyətliliyin aşağıdakı amillərinə istinad edir, yəni aşağıda qeyd edilənləri rəqabətə davamlılıq üçün zəruri hesab edir:

1) elmi-tədqiqat və təkmilləşdirmə layihələrinə çəkilən xərclərin səviyyəsi, qabaqcıl texnologiyaların mövcudluğu, yüksək ixtisaslı kadrların olması;

2) istehlakçıların ödəmə qabiliyyəti, paylama şəbəkəsinin əhatə dairəsi, reklam və satışın təşviqi üsulları, bazar və rəqiblər haqqında ətraflı məlumatların olması;

3) keyfiyyətli xammal və materiallara əlçatanlıq səviyyəsi və çevikliyi, hazır məhsulların saxlanma vəziyyəti;

4) təsərrüfat subyektinin maliyyə vəziyyəti, kredit əldə etmə imkanları.

Göründüyü kimi, M.Porter, M.Kastels və R.Fatxutdinovun yanaşmalarından aydın olur ki, təsərrüfat subyektinin rəqabət qabiliyyəti onun fəaliyyət göstərdiyi mühitdə rəqiblərdən daha cəlbedici məhsul istehsal etmə səviyyəsini ifadə edir. Reklam və məhsulun paylanma şəbəkəsi, qabaqcıl texnologiyaların tətbiqi, istehsal xərclərinin azaldılması, yüksək ixtisaslı kadrların cəlb edilməsi təsərrüfat subyektinin maliyyə vəziyyətini və rəqabət qabiliyyətliliyini yaxşılaşdırır.

Araşdırmalar göstərir ki, rəqabət qabiliyyətlilik amillərinin təsnifləşdirilməsinin digər əlaməti ixtisaslaşma səviyyəsidir. İqtisadç alim A.Tsarenko hesab edir ki, rəqabət üstünlükləri bir sıra qısa və qeyri-sabit xarakterli üstünlüklər əsasında da formalaşır. Lakin, inkişaf etmiş amillər və ixtisaslaşma hesabına formalaşan rəqabət üstünlükləridir daha uzunmüddətli və sabit xarakter daşıyır. A.Tsarenko rəqabət qabiliyyətlilik amillərini daxili və xarici olmaqla 2 qrupda təsnifləşdirməyi təklif edir. İqtisadçı alimlər A.Tsarenko

və V.Marcin fikrincə, xarici amillər müəssisənin təsir edə bilmədiyi və öz siyasətində onları dəyişməz bir şey kimi qəbul etməli olduğu amillərdir. Belə xarici amillərə maliyyə və pul siyasəti, qanunvericilik sahəsində müvafiq dövlət təşkilatlarının fəaliyyətini, bazarda iqtisadi durumu, müvafiq əlaqədar (köməkçi) sahələrin inkişafını, bazarda müəssisənin təklif etdiyi məhsullara tələbatın artmasını və s. aid edirlər [9; 10; 11; 16].

Daxili amillərə gəldikdə isə, buraya təsərrüfat subyektinin idarə edilməsi və idarəetmə aparatının peşəkarlığı, ixtisas səviyyəsi, xammal və materialların keyfiyyəti, onların emala yararlılıq imkanı, məhsul satışı həcmi və satış xərcləri, ümumilikdə fəaliyyətin səmərəliliyi kimi məsələlər nəzərdə tutulur.

İqtisadçı alim A.Kostin rəqabət qabiliyyətlilik amillərini idarə olunan və olunmayan amillər kimi də təsnifləşdirir. A.Kostinə görə, xarici mühit amillərinə istehsal, satış və istehlak mərhələlərində özünü göstərən iqtisadi amillər, daxili amillərə isə müəssisənin bazara təsir imkanları aid edilir. Bir qisim tədqiqatçı isə ( məs. O.Rossixina) ümumilikdə xarici amilləri idarə olunmayan, daxili amilləri isə idarə olunan kimi qəbul edir [4; 6; 15; 16].

Müxtəlif alimlər tərəfindən rəqabət qabiliyyətliliyə təsir edən amillərin təhlili göstərir ki, təsərrüfat subyektinin rəqabət qabiliyyətlilik konsepsiyası istehlakçıya təklif olunan xidmətlərin keyfiyyətini və miqyasını inkişaf etdirməklə rəqabət üstünlüyü qazanmaq məqsədini güdür.

Qlobal və milli səviyyədə rəqabət mübarizəsinin kəskinləşdiyi bir vaxtda innovativ yanaşma və dinamik texnoloji inkişaf istər ayrılıqda təsərrüfat subyektlərinin, istərsə də ümumilikdə iqtisadiyyatın rəqabətə davamlılığının, milli iqtisadi təhlükəsizliyin təmin edilməsində həlledici amil kimi çıxış edir. Bu baxımdan da, rəqabət qabiliyyətliliyin ciddi nəzərə alınması və inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir. Həm də ona görə ki, rəqabət qabiliyyətlilik uzunmüddətli və rentabelli istehsal fəaliyyəti üçün zəruri şərtdir, rəqiblərlə mübarizədən qalib çıxmaq, hədəf bazarında müəyyən mövqe tutmaq, qazanc əldə etmək baxımından çox önəmlidir.

**Nəticə**

Yuxarıda qeyd olunan fikirlər belə nəticəyə gəlməyə əsas verir ki, rəqabət qabiliyyətlilik qarşılıqlı əlaqəli müəssisələrin, sahə və regionların, eləcə də və ümumilikdə ölkənin potensial imkanları nəzərə alınmaqla dəyərləndirilə bilər. Həmçinin aydın oldu ki, müxtəlif alimlər rəqabət qabiliyyətlilik ilə bağlı fərqli meyarlara görə çoxlu sayda amillər müəyyənləşdiriblər. Əslində isə iqtisadi ədəbiyyatlarda rəqabət qabiliyyətlilik amilləri ***daxili* və *xarici*** olmaqla 2 qrupda təsnifləşdirilir. Müşahidələr göstərir ki, belə bölgü yalnız təsərrüfat subyektində baş verən dəyişiklikləri və bu dəyişikliklərin nəticələrini deyil, həm də subyektin fəaliyyət göstərdiyi xarici mühitdə baş verən dəyişiklikləri nəzərə almağa şərait yaradır.

**ƏDƏBİYYAT**


1. Vəliyev D.Ə., Əsədov A.M. "Beynəlxalq iqtisadiyyat". Bakı: Avropa nəşriyyatı, 2012, 400 s.
2. Аврамова Е.М. "Поведение молодых специалистов на рынке труда: новые тенденции". М.: Человек и труд, 2007, № 9, с. 41-47;
3. Беляев В.А., Коротков Э.М. "Системология организации". М.: ИНФРА-М, 2000, 182 с.
4. Бондаренко С.О. "О механизме формирования конкурентоспособности продукции промышленного предприятия". М.:, Экономика предприятий, 2001, №9, с. 58-69;
5. Клименко С.М., Омельяненко Т.В. и др. "Управление конкурентоспособностью предприятия". Киев, КНЭУ, 2008, 520 с.

6. Круг Э.А. Факторы, влияющие на конкурентоспособность предприятий // Вестник Алтайского государственного аграрного университета, 2008, №10 (48), с. 96-107;
7. Лапусты М.Г. Предпринимательство. М.: ИНФРА-М, 2000, 448 с.
8. Марцин В.А. Условия возникновения и показатели оценки факторов, формирующих конкурентоспособность предприятия (http://www.anvou.org.ua/academy/herald_info/visnyk_61_5_08/visnyk_61_5_08_98 – 113.pdf);
9. Михайлова Т.А. Конкурентоспособность специалистов в современном обществе // «Конкурентоспособность молодых специалистов: развитие профессионализма и само-совершенствование». Материалы Международной научно-практической конференции. Тверь, ТГУ, 2017, с. 36-41.
10. Панасенко Д.А. Системный подход к показателям конкурентоспособности // Формирование рыночных отношений в Украине, 2008, №3 (82), с. 19-26
11. Плугарова А.В. Психологические условия развития конкурентоспособности личности студента в вузе. Пятигорск, 2008, 196 с.
12. Портер М. Международная конкуренция. Пер. с англ., М.:, Межд. отнош., 1993, 896 с.
13. Рогова В.С. Факторы влияния на формирование конкурентоспособности будущих инженеров-электротехников в процессе профессиональной подготовки // Вестник Академии гражданской защиты, Выпуск 2 (10), 2017, с. 19-27.
14. Россихина О.Е. Основные факторы конкурентоспособности предприятия. (http://www.nbuv.gov.ua/portal/Soc_Gum/Dtr_ep/2010_2/files/EC210_39.pdf)
15. Фатхутдинов Р.А. Конкурентоспособность организации в условиях кризиса: экономика, маркетинг, менеджмент. М.:, Маркетинг, 2002, 892 с.
16. Хань Ч. Факторы, влияющие на конкурентоспособность предприятия. (https://phsreda.com/e-articles/112/Action112-63789.pdf);
17. Царенко О.В. Классификация факторов конкурентных преимуществ отрасли регионов. М.:, Экономическое пространство, 2009, №2, с. 13-25;
18. Челнокова В.М. и др. Управление качеством. СПб.:, СПбГАСУ, 2010, 135 с.
19. Язвенко П.В. Развитие системы менеджмента качества и ее современное состояние: научный обзор. Урал, УГЛУ, Журнал «Научное обозрение Технические науки», 2016, № 4, с. 140-148.

***Summary***

***Sakhavat Mirzayev***

***Scientific-Theoretical Basics of the Produce a Competitive Production***

Although competitiveness is necessary and a priority for all fields of activity, different factors affect its formation in each field of activity. The main priority of all sectors of the world economy is the production of competitive products, as well as the provision of services that can compete in the service sector. Competitiveness has a special effect on the balance between supply and demand, which is a fundamental law of the economy. According to Adam Smith, the development of economics and economic activity depends on equilibrium prices formed in the market and involuntarily regulated by consumers and producers. Naturally, in modern times, this principle is becoming more pronounced, which is based on the competition created by the proliferation of manufacturing enterprises. This, in turn, requires research on competitiveness, as well as scientific and practical research in this area. In particular, research is needed on the production of competitive products in the aftermath of the Covid-19 pandemic, at a time of declining global economic resources, as well as alarm bells ringing around the global food crisis. Undoubtedly, these studies should be developed in a program that suits the characteristics of these areas, not in a complex way. Naturally, the production of competitive products is the basis of the country's economy, which suggests that in all sectors of the economy, both for the domestic market and the global market, it is important for the country's economy to properly study competitive methodologies and study their future prospects. Taking into account the above, we can say that competition is one of the most important concepts that form the basis of the economy, and in order to achieve competitive product production, it is important to study it in depth.

***Keywords***: *competition, commodity, product, margin, service, production, trade, consumption, industry, price, innovation, cost and so on.*

***Резюме***

***Сахават Мирзоев***

***Научно-теоретические основы производства конкурентоспособной продукции***

Конкурентоспособность необходима и приоритетна для всех сфер деятельности, на ее формирование в каждой сфере деятельности влияют разные факторы. Основным приоритетом всех отраслей мировой экономики является производство конкурентоспособной продукции, а также оказание услуг, способных конкурировать в сфере услуг. Конкурентоспособность оказывает особое влияние на баланс между спросом и предложением, который является основным законом экономики. По Адаму Смиту, развитие экономики и экономической деятельности зависит от равновесных цен, формирующихся на рынке и невольно регулируемых потребителями и производителями. Естественно, в новое время все более отчетливо проявляется этот принцип, в основе которого лежит конкуренция, создаваемая распространением производственных предприятий. Это, в свою очередь, требует исследований конкурентоспособности, а также научно-практических исследований в этой области. В частности, необходимы исследования производства конкурентоспособной продукции после пандемии Covid-19, в период сокращения мировых экономических ресурсов, а также в связи с глобальным продовольственным кризисом. Несомненно, эти исследования должны развиваться по программе, соответствующей особенностям этих направлений, а не комплексно. Естественно, что производство конкурентоспособной продукции является основой экономики страны, что говорит о том, что во всех отраслях экономики, как для внутреннего рынка, так и для мирового рынка, для экономики страны важно должным образом изучить конкурентные методики и изучить их будущие перспективы. Принимая во внимание вышеизложенное, можно сказать, что конкуренция является одним из важнейших понятий, составляющих основу экономики, и для достижения производства конкурентоспособной продукции важно ее углубленное изучение.

***Ключевые слова:*** *конкуренция, товар, продукт, маржа, услуга, производство, торговля, потребление, промышленность, цена, инновация, себестоимость и т.д.*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.

**UOT 334.012; 334.7**

# AZƏRBAYCANDA BİZNESİN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

**Aqil QURBANZADƏ**[*]

*Məqalə redaksiyaya daxil olmuşdur: 21 aprel 2022; çapa qəbul edilmişdir:25 may 2022; online-da çap edilmişdir: 30 iyun 2022*

*Received:21 th of April, 2021; accepted: 25th of May , 2022; published online: 30 th of June, 2022*

***Açar sözlər*: *biznes fəaliyyəti, maliyyələşmə, xarici təcrübə, iqtisadi yüksəliş, istehsal xərcləri***

## Giriş

Uzunmüddətli iqtisadi inkişafın təmin edilməsi birbaşa biznesin inkişafı ilə bağlıdır. Ölkədə milli iqtisadiyyatın yenidən qurulması şəraitində struktur baxımdan biznesin inkişafı sahəsində elmi-texniki inkişafın təmin edilməsi, məşğulluğun və mənfəətin artırılması və s. kimi müəyyən vəzifələr həll olunur.

Azərbaycanda biznesin iqtisadi yüksəlişi əhalinin rifahının yüksəlməsinə təsir edən mühüm amildir. Ən mühüm vəzifələr sosial-iqtisadi və maliyyə sabitliyinin təmin edilməsi, normativ-hüquqi bazanın və qanunların icra mexanizminin təkmilləşdirilməsi, sənayedə ixtisaslı kadrların inkişafı, təhsil sistemində dəyişikliklər və s. ölkədə biznesin inkişafına təsir edən amillərdir.

Biznesin inkişafı istiqamətində infrastrukturun inkişafı da vacibdir. İnfrastrukturun inkişafı özəl sahibkarların kapitalının hərəkətliliyini artırır, istehsal xərclərini azaldır və bununla da özəl biznesin inkişafı imkanlarını genişləndirir. Məşğulluq və gəlirlərin artması hesabına sahibkarlığın inkişafı üçün maliyyə resursları, habelə maddi və intellektual resurslardan səmərəli istifadə problemləri həll olunur. Sahibkarlığın inkişafının mühüm tərkib hissəsi dövlət əmlakının özəlləşdirilməsinə çevrilmişdir.

Dövlət əmlakının özəlləşdirilməsinin mühüm məqsədi azad rəqabət prinsiplərinə və sahibkarlıq təşkilatlarının xüsusi mülkiyyətinə uyğun gələn özünü tənzimləyən bazar iqtisadi şəraitinin formalaşdırılması, iqtisadiyyatın bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən qurulması, bütün növ resursların istiqamətləndirilməsidir. Bu sistem iqtisadi proseslərdə istifadə olunur, iqtisadiyyata, o cümlədən xarici investisiyalara yönəldilir. Biznesin inkişafı məqsədilə bazar mexanizminin çatışmazlıqları bazarın dövlət tərəfindən tənzimlənməsi yolu ilə aradan qaldırılır. Ümumiyyətlə, dünyada mövcud xalis bazar iqtisadiyyatı bazar tənzimlənməsi ilə dövlət tənzimlənməsinin qarışıq iqtisadiyyatı kimi fəaliyyət göstərir. (3)

Biznesdə problemlərin həlli biznes konsepsiyasının hazırlanmasını tələb edir ki, bu da ölkənin sosial-iqtisadi inkişafı strategiyasında öz əksini tapmalıdır. Biznes strategiyasının problemlərinin həlli üçün dövlət yardımı mexanizminin yaradılması ölkənin iqtisadi suverenliyinin mühüm şərtidir. Sahibkarlığın milli iqtisadi maraqlarının dövlət tərəfindən qorunması və tədarükün iqtisadi təminatı ən mühüm istiqamətlərdən biridir. Biznesin sə-

[*] *magistr, Bakı Avrasiya Universiteti*
*e-mail:* agil.gurbanzadeh@gmail.com

mərəli və dayanıqlı inkişafına, istehsalın, bitkiçilik məhsullarının istehsalının, onun emalının, satışının və ixracının maddi-texniki təminatına şərait yaradılması özəl sektorda da biznesin inkişafına təkan verir.

Azərbaycan biznesinin dünya iqtisadi sistemində dinamik inkişafı inteqrasiyanın səmərəliliyinin xarakterindən və sahibkarlığın səviyyəsindən asılıdır. Müasir şəraitdə sahibkarlar üçün faydalı olan özəl sektorun inkişafına xüsusi diqqət yetirilir.

Keçmiş SSRİ-nin süqutundan sonra iqtisadi transformasiya prosesləri, müasir sosial-iqtisadi sistemlərdə nəzərdə tutulmuş şərtlərin tənzimlənməsi başlandı. Buna görə də bir çox keçmiş sosialist ölkələri ən mühüm sahələrdə, xüsusən də sosial sahədə və ticarət siyasətində islahatlara başlamışlar. Bu baxımdan iqtisadi sahədə islahatların əsas vəzifələrindən biri bazar prinsipləri mexanizmlərinin həyata keçirilməsini nəzərdə tutur. Hazırda biznesin inkişafının nəzəri və metodoloji əsasları milli strategiyanın bir hissəsində nəzərdə tutulan iqtisadi inkişaf baxımından dünyada aparıcı yerləri tutmağın tələblərinə adekvatdır. Ən təsirli iqtisadi hadisələrdən biri olan Davos İqtisadi Forumunda 2016-cı ildə dəlillərə əsaslanan islahatlar nəticəsində ölkələrin rəqabət qabiliyyətinin yeni siyahısı açıqlanıb. Bu siyahıya görə Azərbaycan dünyada 18-ci yerdədir.

Biznesin təkmilləşdirilməsi üçün prioritet istiqamətlərdən biri normativ-hüquqi baza məsələsidir. Son illər sahibkarlıq fəaliyyətinin təkmilləşdirilməsi üçün normativ-hüquqi bazanın gücləndirilməsi məqsədilə tədbirlər həyata keçirilib, xüsusilə qanun qəbul edilib, iş mexanizmi yaradılıb. İşəgötürənlərlə işçilər arasında işgüzar münasibətlərin inkişafı ümumilikdə əmək bazarındakı vəziyyətdən asılıdır. Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatı tərəfindən imzalanmış Layiqli Əməyə dair ölkə proqramında müəyyən edilmiş tələblər lazımi qaydada yerinə yetirilmişdir. Əhalinin sosial rifahının yaxşılaşdırılması məqsədilə regionların tarazlı inkişafı, yeni iş yerlərinin yaradılması və iqtisadi fəallığın dəstəklənməsi məsələlərinin həlli istiqamətində mühüm addımlar atılıb.

Tədbirlərin dərhal effektivliyi biznesin qeydiyyatı üçün institusional şəraitin genişləndirilməsindən və digər prosedurların səmərəliliyindən, bürokratik maneələrin aradan qaldırılmasından asılıdır. Dövlət başçısının fərmanı ilə kommersiya təşkilatlarının "Bir pəncərə" sistemi vasitəsilə dövlət qeydiyyatına alınması əlamətdar hadisədir. Kommersiya təşkilatlarının qeydiyyatının sadələşdirilmiş proseduru tapşırığının həyata keçirilməsi ilə əlaqədar qeydiyyat üçün tələb olunan sənədlərin sayı otuz üçdən yeddiyə endirilib.

Azərbaycanda biznesin inkişafı sahibkarlara münasibətdən, sahibkarlıq strukturlarının inkişafı isə onların təşkilinin səviyyəsindən asılıdır. Bu baxımdan Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının fəaliyyəti xüsusi diqqətə layiqdir. Konfederasiya öz fəaliyyətini mərkəzi və yerli icra hakimiyyəti orqanları, Azərbaycan Milli Məclisi və məhkəmə hakimiyyəti ilə qarşılıqlı əlaqə əsasında həyata keçirir. Konfederasiya sosial tənzimləyici vəzifələrini layiqincə yerinə yetirir, nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq İşəgötürənlər Təşkilatı, Sənayeçilər və Sahibkarların Beynəlxalq İttifaqı, Dünya Qeyri-Hökumət Təşkilatları İttifaqı ilə əməkdaşlıq edir.

Müxtəlif dövrlərdə dövlətin inkişafının prioritetləri bir-birindən fərqlənir. Bir qayda olaraq, iqtisadiyyatın inkişaf və ixtisaslaşma səviyyəsi nə qədər aşağı olarsa, təbii üstünlüklərdən bir o qədər asılılıq yaranır. Belə üstünlüklərin olması iqtisadi inkişaf imkanları üçün əlverişlidir. Bununla belə, elmi-texniki inkişaf uzunmüddətli perspektivdə sürətli inkişaf almır, sosial tələbatlarda ciddi dəyişikliklər baş vermir. Buna görə də, investisiya üçün prioritet sahələrin müəyyən edilməsi ticarət siyasəti metodologiyası üzrə təlimlərin hazırlanması və keçirilməsində mühüm əhəmiyyət kəsb edir. Milli iqtisadiyyatda biznesin inkişafı və inkişaf edən sosial-iqtisadi sahələr üçün investisiya prioritetləri onların yoxsulluğa təsiri və regional bərabərsizliklərin azaldılması baxımından nəzərdən keçirilir. Lakin dövlətdə kapital qoyuluşlarının qloballaşması siyasətini həyata keçirmək

